Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

İctimai-siyasi, hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 14 (6107) 18 aprel 2025-ci il

Qiyməti 40 qəpik

## Gələn il Ağdama 10 min əhali köçürüləcək




**Hazırda Ağdam şəhərində ikinci məhəllənin tikintisi aparılır.**

**Adalet.az Report-a istinadən xəbər verir ki, bunu Azərbaycan Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarında xüsusi nümayəndəsi Emin Hüseynov deyib.**

**Onun sözlərinə görə, buraya 66 bina üzrə 1267 ailənin köçürülməsi nəzərdə tutulub:**

**"Bu təxminən oktyabr-noyabr aylarına təsadüf edəcək".**

**Xüsusi nümayəndə gələcək planlardan danışıb:**

**"Eyni zamanda bu ay Ağdamda dördüncü məhəllənin tikimtisinə başlanılacaq. Gözləntimizə görə, iyun ayında beşinci məhəllənim tikintisi başlanılsın".**

**Emin Hüseynov əlavə edib ki, il sonuna qədər 5000, gələn il isə 10 min əhalinin, ümumilikdə isə 20-25 min əhalinin Ağdama köçürülməsi nəzərdə tutulub.**

## DİN vətəndaşlara müraciət etdi: Bu linklərə daxil olmayın!



**"Hər bir vətəndaş bank kartları ilə ehtiyatlı olmalı, telefona gələn SMS-lərin yönəldici mesajlarının tələblərinə, istəklərinə, vədlərinə əməl etmədən rədd etməli, bloklamalıdır".**

Adalet.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi polis polkovnik-leytenantı Elşad Hacıyev sosial şəbəkə hesabında bildirib.

Qurum rəsmisi növbəti dəfə vətəndaşlara dələduzların qurbanına çevrilməmələri üçün müraciət edib: "Bank hesabınız təhlükəsizlik səbəbi ilə müvəqqəti olaraq dayandırılıb. Zəhmət olmasa proseduru yenidən başladın. http://    .bank";

"Bank hesabınızın təhlükəsizliyini gücləndirmək, kart istifadəsini müvəqqəti dayandırmaq və ya davam etdirmək üçün http:// ... .bank";

"Bank kartınızın təhlükəsizliyi üçün kilidləyin. http://... bank";

"Üçüncü tərəfdən bank hesabınıza icazəsiz giriş aşkar etdik. Zəhmət olmasa yoxlayın. http://... bank";

"Biz müştərilərimizlə elektron poçt, birbaşa poçt və s. vasitəsilə onların qeydiyyatdan keçdiyi müxtəlif məlumatların aktual olub-olmadığını yoxlayacağıq. İstifadə üçün burada yoxlayın. http://.....bank" və s.

SMS-lərdə göstərilən internet URL-ə daxil olmayın. Daxil olduğunuz anda mobil telefonda olan məxfi məlumatlar, hesablar, telefon yaddaşı ələ keçiriləcəkdir. Diqqətli olun, hansısa bankın adında təkrar və qarışıq aldadıcı hərf-simvol qoyulmaqla sizi çaşdıra, yanılda bilərlər".

## DTX bu nazirlikdə araşdırmalara başladı




**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda dövlət vəsaitlərinin və əmlakının idarə olunması sahəsində aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal olunması və Dövlət Təhlükəsizliyi Xidmətindən daxil olmuş məktubla əlaqədar həmin materiallar DTX-yə göndərilib.**

Adalet.az xəbər verir ki, bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabat"ında əksini tapıb. Dövlət Təhlükəsizliyi Xidmətindən daxil olmuş məlumatlara əsasən, 1 audit üzrə aşkar edilmiş qanun pozuntuları ilə əlaqədar hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

## "Azərbaycan və Türkiyə müdafiə sahəsində birgə çalışmalıdır"



**Azərbaycan və Türkiyənin ortaq ordusunun formalaşdırılması davamlı prosesdir.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli müdafiə komitəsinin sədri Hulusi Akar Milli Məclisdə jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin müstəqilliyini dəstəkləyir: "Onun dediyi kimi, artıq bir millət iki dövlət yox, bir millət üç dövlətik. Bundan əlavə, bir millət olmaqla yanaşı, həm də bir orduyuq. Hazırda tək ordu istiqamətində proses davam edir. Azərbaycan və Türkiyə müdafiə sahəsində birgə çalışmalıdırlar. Bunun üçün birlikdə hərbi təlimlər şərtdir. Silahların, təchizatlar uyğunlaşdırılmalıdır. Proses uğurla davam edir".

## Qarabağ Universitetində 10 fakültə fəaliyyət göstərəcək




**"Gələcəkdə Qarabağ Universitetində 10 fakültənin fəaliyyət göstərməsi planlaşdırılır".**

Adalet.az xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev Xankəndidə "Heydər Əliyev və Suveren Azərbaycan" mövzusuna həsr olunmuş konfransda bildirib. Nazir qeyd edib ki, 2030-cu ilə qədər universitetin Musiqi fakültəsi Şuşada, Kənd təsərrüfatı fakültəsi isə Xocalıda tədris olunacaq.

E.Əmrullayev universitetin tələbələrinə xüsusi təşəkkür edib:

"Qarabağ Universitetinin mahiyyəti tələbələrdir. Onların universitetin inkişafında rolu böyükdür. Buna görə onlara təşəkkür düşür. Onların əzmi və uğurlu nəticələri sayəsində universitet daha da inkişaf edir və edəcək".

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı kənd xəstəxanasına yardım etmək istəyir, həkimin yanına gəlir.

Həkim:

**- Soyunun.**

Vəli:

**- Niyə, qaden alem?**

Həkim:

**- Hər halda nə deyirəmsə onu elə.**

Vəli dinməzcə soyunur. Həkim:

**- İndi dərdin nədi?**

Vəli:

**- Heç nə, qaden alem. Sizə odun gətirmişəm, onu haraya boşaldem?**

## Trampdan xəbərdarlıq: "Əks halda çox sərt cavabla üzləşəcəklər"

**"İranın nüvə silahı ola bilməz". Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, bunu ABŞ Prezidenti Donald Tramp deyib.**

Bunun ardınca Tramp rəsmi Tehrana bu fikrindən daşınmadığı təqdirdə qarşılaşacağı münasibətlə bağlı xəbərdarlıq da edib:

"İran nüvə silahı arzusundan əl çəkməlidir, əks halda çox sərt cavabla üzləşəcək".

## *Çində süni intellekt alimləri ard-arda ölür*

**Çində süni intellekt, tibb və hərbi inkişaf sahələrində kəşflər edən bir neçə tədqiqatçı ölüb.**

Adalet.az xəbər verir ki, bu barədə South China Morning Post (SCMP) qəzeti yazıb. Bildirilib ki, elm adamları xəstəliklərdən və ya "bədbəxt hadisələr"dən ölüblər: "Bu cür ölüm hallarının sayı narahatlıq doğurur. insanlar baş verənlərin sənayeyə təzyiqin nəticəsi və ya Çin və ABŞ arasında münaqişənin nəticəsi ola biləcəyini düşünürlər".

# Prezident İlham Əliyev Sloveniyanın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonu qəbul edib.**

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, bu yaxınlarda xarici işlər nazirləri səviyyəsində aparılan siyasi məsləhətləşmələr qeyd edildi.

Dövlətimizin başçısı Azərbaycanın Balkan ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini dedi.

Görüşdə ölkəmizin enerji sahəsində Balkan regionu, o cümlədən Sloveniya ilə əməkdaşlığının inkişafına toxunuldu və bu sahədə perspektivlərə dair fikir mübadiləsi aparıldı. İqtisadi-ticari münasibətlərimizin genişləndirilməsi üçün iki ölkənin biznes dairələri arasında əlaqələrin inkişafının vacibliyi vurğulandı. Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti qeyd edildi. Bu dəhlizin Avropa ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişafında mühüm nəqliyyat arteriyalarından biri olduğu bildirildi və bunun Sloveniya şirkətləri üçün də əlverişli imkanlar yaratdığı vurğulandı. Bu xüsusda, Azərbaycanın və Sloveniyanın limanları arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Prezident Çinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan-Çin əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən dövlətimizin başçısı ötən il Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünü və onunla birlikdə ölkələrimizin strateji tərəfdaşlığına dair birgə bəyanatın qəbul edilməsini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycanla Çin arasında əməkdaşlığın geniş sahələri - siyasi, iqtisadi-ticari, nəqliyyat, enerji, sənaye, sərmayələr, təhlükəsizlik, mədəni-humanitar və digər sahələri əhatə etdiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığına toxunaraq, qarşılıqlı dəstəyi qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın "Vahid Çin" siyasətini daim dəstəklədiyini vurğuladı.

"Bir kəmər, bir yol" layihəsinin geniş coğrafiyada ölkələri bir araya gətirərək, əməkdaşlığı təşviq edən layihə olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın Çinin bu təşəbbüsünə dəstək verən ilk ölkələrdən biri olduğunu qeyd etdi.

Azərbaycanda bütün zəruri infrastruktur layihələrinin yaradıldığını və bir neçəsinin də icra mərhələsində olduğunu vurğulayan Prezident İlham Əliyev Orta Dəhlizin inkişafı baxımından ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların mövcudluğunu bildirdi.

Səfir Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.

Lu Mey Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurla inkişafının Çin tərəfindən də dəstəkləndiyini dedi. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğuladı. Səfir ölkələrimiz arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, əlaqələrimizin bundan sonra da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Çin-Azərbaycan münasibətlərinin inkişafında ulu öndər Heydər Əliyevin roluna toxunan Lu Mey Ümummilli Liderin zəngin irsinin əsasında ölkəmizin bu gün uğurla inkişaf etdiyini vurğuladı.

# Milli Məclisdən Fransa parlamentinə etiraz

**Milli Məclisin Korsika Xalqına Dəstək Qrupu Fransa Fransa Milli Assambleyasının qəbul etdiyi qətnaməyə dair bəyanat yayıb.**



Adalet.az xəbər verir ki, Milli Məclisdən daxil olan bəyanatda Fransa Milli Assambleyasının Azərbaycana qarşı qərəzli mövqeyinə etiraz ifadə olunub.

Bəyanatda qeyd edilib:

"Fransa Milli Assambleyası Azərbaycana qarşı qərəzli mövqeyini növbəti dəfə nümayiş etdirərək, ölkəmizə qarşı, o cümlədən Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ilə bağlı absurd iddiaların əks olunduğu qətnamə qəbul edib. Digər tərəfdən, bu ölkənin xarici işlər naziri Jan Noel Baro da Milli Assambleyadakı çıxışında həmin iddiaları təkrarlayıb, ölkəmiz əleyhinə əsassız ittihamlar səsləndirib.

Azərbaycan Respublikası Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu olaraq, biz beynəlxalq hüquqa və obyektiv reallığa uyğun gəlməyən qətnaməni və səsləndirilmiş fikirləri şiddətlə qınayır, bunları Fransanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsi kimi qiymətləndiririk. Azərbaycan Respublikası hər zaman beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də dövlətlərin suverenlik prinsipinə sadiqdir. Bakı Təşəbbüs Qrupu isə məhz bu prinsiplərə əsaslanaraq, beynəlxalq platformalarda müstəmləkəçilik siyasətinə qarşı çıxış edən, azadlıq və ədalət uğrunda mübarizə aparan xalqlara dəstək məqsədi daşıyan bir platformadır. Fransa tərəfinin bu təşəbbüsü gözdən salmaq cəhdləri, əslində onun öz bədnam müstəmləkə siyasətinə haqq qazandırmaq niyyətindən irəli gəlir.

Fransa kimi beynəlxalq hüququ və demokratiyanı müdafiə etdiyini iddia edən bir dövlətin Ermənistanın Azərbaycan torpaqlarının 30 illik işğalına göz yumması, bu müddət ərzində bir milyondan çox azərbaycanlının doğma yurdlarından didərgin düşməsinə, mədəni və dini abidələrin dağıdılmasına səssiz qalması bu ölkənin əsl simasının sübutu, adət etdiyi ikili standartların daha bir bariz ifadəsidir.

Biz bu gün müzəffər Azərbaycan liderinin rəhbərliyi altında artıq suveren ərazilərimizdə yaşayırıq, ərazi bütövlüyümüz tam bərpa olunmuşdur. Bununla da biz Fransanın Cənubi Qafqazda apardığı destruktiv siyasətin qarşısını kəsmişik. Ancaq biz görürük ki, Fransa məhz həmin müstəmləkəçilik təfəkkürünü Cənubi Qafqaz regionunda da tətbiq etməyə çalışır. Hələ də Ermənistanı silahlandırır və Ermənistandan manipulyativ alət kimi istifadə edir.

Bu gün Fransa hakimiyyəti Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqlı addımlarını hədəf almağa çalışır. Lakin Fransa artıq anlamalıdır ki, onun müstəmləkəçilik siyasəti, Yeni Kaledoniya və digər bölgələrdə yerli xalqların iradəsinin kobud şəkildə pozulması Bakı Təşəbbüs Qrupunun səyləri sayəsində artıq beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Biz Fransa hakimiyyətini və qanunvericilik orqanını beynəlxalq hüquq və ədalət prinsiplərinə zidd siyasətlərdən imtina etməyə, fundamental insan hüquqlarına hörmət etməyə və dənizaşırı ərazilərdəki xalqların müstəqillik arzularını təmin etməyə çağırırıq".

# Əhməd İsmayılov: "Media dövlət və cəmiyyət arasında körpü rolunu oynayır"

**"Azərbaycanda peşəkar jurnalistikanın möhkəmləndirilməsi istiqamətində dövlət mühüm səylər göstərir".**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Astanada keçirilən İkinci Mərkəzi Asiya Media Forumu çərçivəsində bildirib.



Onun sözlərinə görə, ölkələrimiz arasında ortaq mədəniyyət və tarix, həmçinin dövlət başçıları arasındakı səmimi münasibətlər media və kommunikasiya sahəsində də möhkəm diplomatik əlaqələrin inkişafına təkan verir.

"Ona görə də ölkələrimiz arasında media sahəsində əməkdaşlıq bu sahənin inkişafı və böyüməsini əhəmiyyətli dərəcədə sürətləndirə bilər. İnformasiya məkanının konsolidasiyası elə bir vəzifədir ki, onu heç bir ölkə təkbaşına yerinə yetirə bilməz.

Qlobal çağırışlar kollektiv fəaliyyət tələb edir. Media diplomatiyası isə sərhədlərarası layihələr, birgə araşdırmalar və mədəni mübadilələr vasitəsilə həmrəyliyə töhfə verə bilər", - deyə o bildirib.

Əhməd İsmayılov qeyd edib ki, regional media forumları, birgə layihələr, transsərhəd təlim proqramları və regional xəbər agentliklərinin gücləndirilməsinə yönəlmiş tədbirlər kimi təşəbbüslər birliyə və ortaq məqsədlərə xidmət edir.

"Bu təşəbbüslər bilik və təcrübə mübadiləsinə şərait yaradır, bacarıqların inkişafına, saxta xəbərlər və dezinformasiya ilə mübarizəyə, qərəzin azalmasına və əhalinin media savadlılığının artırılmasına kömək edir.

Bizim bu gün iştirak etdiyimiz forum da məhz belə tədbirlərdən biridir və Mərkəzi Asiyada media əməkdaşlığının möhkəmləndirilməsi istiqamətində mühüm addımdır", - deyə o əlavə edib.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru bildirib ki, bir neçə həftə sonra Özbəkistandakı müxtəlif qurumların mətbuat katibləri və jurnalistləri üçün Azərbaycana mətbuat turu təşkil olunacaq. Ardınca isə Azərbaycan nümayəndə heyətinin Özbəkistana səfəri planlaşdırılır.

"Bu təşəbbüslər açıq şəkildə göstərir ki, qarşılıqlı etimad, ortaq dəyərlər və maraqlar əsasında qurulan inteqrasiya olunmuş regional informasiya məkanının yaradılması əsas vəzifədir. Belə bir inteqrasiya informasiya təhlükəsizliyini gücləndirəcək, mədəni dialoqu dərinləşdirəcək və Mərkəzi Asiyanın qlobal informasiya məkanında daha fəal və görünən mövqeyini təmin edəcək", - deyə o qeyd edib.

Əhməd İsmayılov vurğulayıb ki, jurnalistika sahəsində peşəkar inkişaf, o cümlədən jurnalist etikası və standartlarına uyğunluq, mədəni məlumatlılığın və qərəzsizliyin artırılması regionda sabitliyə və qarşılıqlı hörmət, sülh şəraitində birgə yaşayış və əməkdaşlıq mühitinin formalaşmasına xidmət edir.

"Media dövlət və cəmiyyət arasında körpü rolunu oynayır, ictimai həmrəyliyi və milli kimliyi möhkəmləndirir. Etibarlı informasiya mənbələri cəmiyyətin mürəkkəb reallıqlarda düzgün istiqamət götürməsinə kömək edən məlumatlı və şüurlu vətəndaş cəmiyyətinin formalaşmasına töhfə verir. Buna görə də media savadlılığını artırmaqla, biz məlumatlı və məsuliyyətli cəmiyyətin əsasını qoyuruq", - deyə o bildirib.

### *Murat Kurum: "Türkiyə və Azərbaycan TDT-nin lokomotividir"*



**Türkiyə və Azərbaycan TDT-nin lokomotividir.**

Adalet.az xəbər verir ki, bunu report-a açıqlamasında Türkiyənin ekologiya, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum deyib.

Onun sözlərinə görə, dünyanın ekoloji çirklənmələrdən qorunmasında Türk Dövlətləri Təşkilatının (TDT) üzərinə önəmli vəzifələr düşür.

Nazir deyib ki, ətraf mühitin qorunması bəşəri missiyadır: "Bu vəzifənin icrasında TDT-nin lokomotivi olaraq Türkiyə ilə Azərbaycan nümunəvi rol oynayır. Azərbaycanda COP-29-un keçirilməsində rəhbərlik etdiyim nazirliklə birgə Türkiyə olaraq yaxından dəstək verdik. Bu pozitiv fəaliyyətlərin nəticəsi olaraq COP 31-in Türkiyədə keçirilməsi üçün ölkəmiz tərəfindən irəli sürülən namizədlik prosesində Azərbaycan dəstəyini əsirgəmir. Ekologiya sahəsində birgə atdığımız qətiyyətli addımları və etdiyimiz əməkdaşlığı bütün türk dünyasına, eləcə də bütün dünyaya yaxşı nümunə olaraq yaymaq imkanımız var. Bu baxımdan hesab edirəm ki, Türk Dövlətləri Təşkilatı həm bir ailə kimi formalaşmış qurum, həm də nüfuzu getdikcə daha da artan beynəlxalq təşkilat olaraq iqlim dəyişmələri ilə mübarizədə qətiyyətli qərarlar qəbul edə, geniş fəaliyyətlər icra edə bilər".

## *Ukraynadan daha bir qrup uşaq Azərbaycana gətirilib*

**Ukraynadan daha bir qrup uşaq Azərbaycana gətirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Ukraynanın ölkəmizdəki səfiri Yuri Husyev özünün "Facebook" səhifəsində yazıb.

O bildirib ki, qonaqları Ukrayna-Azərbaycan Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupunun rəhbəri, millət vəkili Əlibala Məhərrəmzadə və Səfirliyin əməkdaşları qarşılayıb. Səfər çərçivəsində uşaqlar Quba şəhərində yerləşən sanatoriyada reabilitasiyadan keçəcək, Azərbaycan mədəniyyəti ilə tanış olacaqlar. Eyni zamanda, azyaşlı qonaqlar Bakıdakı Ukrayna Mədəniyyət Mərkəzini ziyarət edəcək və paytaxtda gəzintiyə çıxacaqlar.

Diplomatik nümayəndəlikdən o da qeyd edilib ki, bu, müharibə dövründə Ukraynadan Azərbaycana istirahət və reabilitasiya üçün gələn doqquzuncu qrupdur.

Səfir Yuri Husyev səfərin təşkilində göstərilən dəstəyə görə Azərbaycanın rəhbərliyinə və xalqına, eləcə də xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan bir qrup şəxsə təşəkkür edib.

Onun sözlərinə görə, bu dəstək təkcə xalqlarımızın dostluğunun əsl təzahürü deyil, həm də Ukrayna-Azərbaycan strateji tərəfdaşlığının möhkəmlənməsinə mühüm töhfədir.

# Macarlardan ermənilərə 3-cü şillə: Macar turançılığı

**Ermənilər Macarıstanın növbəti dəfə tərs şilləsinə tuş gəliblər.**

Xatırladaq ki, macarların ermənilərə ilk şolləsi 2012-ci ildə çox möhkəm dəydi. Beləki, Ermənistan-Macarıstan diplomatik əlaqələri məhz bu şillədən sonra donduruldu. 2004-cü ildə tərbiyəsiz erməni leytenant Qurgen Marqaryanın qətlinə görə, Macarıstanda məhkum olunmuş Ramil Səfərovun həmin ölkənin hökuməti tərəfindən Azərbaycana ekstradisiyası ilə əlaqədar münasibətlər tamamilə pozuldu, səfirliklər bağlandı. Ötən il isə yenidən ölkələr səfirliklərin bərpası ilə bağlı açıqlama yaysa da, hələ də Macarıstan da Ermənistan, Ermənistanda isə Macarıstan səfirliyi fəaliyyət göstərmir.

Ermənistan İkinci zərbəni Macarıstandan 2016-cı ildə aldı. Avropa ölkələri arasında ermənilərin, xüsusən erməni lobbisinin arzularını gerçəkləşdirməyən bəlkə də yeganə ölkə Macarıstandır ki, qondarma "erməni soyqırımı" ilə bağlı layihəni rədd etdi. Həmin vaxt parlamentin Xarici əlaqələr komitəsində hakimiyyətdə olan "Fidesz" Partiyası və ölkənin ikinci böyük partiyası olan "Jobbik"in deputatları parlamentdə 5 deputatla təmsil olunan Macar Yaşıllar Partiyası tərəfindən təqdim edilən layihənin əleyhinə səs verdilər.

"Jobbik" Partiyasının nümayəndəsi Marton Gyöngyösi bildirib ki, məsələni tarixçilər araşdırmalıdır: "Yüz il əvvəl baş verən, tarixçilərin fərqli baxışlara malik olduğu bir olayla bağlı deputatların fikir bildirməsinin istənilməsi məni çox narahat edir. Bu məsələ tarixçilər və hüquqşünasların öhdəsinə buraxılmalıdır. Roma Papası Fransiskin, başqa siyasətçilərin və başqa parlamentlərin nə söyləməsinin Macarıstan parlamentinə dəxli yoxdur. Səs qazanmaq üçün belə addımlar atılmamalıdır".

Hələ onu da deyək ki, Macarıstan 2020-ci ildə 44 günlük Qarabağ münaqişəsində Azərbaycanı açıq dəstəkləyib. Bu da şillədən betər olub.

Macarlar 3-cü şilləsini də "tutuzdurublar". Adalet.az xəbər verir ki, Macarıstan Avropa İttifaqının (Aİ) Ermənistana 10 milyon avro (11 milyon dollar) dəyərində əlavə "qeyri-öldürücü" hərbi yardım ayırmasına blok qoyub. Bu yardım Avropa Sülh Təşəbbüsü (EPF) çərçivəsində ayrılmalıydı.

Aİ-nin xarici siyasət rəhbəri Kaya Kallas ilin əvvəlində bu yardımın ayrılmasını təklif edib. Təsdiqlənməsi üçün ona Aİ-nin 27 üzv ölkəsinin yekdil dəstəyi lazımdır.




Macarıstandan savayı, qalan üzvlər Kallasın təklifini dəstəkləyib. Bunu Brüsseldəki diplomatik mənbə deyib. O əlavə edib ki, Aİ-nin xarici işlər nazirlərinin aprelin 14-də Lüksemburqdakı görüşündə Budapeşt qərara veto qoyub:"Aprelin 15-də AzadlıqRadiosunun erməni xidməti bildirib ki, bugünkü danışıqlardan sonra irəliləyiş əldə olunmayıb.

**Ermənistan Aİ-dən ötən ilin iyulunda 10 milyon avroluq ilk hərbi yardımı alıb. Həmin vəsait növbəti iki il yarım ərzində bir batalyonluq hərbi hissə üçün səhra hospitalının və yardımçı obyektlərin quraşdırılmasına xərclənməlidir. Macarıstan həmin vəsaitin ayrılmasını da aylarla bloklayıb, oxşar yardımın Azərbaycana da verilməsini tələb edib. Bakı ilə sıx əlaqələri olan Budapeşt vetonu Aİ-nin Azərbaycanda minaların təmizlənməsini başqa mənbədən maliyyələşdirmək vədi qarşılığında qaldırdığı deyilir.**

**Əntiqə Rəşid**

## *Rüstəm Hacıyev*



## *Tramp hələ də müharibəni dayandıra biləcəyinə inanır*

**ABŞ prezidenti Donald Tramp, Ağ Evdə Salvadorun prezidenti Nayib Bukellə görüşü zamanı bəyan edib ki, tezliklə Ukrayna müharibəsini tənzimləmək üçün "çox yaxşı" təklifləri olacaq.**

**Ağ Evin rəhbəri, jurnalistlərin "Ukraynada hərbi qarşıdurmaların dayandırılması ilə bağlı hansı irəliləyişlər var" sualını cavablandırarkən bildirib ki, "Biz bunun öhtəsindən yaxşı gəlirik. Hesab edirəm ki, tezliklə bizim çox yaxşı təkliflərimiz olacaq".**

**Donald Tramp, həmçinin qeyd edib ki, Ukrayna müharibəsinin sülh yolu ilə həll edilməsi prosessi yaxşı istiqamətə doğru irəliləyir. ABŞ prezidentinin sözlərinə görə, "elə anlar var ki, ya gördüyün işi sübut etməlisən, ya da səsini kəsib yerində oturmalısan".**

**Tramp, "çox yaxşı təkliflər var" dedikdə nəyi nəzərdə tutduğuna aydınlıq gətirmir. Nə baş verəcək? Ukrayna işğal olunmuş ərazilərini Rusiyaya güzəştə gedəcəkmi? Və ya, Rusiya işğal etdiyi Krım yarımadasından, Donbsss, Luqansk, Xerson, Zaparojye vilayətlərini geri qaytaracaqmı?**

**İstər Ukrayna lideri Volodimir Zelenskinin, istərsə də Rusiya lideri Vladimir Putinin belə bir addım atacaqları mümkün deyil. Ukrayna təslim olmaq aktına, Putin isə, bu müharibədən məğlub aktına heç bir halda imza atmayacaq. Bəs onda Tramp nəyə güvənərək belə bir bəyanatla çıxış edir?**

**Təbii ki, ABŞ prezidentinin üç ildən artıqdır davam edən qanlı müharibənin sonlandırmaq niyyəti və cəhdləri alqışa layiqdir. Lakin, Tramp administrasiyasının bu yolda, bu günədək atdığı addəmların, verdikləri təkliflətin heç biri uğur qazanmayıb. Bu gündən sonra da, təqdim edəcəkləri "çox yaxşı təkliflərin" uğur qazanacağı inandırıcı görünmür...**

**Bundan başqa, Avropanın təhlükəsizliyindən ehtiyat edən, Almaniya, Fransa, Böyük Britaniya, Polşa kimi dövlətlər də, bu müharibənin bitməsini istəmirlər. Artıq tədricən ABŞ-ın təsir dairəsindən uzaqlaşmağa çalışan Avropa İttifaqını "yola gətərmək" də, Tramp üçün asan olmayacaq.**

**Rusiya prezidenti Vladimir Putin dünənki çıxışında, atəşkəsin elan edilməsi məsələsinə toxunaraq, bunun necə əldə olunacağını, atəşkəsə kimlərin, hansı qüvvələrin nəzarət edəcəyini anlamadığını bildirməklə, daha çox bunun mümkün olmayacağını bəyan etmək istədi.**

**Maraqlıdır, bütün baş verənlərin fonunda, görəsən bu dəfə ABŞ prezidenti hansı fövqəladə "yaxşı təkliflər" irəli sürəcək ki, tərəfləri razı sala bilsin?**

# Biri bu katolikosa desin ki, özünü çox da gücə salma, karvan keçib...

**Yəqin ki, xəbəriniz oldu: Aprelin 10-da Müqəddəs Taxt-Tacın Vatikan Qriqorian Pontifik Universitetində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyi və Alban-Udi Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə "Azərbaycanda xristianlıq: tarix və müasirlik" mövzusunda Qafqaz Albaniyası irsinə həsr edilən XII beynəlxalq elmi konfrans keçirilib.**

Onu da dəqiq bilirsiniz ki, tarixi Azərbaycan torpaqlarını 30 il işğalda saxlayan Ermənistan dini, mədəni abidələrimizi:məscidləri, ocaqları, pirləri, ziyarətgahları dağıdıb. Bununla üryi soyumayıb, Azərbaycanın xristian sivilizasiyasına aid olan Alban kilsələrini də ya yerlə yekan edib, ya da, restavrasiya edərək erməniləşdirib. Qarabağda yerləşən və Qafqaz Albaniyası dövrünə aid olan Alban abidələri ermənilər tərəfindən dağıdılması, tarixi görünüşü dəyişdirilərək erməniləşdirilməyə çalışılması da beynəlxalq elmi konfransın əsas mövzusu olub.

Di gəl ki, gözləri uydurma, mənasız ideologiyalardan, məhvə aparan ədavət hissindən başqa heç nəyi görmək qüdrətində olmayan erməni toplumu bu konfransın baş tutmasına bərk narahat olub, etiraz ediblər.

Beləki, 11 aprel 2025-ci il Böyük Kilikiya evinin katolikosu I Aram , Vatikanın Şərqi Katolik Kilsələri İcmasının baş prefekti, kardinal C. Kijerotiyə məktub ünvanlayıb. I Aram Vatikanın Qriqorian Universitetində keçirilən "Azərbaycanda Xristianlıq" adlı konfransla bağlı etirazlarını bildirib.



Katolikos deyib ki, müzakirə olunacaq mövzular və məruzəçilər, xüsusilə də erməni kilsəsi ilə bağlı mövzular ilə bağlı yuxarıda adı çəkilən konfransın birtərəfli təşkili və erməni mütəxəssislərin orada iştirak etməməsi tarixi həqiqətə qarşı açıq-aşkar ədalətsizlikdir. Daha sonra "qədim erməni irsi", ilk xristian ermənilər və onların kilsələri arasında sıx əlaqələr", eləcə də "Artsaxda erməni kilsəsinin fəal və mütəşəkkil mövcudluğu" kimi uydurma iddialardan danışaraq xeyli çərənləyir. Həmin məktubda həmçinin "Artsaxın erməni xalqının soyqırım siyasəti nəticəsində Azərbaycan hakimiyyətinin təşkil etdiyi məcburi deportasiya" fikrini də məktuba soxuşdurub.

I Aram eyni zamanda, Artsax erməniləri ilə bağlı məsələlərə Vatikan hakimiyyətinin göstərdiyi müsbət yanaşmanı vurğulayaraq, "əminik ki, Vatikan hakimiyyəti yuxarıda qeyd olunan konfransın birtərəfli və qeyri-dəqiq yanaşmalarını bölüşməyəcək" deyərək məktubuna yekun vurub.

Qeyd edək ki, Böyük Kilikiya evinin katolikosu I Aram ABŞ -ın yeni prezidenti D.Trampın etimadını qazanmaq üçün ona da məktub ünvanlamışdı. O, Donald Trampdan Azərbaycana qarşı hərbi cinayətlərdə ittiham olunan və Bakıda məhkəməsi davam edən ermənilərin azad olunmasında kömək göstərməsini xahiş etmişdi. Bölgə ermənilərinin "vətənlərinə qayıtmaları hüququnun" təminatı üçün təkidli davranmağa çağırmış, "təcavüzün qarşısının alınması üçün" Azərbaycana təzyiq göstərilməsi istəmişdi.Hələlik Tramp nə katolikosa cavab verib, nə də katolikosun ittihamları ilə bağlı Azərbaycana bir söz deyib.

***P.S.** biri Böyük Kilikiya evinin katolikosu I Aram a başa salsın ki, özünü bu qədər zora, gücün altına salmasın... Atalarımız demiş it hürüb, karvan da keçib. Yəni, mənasız işlərlə məşğul olmasın...*

**Əntiqə Rəşid**

## *Palata sədri: "Ayrı-ayrı qurumlarda eyni vəzifəni daşıyan şəxslərin əməkhaqqında ciddi fərq var"*



**"Vətəndaşların şikayətlərinin əksər hissəsi işlədikləri müəssisələrin rəhbləri ilə bağlıdır. Əksəriyyəti şəxsi problemlərini nəzarət tədbirinə çevirmək kimi xahişlərdən ibarətdir. Bunların daha çoxu rayon miqyaslı olduğundan onu iş planına salmamışıq".**

Adalet.az xəbər verir ki, bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Hesablama Palatasının 2024-cü il fəaliyyəti üzrə hesabatının müzakirəsi zamanı deputatların suallarını cavablandırarkən deyib.

O, deputat Vüqar Bayramovun sualına cavab olaraq bildirib: "Vüqar müəllimin qaldırdığı bir neçə məsələ var. Bəzi ölkələrdə hesabat verməklə bağlı məsələləri qeyd etdi. Bu, bəzi ölkələrdədir. Biz onların bəzilərini özümüz üçün məqsədəuyğun hesab etməmişik. Ölkəmiz üçün uyğun olanı hesab etmişik".

Palata sədri qeyd edib ki, hazırda hökumətin ayrı-ayrı qurumlarında eyni vəzifəni daşıyan şəxslərin əməkhaqqında ciddi disproporsiya var:

"Biz bunu rəydə qeyd etimişik. İcrada və fəaliyyət hesabatında da deyəcəyik. Bizim iş deməkdir, yazmaqdır, göstərməkdir, onu da edirik".

**Nicat**

## Deputat: “42 auditin 80%-dən çoxunda büdcə vəsaitlərinin pozuntusu halları var”



**”Daha çox büdcə qanunvericiliyi və dövlət satınalmalarında qanunvericilik tələblərinin pozulması hallarının qeydə alınıb. Ona görə sual yaranır ki, ”Dövlət satınalmaları haqqında” qanunun ötən ilin yanvarın 1-dən qüvvəyə minməsinin bu pozuntuların sayına və ya azalmasına təsiri müəyyənləşdirilibmi?”**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Hesablama Palatasının 2024-cü il fəaliyyəti üzrə hesabatının müzakirəsi zamanı deputat Vüqar Bayramov deyib.

”Sözsüz ki, vergi üzrə baxanda 35% mənfəət vergisini əhatə etməsi ondan xəbər verir ki, dövlət orqanlarında mənfəət vergisinin gizlədilməsi halları kifayət qədər çoxdur. Rəqəmlər də göstərir ki, 42 auditin 34-də, yəni 80%-dən çoxunda büdcə vəsaitlərinin pozuntusu halları var. Bu, kifayət qədər ciddi rəqəmdir.

Dövlət satınalmaları ilə bağlı pozuntularda 57% satınalmalar hər hansı bir tender keçirilmədən, birbaşa fərdi bağlanan müqavilələrdir. Bu da ondan xəbər verir ki, 2024-cü ildə dövlət satınalmaları ilə bağlı birbaşa bir mənbədən satış artıb. Bu da şəffaflığa təsir göstərən əsas faktorlardan biridir”, - deyə deputat bildirib.

## Əli Məsimli: “Ən çox nöqsanlar büdcə qanunvericiliyi və satınalmalar üzərindədir”



**”Aparılan auditlər göstərir ki, ən çox nöqsanlar büdcə qanunvericiliyi və satınalmalar üzərindədir”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Hesablama Palatasının 2024-cü il fəaliyyəti üzrə hesabatının müzakirəsi zamanı deputat Əli Məsimli deyib.

”Bu nöqsanlar 10 il bundan qabaq da, 5 il bundan əvvəl də və 2024-cü ildə də belədir. Niyə kifayət qədər tövsiyyələr qəbul olunur, amma bu sahədə keyfiyyət nöqteyi-nəzərdən qiymətləndiriləndə o qədər də dəyişiklik görünmür. Artıq satınalmalarla bağlı qanun qəbul olunub.

Bu qanunun qəbul olunması ilə əlaqədar nə qədər faktlar sadalanıb. Bu, açıq şəkildə göstərir ki, qanun qəbul olunub, amma onun reallaşması mexanizmi yetərli səviyyədə olmadığı üçün həmin çatışmazlıqlar kifayət qədərdir”, - deyə deputat bildirib.

## “Evlərin qiyməti vətəndaşların alıcılıq qabilliyyətinə uyğun deyil”



**”Qəzalı vəziyyətdə olan evlərin söküntüsünə və yeni evlərin tikintisinə başlanacaq. Təbii ki, burda dövlət vəsaitlərindən istifadə olunacaq. Bu vəsaitlərin istifadə olunmasında növbəti dəfə çatışmazlıqlar, büdcədən vəsaitlərinin istifadəsi zamanı qənaətli istifadə olunmamaması, rəqəmlərin şişirdilməməsi üçün hansı işlər görüləcək?”**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Hesablama Palatasının 2024-cü il fəaliyyəti üzrə hesabatının müzakirəsi zamanı deputat Əli Məsimli deyib.

”Xüsusən mərkəzlərdə tikilən evlərin hər kvadrat metrinin qiyməti fantastik rəqəmlərdir. Orta statistik azərbaycanlının alıcılıq qabilliyyətinə uyğun deyil.

Burada xeyli səviyyədə məlum olan faktlar var ki, iş adamlarından alınan vəsaitlər axırda gətirilib hər kvadratın üzərinə gəlir. Bu da xeyli dərəcədə Azərbaycanda ciddi xarakter daşıyan mənzil təminatının əlçatanlığına manea yaradır”, - deyə deputat bildirib.

**Nicat**

# ABŞ-ın Dini Etiqad Azadlığının qərəzli hesabatı: Bu daş, bu da tərəzi



**Növbəti dəfə okeanın o üzündən Azərbaycana qarşı əsassız hücumlar başlayıb.**

Adalet.az xəbər verir ki, ABŞ-ın 2025-ci il Dini Etiqad Azadlığı Hesabatının 46-48-ci səhifələri tamamilə Azərbaycanda dini etiqad azadlığının pozulmasına, o cümlədən erməni abidələrinin dağıdılmasına və digər məsələlərə həsr olunub.

Ədalət prisiplərindən kənarda hazırlanan hesabat Azərbaycanda dini etiqad azadlığının bərbad vəziyyətdə olması ilə başlayır. O, həmçinin Qarabağda ”erməni abidələrinin” dağıdılması hallarını vurğulayır. Hesabatda iddia edilir ki, Kornell Universitetinin Qafqaz İrsi üzrə Müşahidələr Təşkilatı (CHW) Qarabağda və onun ətrafında dağılmaqda olan dini irs obyektləri ilə bağlı yeni peyk məlumatlarını dərc edib, irsin dağıdılması ilə bağlı yeni hallar, o cümlədən 19-cu əsrə aid kilsə, mədəni irs və digər iki qəbiristanlıqları aşkar edib.

2024-cü ilin iyununda ABŞ-da yerləşən Freedom House təşkilatı dərc edib ki, Azərbaycan 2020 və 2023-cü illər hərbi əməliyyatları zamanı ” Qarabağı erməni əhalisindən və tarixi-mədəni varlığından təmizləmək üçün hərtərəfli, əlaqələndirilmiş strategiya” həyata keçirib. Təşkilat bu hərəkətləri hərbi cinayətlər və insanlığa qarşı cinayətlər kimi qiymətləndirib.

2013-cü ildən başlayaraq Azərbaycanı hədəf alan Dini Etiqad Azadlığı təşkilatının ədalətsiz yanaşması göz qabağındadır. Məsələn, hamımız anlayırıq ki, Dini Etiqad Azadlığı təşkilatı işğalçı Ermənistan Azərbaycana hücum etməmişdən əvvəl Qarabağ bölgəsində 706 tarixi və mədəniyyət abidələrinin mövcud olduğunu dəqiq bilirdi.

Onu da bilirdilər ki, həmin tarixi və mədəniyyət abidələrinin 11-i beynəlxalq (6-sı memarlıq, 5-i arxeoloji), 240-ı dövlət (119-u memarlıq, 121-i arxeoloji), 455-i yerli (393-ü memarlıq, 22-si arxeoloji, 23-ü parklar və xatirə abidələri, 17-si dekorativ sənət işləri) əhəmiyyət daşıyıb.

Dağlıq Qarabağın, ona bitişik rayonların, o cümlədən Ermənistanla sərhəddə yerləşən Qazaxın 7 kəndinin və Naxçıvanın Kərki kəndinin Ermənistan tərəfindən işğalı nəticəsində 100 mindən çox artefaktın saxlanıldığı 22 muzey, 4,6 milyon kitabdan ibarət 927 kitabxana, 85 musiqi məktəbi, 4 teatr, 2 konsert zalı, 4 incəsənət qalereyası və 808 istirahət məkanı məhv edilib.

1988-1994-cü illərdən başlayaraq Azərbaycana qarşı, eyni zamanda Azərbaycanın maddi və mənəvi irsinə qarşı vəhşicəsinə talana başlayan ermənilərin 67 məscidimizi, 144 məbədimizi, 192 ziyarətgahımızı dağıdıb yerlə yeksan edəndə harda yatıb qalmışdı? Buna baxmayaraq Şuşada təmir başlayanda ilk təmir olunan Qazançı kilsəsi olub. İşğalçılardan geri alınan Azərbaycan Respublikasının Xankəndi şəhərində yerləşən 1 kafedral və 1 kilsə qorunur.

**Bunları da öz hesabatınıza əlavə etsəydiniz, sizin hesabatınıza əminim önəm verilərdi. İndi isə sizin ədalətdən kənar hesabatınız Azərbaycan üçün mənasız cızma qaradan başqa heç nə deyil.**

**Əntiqə Rəşid**

# "Putin müharibənin dayanmasını istəyir"?

**Ağ Evin mətbuat katibi Kerolsyn Livitt jurnalistlərə bildirib ki, ABŞ prezidenti Donald Tramp hesab edir ki, rusiyslı həmkarı Vladimir Putin, Ukraynada hərbi münaqişənin dayandırılmasını istəyir.**

”Tramın xüsusi elçisi Stiven Uitkoff inanır ki, Rusiya müharibənin dayandırılmasını istəyir və prezident Tramp da buna inanır”-deyə Livitt bəyan edib. Xüsusi elçinin sözlərinə görə, Rusiya prezidenti onunla görüşdə, amerika tərəfindən daimi sülhün təmin olunmasını xahiş edib. Müharibənin dayandırılmasını Putində istəyir, Tramda istəyir, Zelenskidə istəyir, bir sözlə hamı istəyir, lakin müharibə davam edir. Həm Ukraynanın, həm də Rusiyanın yaşayış məntəqələri intesiv surətdə atəşə məruz qalır. Ölən və yaralananların sayı idə hər gün artmaqdadır. Tərəflər sülh istəyir, vasitəçilərdə həmçinin. Amma hələ ki, nəticə əldə etmek mümkün olmur. Çünki, Rusiya tərəfindən işğal olunmuş beş regionun taleyi danışıqlar masasına oturmağa mane olan əsas problemə çevrilib.

Rusiya prezidenti dayanıqlı sülh istəyir, lakin üətiyyətlə işğal etdiyi Ukrayna ərazilərindən çıxmaqan imtina edir. Ukrayna sülh istəyir, lakin işğal olunmuş əraziləri ni güzəştə getməyi ağlına belə gətirmir. Tramp müharibəni bitirmək istəyir, lakin bu labirindən necə çıxmaq yollarını tapa bilmir. ABŞ administrasiyasının atəşin dayandırılması və münaüişə tərəflərinin danışıqlar masasına oturmaları üçün hazırladığı ”A”, ”B”, ”C”və s. planları nəticəsiz qalmaqdadır. Vaxt daralır, Tramp gah Putini qınayır, gah Zelenskini qınayır, Avropa İttifaqını qınayır, Co Baydeni əsas günahkar hesab edir, hansısa müsbət bir nəticəyə nail olmaq mümkün olmur. Görünən odur ki, artıq münaqişə tərəfləri arasında bütün körpülər yandırılıb və müharibə sonsuzluğa qədər davam edəcək. Tramp çalışır, cəhd edir, miyonlarla insan qarşısında verdiyi sözün yerinə yetiriləcəyinə ümid edir. O, Rusiya prezidenti Vladimir Putinə inandığını bəyan edir, Rusiya prezidenti isə, bir tərəffən sülh istədiyini bildirir, lakin, qarşı tərəfin heç bir halda qəbul etməyəcəyi tələblər irəli sürür. Ukrayna prezidenti ərazi bütövlüyünün təmin olunmasını istəyir, Putun isə, bununla razılaşmır...

Müharibə davam edir, görünən odur ki, Putin və Zelenski hakimiyyətdən getməyənə qədər bu düyün çözülməyəcək...

**Rüstəm Hacıyev**

# Sarkisyan Paşinyanı və xalqını təhqir etdi: “Anqıran eşşəyin alnından öpənlər...”



**”Bu gün bizi amansızcasına tənqid edirlər, daha çox böhtanlar atırlar. Həm də bizə qarşı ”tabut” və ”qara lent”lərin bayram edilməsindən həzz alanlar, missiyamızdan geri çəkilməyimizi tələb edənlər var. Dövlətin mətbuata qarşı törətdiyi qanunsuzluqlara qarşı gizli şəkildə sevinənlər və ”Nikolu sən gətirdin” tezisini ortaya atanlar bunu qəsdən edirlər. Bunu edənlər hakimiyyət dəyişikliyi istəyən, keçmişi geri qaytarmağa çalışan, saxta vədlərlə hakimiyyəti ələ keçirməkdə maraqlı olan bəzi keçmiş mübarizə tərəfdaşlarımız seçib və məqsədli şəkildə ortaya atıblar”.**

Adalet.az xəbər verir ki, bu fikirləri Ermənistanın üzləşdiyi bütün uğursuzluqların günahını Nikol Paşinyanda görən Ermənistanın 3-cü prezidenti, hazırda Respublika Partiyasının sədri Serj Sərkisyan deyib. Sarkisyan, 2018-ci ildə Baş nazir N.Paşinyanın hakimiyyətə gəlməsinə yol açdığı üçün onu günahlandıranlara nəhayət cavab verib:

”Bizi ittiham edənlərə ancaq bunu deyəcəyəm: öz səhvinizi etiraf etməlisiniz, daha vacibi isə, onu düzəltməlisiniz. Şübhəsiz ki, böyük cəsarət tələb edir. Amma siz çox gözəl başa düşürsünüz ki, yeddi il əvvəl mənim məcburi istefamda həvəslə iştirak etdiniz və yaxud da tamamilə laqeyd qaldınız. Məhz bu iki səbəb sizi ondan sonra baş verən hər şeyə ortaq edir. İndi məni günahkar çıxartmamışdan əvvəl Nikolla şərikliyinizi etiraf edin, meydanlarda hər bir iştirakınızın hakimiyyəti ələ keçirən şəxsin uzunmüddətli məqsədi üçün sizdən istifadə etməsinə imkan verdiyinizi etiraf edin. Bunları etiraf etmədən məni günahlandırmaq dürüstlüyünüzü şübhə altına alır. Dürüstlüyə sahib olmaq, əlbəttə ki, son dərəcə çətindir, amma hey, başqasını günahlandırmaq ən asan işdir, eləmi? Bəs niyə asan çıxış yolu seçməyəsiniz? Xocalı qatili olan Serj Sarkisyan son anda həm öz xalqını, həm də meydanlarda xalqının seçdiyi Nikol Paşinyanı təhqir etməkdən də çəkinmir:” Partiyamızın son qurultayında bu mövzunu müzakirə edəndə də dedim ki, mən heç kimi məcbur etməmişəm ki, gedib sürü arasında ən bərkdən anqıran eşşəyin alnından öpəsiniz. Bu, deyəsən, onlar haqqında ibrətamiz ifadəyə çevrilib. İndi son hadisələri nəzərə alaraq fikrimi davam etdirmək istəyirəm: ”Alnından öpdüyünüz eşşəyi mənim qapıma bağlamayın. Hamı alnından öpdüyü eşşəyə görə cavabdehdir”.

**Əntiqə Rəşid**

# Ağdamlıların evi tikilir: Turizm mərkəzinə çevriləcək Ağdamdan REPORTAJ

**Uzundərəni keçib Ağdam şəhərinin ərazisinə giririk. Bazar günü olmasına baxmayaraq Ağdamda tikinti işləri adi günlərdəki kimi gedir. Sürətlə!**

Bütün tikilmiş yaxud , yarım tikililərin arasında möhtəşəm bir bina diqqətimi cəlb elədi. Maya xanımdan xahiş etdim ki, maşını ora sürsün, görüm o nəyin binasıdır. Şəhərin mərkəzində yerləşən bu bina "Aghdam City Hotel" imiş. Görünüşü ilə adamı valeh edən bu "ağ saray" artıq ötən ilin sentyabrından fəaliyyətə başlayıb.

Öyrəndik ki, ən müasir standartlara cavab verən 5 mərtəbəli hotel binası 130 otaqdan ibarətdir, otelin bir restoran və bir barı var.

Otelin direktoru Murat Kodan da otelin açılış mərasimində hoteldə fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş 4 otaq da mövcud olduğunu, həmçinin qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes və SPA mərkəzləri də yaradıldığını bildirib.

Amma şəhərin giriş hissəsinə eyni zamanda mərkəzinə yaxın olan ərazidə bu oteldən daha möhtəşəmi digər bir otel də tikilir. Deməli adı "Hilton Garden İnn" olan bu hotel 2,16 hektar sahədə yerləşir.

Layihəsi başqa otellərə bənzəməyən "Hilton Garden İnn" hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan, 127 otaqdan ibarətdir. Təbii ki, bu da "Aghdam City Hotel" kimi ən müasir standartlara cavab verəcək. Birinci mərtəbə foye və gözləmə zonasından ibarətdir.

Hoteldə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zalları, restoran, banket zalları qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını keçirmələrinə geniş imkanlar yaradır.

Düzdür, hələ 2022-ci ildə eşitmişdim ki, Ağdamda bir dənə də "Park Forest Otel Ağdam" mehmanxanası tikilir. Hətta fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağdam şəhərində inşa olunacaq "Park Forest Otel Ağdam" mehmanxanasının təməlinin qoyulması mərasimində iştirak etdilər.

Deməli , 2,16 hektar ərazidə inşa edilən bu kompleks 110 nömrədən ibarət olacaq. Dəqiqləşdirə bilmədim ki, o şəhərin hansı tərəfində yerləşəcək.Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ bölgəsi, Ağdam diqqətdən kənarda qalmamalıdır.

Tikililərin bir çoxu tam başa çatmadığı üçün turizmin inkişafına aiddaha başqa binaların tikildiyindən xəbərim olmadı.

Ağdam şəhərinin içərisində bir şəhərcik var ki, onu çoxdan görmək arzusundaydım. Bəli, Park Hill MTK Ağdam şəhərində inşa etdiyi "Park Qarabağ" yaşayış kompleksindən danışıram. Adam özünü burda, lap Moskvadakı kimi hiss edir. Çünki xarabalıqların arasında abad bir şəhərcik gözümüzü güldürür, sevindirir...

Tikinti o qədər sürətlə və keyfiyyətlə aparılır ki, lüks mənzillərin satışa başladığı artıq 2 ildir.

Satlığa çıxan yaşayış kompleksində 45 ədəd 1 otaq studio tipli, 108 ədəd 2 otaqlı, 48 ədəd 3 otaqlı və 8 ədəd 4 otaqlı olmaqla, ümumilikdə 209 mənzilvar və hələ 2023-cü ildə deyilirdi ki, Rezidens kompleksində mənzillərin satışı başlayıb və tam təmirli mənzillərin 1 kvadrat metrinin qiyməti 1450 manatdan başlayır.

Haqq üçünə şəhər içərisindəki şəhərcikdə hər şey yüksək səviyyədə düşünülmüşdü. Hətta uşaqların istirahəti üçün oyun meydançası da hazır idi. Elə telefonumu əlimə alıb çəkmək istəyirdim ki, qəflətən bir "axrana" peyda olub, xəbərdar etdi ki, burda şəkil çəkmək qadağandır. Axı niyə? Bura hərbi baza deyil, nüvə stansiyası deyil, sadəcə bir şəhərcikdir , niyə çəkmiyək ki, 30 il arzumuz olub ki, Ağdamda olaq, Ağdamın xoş günlərini xatirə edək.

"Axrana" (özünün sözüdür) dedi, olmaz ki, olmaz! Bu dəfə buradan ev alacağım yalanını uydurub ərazidə 5-10 dəqiqə qalmaq istədim. O mənim bu xəyalımı da yerlə yeksan etdi. Dedi ki, havayı yerə əziyyət çəkməyin, bütün mənzillər alınıb, bir dənə də boş mənzil qalmayıb.

Nəzərdə tutulub ki, Ağdam Sənaye Parkında bu ilin iyun ayında "Tabaterra" MMC-yə məxsus tütün məmulatlarının istehsalı fabriki fəaliyyətə başlayacaq.

Odur ki, Ağdam Rezidens kompleksində 208 mənzil "Tabaterra" MMC tərəfindən alınıb. Yəni, belə çıxır ki, fabrik gələcək işçilərinin qayğısına qalaraq mənzilləri onlar üçün alıb.

Sizin üçün də maraqlı olar deyə deyirəm: Bu tütün fabriki Ağdam Sənaye Parkının 5 hektar ərazisində yaradılır. Deyilənə görə, fabrikin fəaliyyətə başlaması yerli əhalinin işlə təmin olunmasında mühüm rol oynayacaq. Ümumilikdə 70 milyon manat təşkil edən investisiya layihəsi çərçivəsində 300 nəfər daimi işlə təmin ediləcək.




Uzun sözün qısası, "axrana" bizi zor-xoş kompleksin həyətindən qovub çıxartdı. Bu yeniliyə gözdolusu baxa bilməməyimə çox kədərlənsəm də, ərazini tərk etdim. Amma ayrılmamışdan əvvəl bizi oradan "kürüyən"in haralı olduğunu da soruşdum . Dedi biləsuvarlıyam. Sağollaşıb ayrıldıq.

İndi də keçək vaxtı ilə köçkün olmuş ağdamlıların yurdlarında onlar üçün tikilən evlərin, binaların baxışına. Deməli, hələ 2023-cü ildə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyin baş məsləhətçisi Eldar Seyidov Ağdam yaşayış məhəllələrinin salınması barədə açıqlama vermişdi, Demişdi ki, Ağdam şəhərinin Baş planına əsasən əhalinin 70 faizi çoxmənzilli binalarda, 30 faizi isə fərdi evlərdə yaşayacaq. Böyük Qayıdışın ilkin mərhələsində yaşayış şəraiti məqbul olmayan keçmiş məcburi köçkünlərə üstünlük veriləcək və onlar dövlət tərəfindən tikilən evlərlə təmin olunacaqlar. Evlərin yüksək səviyyədə, dünya standartlarına uyğun tikilməsi üçün işlər hələ də davam edir.

Amma ki, gəzdiyimiz binaların heç birində yaşayış yox idi.Yəni, tam başa çatan, istifadəyə verilən bina yox idi. Yəqin ki, tez bir zamanda, Kəngərli, Sarıcalı camaatı kimi Ağdam şəhərinin sakinləri də öz yuvalarına dönəcəklər. Maşallah, Ağdamın torpağı Qarabağ ərazisində Kəlbəcərdən sonra ən böyük ərazi hesab olunur. Binaların yaxınlığında adam özünü Bakıdakı kimi hiss edir. Hündür, geniş otaqlı, həm də bir -birinə çox yaxın binalar ... Olsun!

Maya xanımın dəfələrlə gəzdiyi yerləri mən ilk dəfə görürdüm deyə o bələdçilik edirdi., Adama gəlib Cümə məscidini ziyarət etmədən getməyin böyük günah olduğunu da o vurğuladı.

Məlumdur ki, işğalçı Ermənistan ordusunun əsgərləri tərəfindən keşikçi-müşahidə məntəqəsi kimi isfadə edilən məscid tam dağılmasa da bir neçə dəfə yandırılıb və sonra tövlə kimi istifadə edilib. Qələbədən sonra - 2022-ci ilin martından məscidin bərpasına başlanılıb. 2024-cü ilin aprelində təhvil verilib.

Məscidin bərpası Heydər Əliyev Fondu, "PAŞA Holdinq" şirkətinin dəstəyi ilə aparılıb.

Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti də cəlb olunmuşdu.

İkinci ən çox maraqlandığım tikili çörək muzeyi idi. Yenə də bədxah işğalçıların hücumundan sonra dünyada ikinci, MDB-də isə birinci və yeganə hesab edilən Ağdam Çörək Muzeyinin yerində xarabalıq mövcuddur. Bilirsiniz də ilk çörək muzeyi Almaniyanın Ulm şəhərində açılıb, sonra Ağdamda.

Amma muzeyin bərpası ilə bağlı heç yerdə nə bir xəbərə rast gəldim, nə də layihə hazırladığını eşitdim. Doğrusu, bir ağdamlı olaraq, Ağdamda yenidən tikilməsini səbrsizliklə gözlədiyim tikililərdən biri məhz çörək muzeyidir. Necə ki, 1983-cü ildən işğal dövrünə qədər bütün dünyanın diqqətini özünə çəlb etmişdi, indi də o çörək muzeyini Ağdamda hamı görmək istəyərdi...

Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının xaraba binası da küskün -küskün boylanır.

Çünki Ağdamlılar mədəni inkişafa böyük önəm veriblər. Hələ 1902-ci ildə Ağdamda teatr olub.

1904-cü ildə M.F. Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" və Ə.Haqverdiyevin "Dağılan tifaq" pyeslərinin tamaşaları ilə açılandan 4 il sonra Azərbaycanın paytaxtı Bakıda -Zeynəlabdin Tağıyev Teatrında 1908-ci ilin yanvarında ilk Azərbaycan milli operası Üzeyir Hacıbəyovun "Leyli və Məcnun"un premyerası olub.

Ağdamda 1923-cü ilə qədər kollektiv dram dərnəyi kimi ictimai əsaslarla fəaliyyət göstərib. 1923-cü ildən dərnəyə Ağdam Dövlət Dram Teatrı statusu verilib. Teatr işğala qədər uğurla fəaliyyət göstərib. Quzanlıda teatr binası tikilsə də hələlik Ağdamda bu haqda bir məlumata rastlamdıq.

Ağdamın məşhur 1 nömrəli tam orta məktəbində artıq son tamamlama işləri gedir. Çox güman ki bu il istifadəyə veriləcək. Araşdırmaçı jurnalist Orxan Zakiroğlunun məqalələrindən bilirik ki, 2023-cü ildə 140 yaşı tamam olacaq Ağdam şəhər 1 nömrəli orta məktəbin məzunları arasında 7 nəfər AMEA-nın həqiqi və müxbir üzvü çıxıb:Akademiklər Adilə xanım Namazova, Cəmil Quliyev, AMEA-nın müxbir üzvləri İdeal Nərimanov, Teymur Vəliyev, Xudu Məmmədov, atam Zakir Məmmədov, Rafiq Əliyev məktəbin AMEA-nın həqiqi və müxbir üzvü seçilmiş 7 nəfər məzunudur. Eyni zamanda yüzlərlə elmləri doktoru, elmlər namizədi, ədəbiyyat, mədəniyyət xadimləri bu təhsil ocağının məzunudur".

Hələ ki, Ağdamı görməyən oxucularımıza bildirir ki, Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli məktəb haqqında açıqlama verib.

Deyib ki, təməli 2021-ci ildə qoyulan, ümumi sahəsi 4300 kvadratmetrdən çox olan yeni məktəb binası üç mərtəbəli olmaqla 960 şagird yerlikdir:" kitabxana, muzey, iki yeməkxana, fənn kabinetləri ilə yanaşı, fizika, kimya, biologiya laboratoriyaları, akt və idman zalları, həmçinin 8 STEAM otağı, tibb və inzibati otaqlar olacaq. Beləliklə, Ağdamda 3 məktəbin tikintisi başa çatmaq üzrədir".

Uşaq bağçasız şəhər olar? Olmaz! Mənsimli deyir ki, 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçası körpələr evi-uşaq bağçasının tikintisinə 2023-cü ildə başlanılıb. Zirzəmi və iki mərtəbədən ibarət binanın ümumi sahəsi 2700 kvadratmetrdən çoxdur. Burada müxtəlif otaqlar, uşaqların təlim-tərbiyəsi üçün bütün zəruri şərait yaradılacaq". Ümid edirik, əlavə uşaq baxçalarının və məktəblərin tikintisi ilə bağlı da oxucularımıza biz məlumat verəcəyik.

**Ağdamla bağlı təəssüratlarım nə dəftərə, nə kitaba sığar! Ona görə də, təəssüratlarımın qalanını saxlayıram başqa vaxta. Hələ Ağdam yazım davam edəcək. Məni izləyin...**

**Əntiqə Rəşid**

## Babalarımız daşı oyub yazıblar, amma biz oxumuruq

**Bilgə Xaqan kitabəsi. Ən qədim türk TÖRƏsi:**

**1. Tanrı təkdir.**

**2. Hər kim Tanrıdan qut almaq istəyirsə, başqasına yalvarmasın.**

**3. Bir ölkə, bir Xaqan, bir Tanrı.**

**4. Bir qına iki qılınc girməz. Bir xatun iki ərə gedə bilməz və bir ulusda iki törə ola bilməz. Törə təkdir. Törə qəti və kəskindir. Kim törəyə itaət etsə qutlanar (müqəddəs enerji), kim törəyə qıysa, qatlanar.**

**5. Heç kim törədən üstün deyil, dirilik və birlik üçün törə budur.**

**6. Bir çoban sürüsündən, bir ər ailəsindən, bir Xaqan ulusundan soruşular.**

**7. Hər kişi arvadına, atına, silah-sursatına sahib çıxacaq.**



**8. Ana-ataya, babaya təzim ediləcək.**

**9. Qohumu qucaqlayacaq, qonşuna göz-qulaq olacaqsan.**

**10. Ər kişi yalan söyləməyəcək.**

**11. Mal-mülk oğurlayan mislini ödəyəcək, hesabı ya malıyla, ya canıyla soruşulacaq.**

**12. Hər kim kiminsə namusuna toxunsa həyatıyla cavab verəcək.**

**13. Kim olur-olsun haqsız, aldadıcı iş tutsa dərhal haqq-hesab olunacaq.**

**14. Döyüş meydanından, mübarizədən qaçan cəhənnəmə göndəriləcək.**

**15. Aman diləyənə qılınc çəkilməyəcək, sığınana arxa çevrilməyəcək.**

**16. Baş qaldıranın başı kəsiləcək, haqqını istəyənin haqqı veriləcək.**

**17. Heç kim heç kimdən üstün deyil, nə ağ ətin qaradan, nə qaranın qızıldan, nə də qızılın sarıdan fərqi olmayacaq.**

**18. Kin və qürurdan uzaq durulacaq.**

**19. Məzluma mərhəmət, zalıma əzab göstəriləcək.**

**20. Zəifə, yaralıya, qadına və uşağa əl qaldırılmayacaq.**

**21. Qızı istəyən Xaqan da olsa, bəy də olsa qız, özü istədiyinə ərə gedəcək.**

**22. Boş yerə ağac kəsməyəcəksən, suyu çirkləndirməyəcəksən.**

**23. Bilmədiyin şeyə bilirəm deməyəcəksən, sözü biləndən soruşacaqsan.**

**24. Bu günün işini sabaha saxlamayacaqsan.**

**25. Qüsur görməyəcəksən, qüsur axtarmayacaqsan.**

**26. Güclü olanda bağışlayacaq, zəif olanda səbr edəcəksən.**

**27.Alın yazısına asi olmayacaqsan.**

**28. Etdiyin yaxşılığı unut, edilən yaxşılığı unutma.**

**29. Hamı ədalətlə iş görəcək.**

**30. Hər nə edirsən et, mühakimə ediləcəyini yadında saxla.**

**31. Millətinə yad olma, ipəyin yaxşısına, sözün şirinliyinə aldanma, onlara bürünmə.**

**32. Xaqan odur ki, ədaləti üstün tutsun, törəni yaşatsın.Törə itsə, el yox olar. El olmasa, ulus qul olar.**

**33.Ey Türk bəyləri, ey millətim, eşidin!**

**"Yuxarıda mavi göy çökmədikcə, altda qara yer deşilmədikcə, sənin elini və törəni kim poza bilər?"**

**Titrə və özünə dön, ey Türk, sən özünə dönəndə daha möhtəşəm olursan.**

**Bilgə Xaqan Yazısı,**
**Orxan İrmağı**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Ölmədik, bu günü də gördük...

**Mən həmişə demişəm, bu gün də deyirəm: müəllim Allahdan sonra ikinci müqəddəs varlıqdır. Bizim bu dünyada bir Allaha, bir ata-anaya, bir də müəllimə borcumuz var! Əgər ata-ana bizi dünyaya gətiribsə, müəllim göylərə qaldırıb.**

**Amma bu gün bizi göylərə qaldıran müəllimə münasibət çox pisdir. Müəllimi bu qədər də hörmətdən salmaq olar?! Ölmədik, bu günü də gördük! Gəncədə məktəblərin birində tənəffüs zamanı bir neçə şagird müəllimi döyüb. Sözün düzü, bu xəbəri eşidəndə donub qaldım. Bir müəllim şagirdə əl qaldıranda az qala dünya dağıla; şagird qışqırır, valideyn qışqırır, cəmiyyət qışqırır...**

**Amma müəllim döyüləndə bu qışqırıq eşidilmir, cəmiyyət susur... Niyə susur, bax o, bilinmir?! Aidiyyatı qurumlardan isə elə bir reaksiya olmadı. Və dedilər ki, araşdırma aparılır. Balam, bu araşdırma bitmədi, niyə ictimaiyyətə məlumat verilmir?! Ona görə ki, Regional Təhsil İdarələri bərbad gündədir. Bu vəzifədə işləyənlərin bəzilərinin təhsildən xəbəri yoxdu və qeyri-ixtisas sahibidir. Amma müəllimin döyülməsinə biganə yanaşmaq olmaz!**

**Əgər müəllim döyülürsə, bu, nadanlıqdan və cahillikdən xəbər verir. Və bir də müəllimi döyülən millətin sabahı işıqlı ola bilməz! Bəlkə düz demirik, cənablar???**

## Göynən uçan avtomobil...



**Siz heç göynən uçan avtomobil görmüsünüz? Sizi bilmirəm, mən görməmişəm. Amma bir neçə gün bundan öncə gördüm. Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin qeydə aldığı və yaydığı görüntüdə belə uçan maşını ilk dəfə gördüm.**

Bakıda Heydər Əliyev prospektində yüksək sürətlə hərəkət edən avtomobil idarəetmədən çıxır, arakəsməni dağıdaraq göynən uçaraq yolun əks istiqamətində gedən maşının üstünə düşür və yerə çırpılır. Həmin an sanki bir filmə bənzəyir. Xoşbəxtlikdən ölüm hadisəsi baş vermir, qəza zamanı müxtəlif dərəcəli bədən xəsarətləri alan olur, onları da vaxtında xəstəxanaya çatdırırlar. Şübhəsiz ki, qazanın baş verməsi səbəbsiz deyildir. Ən azından sürücü məsuliyyətsizliyi özünü göstərir. Görünür, nəqliyyat vasitəsi həm də yüksək sürətlə idarə olunurmuş. Hər halda görünən odur ki, bu qəzada hər şey ola bilərdi. Sadəcə olaraq o sürücünü və digər avtomobilləri idarə edənləri Allah qoruyub. Belə hadisələr digər sürücülərə də ibrət olmalı, onlar avtomobilləri yüksək sürətlə idarə etməməli, sükan arxasında heç nəyə arxayın olmamalıdırlar. Çünki qəzalar olanda sənin nə vəzifən, nə də pulun köməyə çatmır!

**EMİL FAİQOĞLU**

## ABŞ Ermənistanda xarici yardım layihələrini dayandırır




**ABŞ Dövlət Departamenti Ermənistanda da daxil olmaqla, müxtəlif ölkələrdə həyata keçirilən xarici yardım layihələrinə ayrılmış ümumilikdə 215 milyon dollar dəyərində maliyyəni ləğv edib.**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ Hökümətinin Səmərəliliyi Departamenti (DOGE) məlumat yayıb.

"Bəzi xarici yardım proqramlarının məqsədəuyğunluğu Dövlət Departamenti tərəfindən yenidən nəzərdən keçirilir. Dövlət katibi Rübio bu gün dəyəri 215 milyon dollar olan 139 faydasız qrantın ləğv olunduğunu elan edib", - qurumun "X" hesabındakı paylaşımında bildirilir.

Məlumata görə, ləğv olunan qrantlar sırasında Dövlət Departamentinin Ermənistanda, Bolqarıstanda, Braziliyada, Böyük Britaniyada, Qırğızıstanda, Liviyada, Mavritaniyada, Moldovada, Tunisdə, Özbəkistanda və Şri-Lankada həyata keçirdiyi müxtəlif proqramlar yer alır.

## Piyadaların böyük günahı...



**Yol- nəqliyyat hadisələrinin baş verməməsi üçün piyadaların da üzərinə yüksək məsuliyyət düşür.**

Birmənalı olaraq onlar yol hərəkəti qaydalarına əməl etməli, təyin olunmuş yerlərdən- işıqfların, yeraltı və yerüstü keçidlərdən, piyada zolaqlarından istifadə etməlidirlər. Bu, həm də onların təhlükəsizliyinə xidmət edir. Təəssüf ki, bəzi piyadalar bu, deyilənlərə məhəl qoymur, hərəkətin təhlükəsizliyinə diqqət yetirmir, avtomobillətin sürətlə və intensiv hərəkət etdiyi yoldan keçməyə cəhd edirlər. Bu da bir çox halda ölümlə nəticələnən hadisələrin baş verməsinə səbəb olur. Bir neçə gün bundan əvvəl Bakı dairəvi yolda olan piyadavurmanı yada salmaq kifayətdir. Belə ki, avtomobillərin sürətlə hərəkət etdiyi yerdən keçmək istəyən piyadanı maşın vuraraq öldürüb. Yolun hərəkət hissəsinə qəfil çıxan piyada belə mürəkkəb durumda çıxış yolu tapa bilməyib və nəticə isə faciəli olub.

Deyilənlərə görə, həmin şəxs Qarabağ mühatibəsinin iştirakçısı olub. Ümumiyyətlə, hər bir yol hərəkəti iştirakçısı diqqətli olmalı və təyin olunmuş yerlərdən keçməlidir. Bir faktı da qeyd edək ki, bu yolda tez- tez belə qəzalar baş verir. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi Toğrul Nəsirli deyir ki, piyadalar da hərəkət iştirakçılarıdır və onlar birmənalı olaraq qanuna əməl etməyə borcludur. Sürücü sükan arxasında nə qədər məsuliyyətli daşıyırsa, piyada da yol keçərkən elə bir məsuliyyət sahibidir. Bunu hər bir piyada anlamalıdır. Biz piyadaların maarifləndirilməsi üçün bütün təbliğat vasitələrindən istifadə edirik.

Şəhərimizin müxtəlif küçə və prospektlərində onların təhlükəsizliyi ilə bağlı əməkdaşlarımız profilaktik tədbirlər keçirir. Bu tədbirlər zamanı onlara piyada əməkdaşlarımız tərəfindən maarifləndirilir, onlara düz yol göstərilir. Eyni zamanda dəfələrlə yol hərəkəti qaydalarını pozan piyadalar inzibati məsuliyyətə cəlb edilərək 20 manat civarında cərimə edilir. Amma bizim məqsədimiz onları cərimə etmək deyil, piyadaları qanuna əməl etməyə yönəltməkdir! Bir sözlə, hər bir hərəkət iştirakçısı qanunlar əməl etsə, ölümlə nəticələnən qəzalar ya baş verməz , ya da az olar!

## İndi satılan alçanı, çiyələyi, qarpızı yemək olmaz...



**Bu gün bazar və marketlərdə vaxtından tez istixanalarda yetişdirilmis alça, çiyələk, qarpız, şaftalı və digər meyvələr satılır. Özü də çox baha qiymətlərə. Məsələn, alçanın bir kiloqramı yüz manata.**

Eləcə də başqa meyvələrin də qiymət od tutub yanır. Təbii ki, pullu adamlar o meyvələrdən alırlar. Amma onların dadı mövsümdə yetişən alcanın, çiyələyin, qarpızın dadın vermir. Baş düşmək olmur ki, insanlar niyə mövsümdən qabaq bu zəhər dadan meyvələri yemək istəyir. Hansı ki, o meyvələr istixanada el dilində demiş olsaq, dava- dərmanla yetişdirilir. Tanınmış həkim, tibb elmlər namizədi Rəşid Mahmudov bizimlə söhbətində dedi ki, vaxtından tez istixanalarda yetişdirilmis meyvələri yeməyən insanlarda mütəlif xəstəliklər yarada bilər, çünki o məhsullara nə qədər dava- dərman edilir, onu bir Allah bilər. Əlbəttə, bu meyvələrin istehlakı sonda insanı mədə- bağırsaq xəstəliyinə qədər gətirib çıxara bilər.

Biz meyvələri ona görə yeyirik ki, onun tərkibində çoxlu vitaminlər var, onların bizə xeyirli dəyər. Belə meyvələr isə günəş şüası altında yerişir. Həmin meyvələr isə mövsümündə yeyilsə , daha xeyirli olar.Və bizim hər birimiz tələsməməli, o mövsümü gözləməliyik.Bax onda yeyilən meyvələr dadlı olur, insana xeyri var. Göründüyü kimi, Rəşid Mahmudovun fikirləri ilə razılaşmalı, onun məsləhətinə qulaq asmalıyıq ki, vaxtında tez istixanada yetişdirilmiş bu meyvələri yeyib pis vəziyyətə düşməyək. Yəni qaş düzəltdiyimiz yerdə vurub , göz çıxarmayaq!!!

## Bu usta tayfası ki, var...



**Deyirlər ki, dünyanın ən çətin peşə sahibləri sürücülərdir. Bunu nə dərəcədə dürust ifadə eləyiblər deyə bilmərəm, amma sürücülərin arasında o qədər də yalançı, dələduz adamlara rast gəlməmişəm. Çətinliyinə görə, həm də onları yetmiş ikinci millət adlandırırlar.**

Nə isə... Sürücülər ustalara baxanda toya getməlidir. Ən azından ona görə ki, onların dilinə hərdən- bir düz söz gəlir.Ancaq ustlarını dilinə ömrü boyu düz söz gəlmir. Hətta o, usta sənin qardaşın olsa, belə nə vaxtsa işin düşsə, yalan danışacaq. Biz də mənzilimizdə bəzi yerləri təmir etdirmək istəyirdik. Onlar görə də əvvəlcədən yaxın bir dostumun oğlu ilə əvvəlcədən danışmalı olduq. Bizə gəlib hər yerə baxdı və eyvanda görəcəyi işləri nəzərdən keçirdi.

Dedi ki, müəllim, darıxma, indi havalar soyuqdur, Allah qoysa, aprelin əvvəllərində təmirə başlayarıq. Razılaşdıq.Və aprelin əvvəlində onun mobil telefonuna zəng vurdu. Dedi ki, müəllim, məni bağışla, indi Moskvada qardaşımın yanındayam, may ayında gələcəm. Tay demədi ki, gəlib təmirə başlayacağam.Sonradan öyrəndim ki, dostumun oğlu gözünün içinə qədər yalan danışır. Moskvada deyil, Bakıda , daha doğrusu, Əhmədli də bir pullu adamın mənzilində başqa bir usta ilə təmir işi görür.

Belə adamlar insanları inandırmaq üçün yalandan and içir, nə Allahdan, nə kəsdiyi çörəkdən qorxur.Və onların gedən- gələn nəfəsləri də yalandır. Hansıki onun atası ilə duz-çörək kəsmişik və atası da oğlunun yalanını müdafiə edir, deyir ki, Bakıda yoxdur. Tay kimə inanasan?Mən çox yalançı adamlar görmüşəm, amma ustalar qədər yalançı, çörək itirən insan görməmişəm! Usta qardaşınız olsa, belə onu inanmayın, çünki onlar sizi aldadacaq və yarıyolda qoyacaq!!!

## "Manıs" lar bol olarsa...



**Özəl televiziya kanallarında hər gün at oynadan "manıs" lar ağızlarını açan kimi toydan danışırlar. Sanki toy onların havası- suyudur. Elə belə baxanda toy onların həyatıdır.**

Çünki onlar hansı televiziya kanalında olurlarsa, sənətdən yox, toydan danışırlar. Yazıqlar neyləsinlər, səsləri var ki, sənətdən söhbət açsınlar. Yagışdan sonrakı köbəlik kimi, onların sayı- hesabı yoxdur.Onları da cəmiyyətə tanıtdıran özəl televiziyalardır. Əgər sovet dönəmi olsaydı, indi at oynadan " manıs" ların doxsan doqquz faizi efirdə ola, bilməzdi.

Ümumiyyətlə, özəl televiziya kanalları mədəniyyətimizə, musiqimizə ermənilər qədər ağır zərbə vurub.İndi efirlərdə Rəşid Behbudov, İslam Rzayev, Şövkət Ələkbərova, Sara Qədimova, Tükəzban İsmayılova deyil, səsi və istedadı olmayan Şəbnəm Tovuzlu, Nəfəs, Vəfa Şərifova, Damla təbliğ olunur. Çünki bu toy müğənnilərinin pulları var, amma sənətləri yoxdur.

Və Qəribəsi odur ki, bu toy müğənniləri özləri o korifey sənətkarları tanımırlar. Hələ biz gənclərimizi demirik ha! Əksər gənclərimiz o böyük sənətkarımızı tanıya bilmir. Onları qınamalı deyil, çünki özəl televiziyalar bu dahiləri bir dəfə olsun belə yada salmır. Bax belə! " Manıs"lar bol olarsa, sənətkarlar yaddan çıxar!!!

## Buranı kim düzəldəcək?!



**Elə yerlər var, onun mütləq təmirə və yenidən düzəldilməsinə böyük ehtiyac var.**

Və həmin yerlər vaxtında təmir edilməyəndə bu, insanların narazılıgına səbəb olur. Məsələn, Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin "D" massivində, konkret olaraq " Fatimeyi- Zəhra" məscidinin yanından keçən küçədə səki var, ancaq tam düzəldilməyib. Yəni həmin yerlər kələ- kötür olduğuna görə , piyadalar avtomobil yolunu çıxır və həmin yerlə hərəkət edirlər.

Bu isə onların həyatı üçün böyük təhlükə yaradır. Başqa sözlə demiş olsaq, hər an yola çıxan piyadanı nəqliyyat vasitələri vura bilər.Təbii ki, bu mənzərəni adiyyatı qurumlar görməmiş deyil. Sadəcə olaraq buna əhəmiyyət verən yoxdur.

**Aydındır ki, belə vəziyyətin mövcud olması o qədər də xoşagələn deyildir.Biz bir daha ordakı vəziyyəti bu işə məsul olan qurumların yadına salıb, öz borcumuzdan çıxdıq! İndi söz sahibi adiyyatı təşkilatlarındır. Gözləyək, görək nə olur!!!**

**EMİL FAİQOĞLU**



# "Hay Dat" dan hökumətə bəyanat: "Kamil Zeynallını tutun..."

**Xatırlayırsınızsa, ötən il, Azərbaycan vətəndaşı, idmançı Kamil Zeynallı barəsində qondarma ittihamlarla Ermənistanda "cinayət işi" açılmış, "beynəlxalq axtarış" elan edilmişdi. İdmançı həmin ilin fevralında Moskvadan Bakıya qayıdarkən saxlanılsa da, sonradan sərbəst buraxılmışdı. Həmin vaxt onun İrəvana təhvil veriləcəyi barədə məlumat yayılmışdı.**



Aradan tam bir ötəndən sonra Ermənistan Baş Prokurorluğu tərəfindən elan edilmiş axtarışın dayandırılması barədə məlumat yayıldı. Amma qərar ermənilər arasında etirazlara səbəb oldu.

Adalet.az xəbər verir ki, Vaşinqtonda yerləşən "Hay Dat" ("Erməni davası") təşkilatı Erməni Hüquq Mərkəzi Ermənistan hökumətinin Kamil Zeynallının beynəlxalq axtarışını dayandırmaq qərarını kəskin şəkildə pisləyib.

Erməni Hüquq Mərkəzinin bəyanatında deyilir: "Erməni Hüquq Mərkəzi Ermənistan hakimiyyətinin Azərbaycan vətəndaşı Kamil Zeynallı barəsində beynəlxalq axtarış elan edilməsi barədə son dəhşətli qərarından dərin məyusluq və narahatlıq ifadə edir. O, 2020-ci ildə Qarabağ müharibəsi zamanı amansız hərbi cinayətlər törətməkdə ittiham olunur.

Zeynallının Hadrut bölgəsində yaşlı vətəndaşın başını kəsərək beynəlxalq humanitar hüququ kobud şəkildə pozduğu bildirilir. Bu qərarın Ermənistan və Azərbaycan arasında 2007-ci ildə imzalanmış bir-birinin vətəndaşlarına qarşı beynəlxalq axtarışların aparılmamasına dair razılaşması ilə bağlı olduğu bildirilir.

Bununla belə, o, ədalət və hesabatlılığın əsas prinsiplərini sarsıdır. Erməni Hüquq Mərkəzi əmindir ki, bu cür razılaşmalar hamılıqla bəşəriyyətə qarşı cinayət kimi tanınan hərbi cinayətlər üzrə yaradılmış beynəlxalq araşdırmaları ləğv edə bilməz.

Axtarışın ləğvi Ermənistan hökumətinin Azərbaycana etdiyi digər güzəştlər, o cümlədən beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı qaldırılan iddialardan imtina etmək istəyi ilə üst-üstə düşür.

Bu hərəkətlər müharibə qurbanlarının xatirəsinə xəyanət, habelə cəzasızlığın təhlükəli presedenti kimi qiymətləndirən hüquq müdafiəçiləri və müxalifət nümayəndələri arasında hiddət doğurub.

Beynəlxalq hüququn və onun müəyyən etdiyi münasibətlərin və düzəliş imkanlarının rədd edilməsi həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə qanunun aliliyinin əsaslarını sarsıdır.

Erməni Hüquq Mərkəzi Ermənistan hökumətini öz qərarına yenidən baxmağa və Qarabağ münaqişəsi qurbanları üçün ədalətin təmin olunmasına sadiq qalmağa çağırır. Bundan əlavə, Erməni Hüquq Mərkəzi beynəlxalq təşkilatları və insan haqları qurumlarını hərbi cinayətlərdə ittiham olunanların məsuliyyətə cəlb olunmasını təmin etmək üçün müdaxilə etməyə çağırır".

***P.S. Kamil Zeynallını o vaxt Ermənistana vermək mümkündür ki, bunun əvəzində Xocalıda 613 nəfəri Başlıbeldə, Ağdabanda, Qaradağlıda, Kərkicahanda, Malıbəylidə, Quşçularda yüzlərlə dinc sakini qətl edənSerj Sarkisyan, Robert Koçariyan, Seyran Ohonyan, Zori Balayan, Samvel Karapetyan , Kamo Ağacanyan, Samvel Babayan, Sason Saroyan, Aram Torqomyan, Yuri Xaçaturyan, Movses Akopyan və digərləri mütləq Azərbaycana təhvil verilsin...***

**Əntiqə Rəşid**

# Türk dünyasının tanınmış alimi Aygün Attarın doğum günüdür



**Bu gün Azərbaycanın haqq səsini beynəlxalq aləmdə layiqincə təmsil edən, Türk Dünyasının nüfuzlu simalarından biri, TADİV başqanı, professor Aygün Attar Həşimovanın doğum günüdür.**

**Azərbaycan ictimaiyyətində böyük rəğbətlə qarşılanan və daim təvazökarlığı ilə seçilən Aygün xanım, Türkiyədəki fəaliyyətində hər zaman Azərbaycanı ləyaqətlə təmsil etmiş, soydaşlarımızın üzləşdiyi çətinliklərin həllində yaxından iştirak etmişdir. Əslən Qubadlı rayonundan olan Aygün xanım, Birinci Qarabağ müharibəsinin igid komandirlərindən mərhum Adil bəyin və döyüşçü Aqil bəyin bacısıdır. Onun böyük bacısı Sona xanım Həşimova isə 20 Yanvar faciəsindən sonra Moskvada Mixail Qorbaçovun uzatdığı əli "Bu əldə millətimin qanı var" deyərək sıxmaqdan imtina etmişdir. Bu ailənin milli ruhu və mübarizlik ənənəsi, Aygün xanımın fəaliyyətində də aydın şəkildə öz əksini tapır.**

**Professor Aygün Attarın rəhbərlik etdiyi TADİV ilə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi arasında tərəfdaşlıq memorandumu imzalanmışdır. O, şəhid ailələrinin və qazilərin problemləri ilə daim maraqlanır, onlara mənəvi dəstəyini və dəyərli tövsiyələrini əsirgəmir.**

**Aygün xanımın əldə etdiyi mükafatlar, fəxri adlar və təltiflər onun elmi və ictimai fəaliyyətinin bariz nümunəsidir - bunları sadalamaqla bitməz.Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi və vetennamine.az saytının kollektivi adından Aygün xanımı doğum günü münasibətilə səmimiqəlbdən təbrik edir, ona bu şərəfli missiyasında yeni uğurlar arzulayırıq.**

**Uğurlarınız daim sizinlə olsun, Aygün xanım!**

**Hörmətlə:**
**Mehdi Mehdiyev**
**Aris Məmmədov**
**Əvəz Səfərov**

# Vatikandakı konfransın "boykot"una, ermənilərlə birgə Əhməd Kazemi də qoşulur

**Xəbər vermişdik ki, aprelin 10-da Müqəddəs Taxt-Tacın Vatikan Qriqorian Pontifik Universitetində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyi və Alban-Udi Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə "Azərbaycanda xristianlıq: tarix və müasirlik" mövzusunda Qafqaz Albaniyası irsinə həsr edilən XII beynəlxalq elmi konfrans keçirilib.**

Erməni şovinist və revanşistlər bu konfrandan sonra əməlli-başlı şoka düşüblər. Vatikanda, Azərbaycan konfransı...

Adalet.az xəbər verir ki, erməni toplumu, mediası, lobbisi və ermənilərdən çox erməni olan ermənipərəst qüvvələr bu konfransı gözdən salmaq üçün alternativ yol tapıblar. Erməni mediası yazır ki, aprelin 18-də və 19-da Ermənistan Amerika Universitetində Vatikanın cavab "ilk güllələri" eşidiləcək. "Cənubi Qafqaz pozuculuq" adlı beynəlxalq konfransda regionda demokratikləşmə prosesləri və Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunacaq. Çıxış edəcəklər arasında Afina Universitetinin professoru Cengiz Axtar, Corciya Universitetinin professoru Şalva Dzebisaşvili, Harvard Universitetinin Davis Mərkəzinin baş elmi işçisi Stiven Cons və İslami Azad Universitetinin (Tehran) professoru Əhməd Kazemi var.



Oxucularımıza xatırladırıq ki, professor Əhməd Kazemini Azərbaycan yaxşı tanıyır.

Ötən ilin martında qərəzli şəkildə İslam Azad Universitetində "Talış - İran mədəniyyəti və tarixinin aynasında" adı altında keçirilən konfrans Azərbaycanın parçalanması ideyasının açıq şəkildə dəstəklənməsini ifadə edirdi.

"Avrasiya məsələləri üzrə ekspert", yaxud "beynəlxalq məsələlər üzrə professor?)" kimi təqdim edilən Əhməd Kazemi həmin konfransın təşkilatçısı olub. "Mədəniyyət və tarix" adı ilə təqdim edilən konfransa Avropada yaşayan, Azərbaycanın talış əsilli vətəndaşlarının adından danışmağa cəhd edən Boris Talışinski şəxsən dəvət edilmişdi.

Bu azmış kimi onu "Talış Muğan Respublikası mühacir hökumətinin prezidenti" kimi təqdim etdilər.

Konfransın əsas təşkilatçısı Əhməd Kazemi isə Boris Talışinskini "şimali talışstanın mərhum prezidenti general Əliəkrəm Hümətzadənin varisi" adlandırdı. Bildirdi ki, "şimali talışstandakı qardaş və bacılarının hüquqları qorunmalıdır".

**Əhməd Kazemi vaxtilə Azərbaycandan deportasiya olunub və bu gün də İranın rəsmi dairələrinin tapşırığına əsasən Azərbaycana qarşı çıxışlar edir. Yəni, fars şovinisti Əhməd Kazeminin buqələmun kimi rəng dəyişdirib, indi də erməniləri dəstəkləməsi bizə təəccüblü gəlmədi.**

**Ə. Rəşid**

## *Söküntülərdə kiçik sahəsi olan evlərə kompensasiyalar necə ödənilməlidir?*



**"Bakı şəhərinin bəzi ərazilərində köhnə tikililərin, yaşayış və qeyri-yaşayış obyektlərin köçürülməsi, söküntü və abadlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Söküntü işləri istismar müddəti başa çatan və tarixi əhəmiyyət daşımayan əsasən qəzalı vəziyyətdə və aşınma dərəcəsi olduqca yüksək olan bina və tikililəri əhatə edəcəyi gözlənilir".**

Adalet.az xəbər verir ki, bu sözləri iqtisadçı deputat Vüqar bayramov deyib.

"Söküntü ilə bağlı ən çox verilən sual kompensasiya məbləği ilə bağlı olsa da, belə ödənişlərin evlərin sahələri üzrə necə təsnifləşdirilməsi də əhəmiyyətli məsələlərdandır. Belə ki, bəzi həyət evlərin sahələri kifayət qədər kiçikdir və həmin mənzillərə kompensasiyanın kvadrat metrə uyğun hesablanması yoxsa ümumi evə görə konkret rəqəmin ödənilməsi vacib məqamlardandır. Məsələn, bəzi evlərin sahələri 30 və hətta bir sıra hallarda 20 kvadrat metrdən azdır.

Aydındır ki, sabit ödənişlər olan zaman az sahəsi olan mənzillərə ödənilən kompensasiya məbləği də müqayisəli şəkildə aşağı olur.

Bir sıra ölkələrdə dövlət ehtiyacları üçün söküntü aparılan zaman az saheli evlər üçün konkret məbləğdə kompensasiya və ya yeni mənzil təklif edilir. O baxımdan, daha məqsədəuyğun olardı ki, söküntülər zamanı Bakıda da diferensial kompensasiya məbləğləri tətbiq olunsun. Bu halda sahəsi nisbətən kiçik olan evlər üçün kompensasiya kvadrat metrə uyğun deyil, həmin mənzil sahibinə ev almaq üçün yetərli məbləğdə ödənilə bilər. Bu isə nisbətən az saheli ev sahiblərinin mənzil probleminin həllinə dəstək olardı", - deyə o qeyd edib.

**Nicat Novruzoğlu**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Altı yaşlı ATASIZLIQ

**Bu yazını başlamaq üçün təkcə içimdə deyil, elə iş otağımda da xeyli var-gəl etdim. Necə deyərlər, ipucu tapmaq müşkülə düşmüşdü. Üstəlik telefon zəngləri, gəlib-gedənlərin düşüncələrimə yaratdığı problemlər və bir də içimdəki narahatçılıq demək olar ki, toparlanmağa imkan vermirdi. Birdən diqqətim yarpaqları azacıq büzüşmüş dibçəkdəki "Ana ürəyi" çəkdi. Bu da elə bil qıfılın açarı oldu. Dilimdən yaddaşıma, yaddaşımdan ürəyimə... Və beləcə, bir də gördüm ki, başlamışam yazmağa. Özü də gizlincə, kimsənin duymadığı bir şəkildə. Çünki bu yazı ürəyimə yazılırdı...**

...Çox uzaqdan başlayacam. O qədər uzaqdan ki, o uzaqlığın yaşı ötən əsrin 70-ci illərinə gedib çıxır, məhz həmin illərdə orta məktəbin 8-ci sinfində oxuyanda bəlkədə də həyatımda ilk dəfə valideynin, ata-anamın, özümdən böyüklərin nələr çəkdiyini, hansı yükə çiyin verdiklərini anladım. Bu da səbəbsiz olmadı. Oxuduğum kitablar, xüsusilə "Anamın kitabı" məndə əməlli-başlı bir daxili çaxnaşma yaratmışdı. Sonra da bunun ardınca böyük Məmməd Arazın "Atamın kitabı"nı oxudum. Bir-birinə qarışan fikirlər, ürəyimdən keçirdiyim arzular və nəhayət, gözümün qarşısındakı əli qabarlı atam, anam həmin o anamın və atamın kitablarından oxuduqlarımı sanki təkrar-təkrar vərəqlətdi mənə. Səhərin şaxtasında, gecənin sərt ayazında çöldən, təsərrüfatdan qayıdan, amma yoruldum demədən mətbəxə qaçıb uşaqları üçün nə isə hazırlayan anamın və səbrlə onun açacağı süfrəni gözləyən atamın hər bir halı, hər bir hərəkəti yaddaşıma mismarlanırdı. İşdən gəlib dincəlməli olan bu adamların körpələri üçün necə təşnə olmaları həqiqətən son dərəcə maraqlı bir səhnə, son dərəcə kövrək bir mənzərə və son dərəcə də düşündürücü bir gerçəklik idi. İnsan övladı üçün oddan-alovdan keçər, deyənlərin yanılmadığına mən onda bir daha əmin oldum və öz-özümə daxili bir qərara imza atdım. Heç kimə bəlli olmayan, təkcə Allahın bildiyi bir qərarı içimdə pıçıldadım:

- Sizə oğul olacam! Sizin əzab-əziyyətlərinizin azacıq da olsa azalması üçün, unudulması üçün hər şey edəcəm!..

Həmin o uzaq illərdə yazdığım və ilk kitabımın ilk şeiri olan bu misraları da atama ünvanlamışdım:

***Heç kimdən, heç kəsdən umacağım yox***
***Gözü toxluğumla öyünmüşəm mən!***
***Anam qollarını yüyrük eyləyib -***
***Atamın çiynində böyümüşəm mən!***

Təbii ki, hər kəsə ana müqəddəsdir...ata gücdü, dayaqdı!.. Və hər kəs də anası, atası üçün fərqli və özəl bir dünyadı. Bu mənada anasızlığı, atasızlığı yaşayanlar mənimlə razılaşarlar. Çünki təbii qanun olsa da, biz heç birimiz ana, ata, ümumiyyətlə, doğmalarımızın, sevdiklərimizin itkisiylə barışmırıq. Bunu zaman-zaman içimizdə ağrı kimi daşıyırıq. Xüsusilə duyğusal adamlar bu itkilərdən çox üzülürlər. Mən də bir oğul olaraq atamı itirəndə,döyüş meydanında və adi həyatda dostları, doğmaları son mənzilə yola salanda bir daha anlatdı ki, böyük Məmməd Araz "Ana itirmişəm ana yaşında" deyəndə haqlı imiş. Özü də bütünlüklə, sözün nöqtə vergülünə qədər haqlı imiş. Və kiminsə dünyasını dəyişən valideyinin yaşını soruşması mənə görə, bağışlanılmaz günahdır. Axı, anaların, ataların yaşı olmur!!!.

Dünən yuxuma gəlmişdin. Sonuncu dəfə gördüyüm geyimdəydin. Həmin geyimdə od biçməyə, on - onbeş qoyun-quzunu qabağına qatıb örüşə gedərdin. Necə deyərlər, çöl-bayır adamı idin Və bu geyimdə bəzən daş üstündə də otururdun, göy otluqda da dirsəklənirdin, ağaca da söykənirdin. Amma maraqlıdır ki, süzülmürdü, cırılmırdı bu paltarın. Hətta anam deyəndə ki, "Əşi çıxart onu əynindən, lap nimdaşlaşıb.", Deyirdin ki, fikir verməmənə belə rahatdı

Gəlmişdin yuxuma həmin paltarda, amma bu dəfə bir az küskün, incik adama bənzəyirdin. Salamı da soyuq aldın, dilucu. Başa düşdüm günahımı. Az qala bir ildi ki, qəbrini ziyarət etmirəm, bir ildir ki, yolum düşməyib sən yatan o məzarın olduğun tərəflərə. Gərək bağışlayasan. Həm qayğılar çoxdu, həm maddi sıxıntılar, həm də ağrı-acı imkan vermir. Yəqin xəbərin var, Səndə olan ağrıların hamısı köçüb mənə. Mən də gecələr səhərə qədər qollarımı, ayaqlarımı ovuram, dizlərimi döyəcləyirəm, faydası yoxdu. Elə zoqquldayır ki, az qala ürəyim dayansın. Doğrudur, bu mənə bəraət qazandırmır, amma olanı deyirəm. Özün bilirsən ki, heç vaxt sənə yalan danışmamışam və həmişə də düşünmüşəm ki, dünyanın ən böyük Adamı, ən böyük Atası sənsən. İndi də bu fikirdə qalıram. Beş ildir bu fikirlə yaşayıram.

Təəssüf ki, Səni 2019-cu ilin martın 17-də cənnətə yola salanda o böyüklüyünün də sənlə getdiyini anladım. İndi isə budanmış, qol-qanadı sözümə baxmayan yarıqurumuş bir ağac kimiyəm. Çünki güvəncim yoxdu, ata güvəncim!!!...



Baxışlarımız toqquşanda atam həmin o köhnə səsi ilə söyləyir:

- Tək bizim kəndimiz, evimz talanmayıb ki... Bu dərdi çəkən tək biz deyilik ki, özünə fikir ver, hər gün qocalırsan. Nə yaşın var ki... Bir də fikir çəkməklə heç nəyi dəyişə bilməzsən!..

Doğrudan da , Illər ötüb... Mən də yaşlaşmışam... Ata da olmuşam, baba da. Amma atama, anama verdiyim vədi gerçəkləşdirə bilməmişəm.

Hə, mən bu fikirləri sözə, yazıya köçürdükcə hardansa ağlıma bir qığılcım kimi işartı düşdü. O işartı içimi də, ruhumu da alışdırdı. Özüm də bilmədən başladım misraları pıçıldamağa. Yazdım ki:

### (Atamın ruhuna)

***Səni yuxuda gördüm...***
***Yenə həmən sitildə...***
***Can köynəyin də həmən -***
***Uzandığın mitil də!***
***Çöhrən solğun - ağarmış***
***Kipriklərin titrəyir...***
***Sinən bir az qabarmış -***
***Barmaqların büdrəyir...***
***Dodağını dilinlə***
***İsladırsan bir təhər...***
***Gözlərinin dibində -***
***Qürub edir bir səhər...***
***Baxışların "Əlvida" ...***
***Notlarında köklənib...***
***Sən ruha çevriləndən -***
***Nimdaş ömrüm təklənib!..***
***... Səni yuxuda gördüm***
***Yenə alnında tər var...***
***Sənli günlərə döndüm -***
***Ürəyimdə tər qabar...***

...Dibçəkdəki gülün torpağını yumuşalda-yumuşalda özümə təsəlli vermək istəyirəm. Barmaqlarımın ucundakı torpağın hənirini hiss edirəm. O istilik damarıma, qanıma işləyib. Bu məqamda nə vaxtsa yazdığım şeirin bir misrası ağlımın ucundan gəlib keçir. O şeirdə yazmışdım ki, torpaq çəkir adamı! İndi də hiss etdim bunu, özü də açıq-aşkar şəkildə. Hiss etdim ki, yerin üstündəki dostlarımın, güvəndiklərimin sayı azaldıqca, onların yerin altında sayı artdıqca mən də torpağa tərəf, yerin altına tərəf yaxınlaşıram. Ara məsafəmiz ölçüsü bilinməyən bir sürətlə, bir qayda üzrə azalıb, qısalıb. Və kim istəsə, qısalan ömür də deyə bilər. Amma fərq etmir. Söhbət Allahın verdiyi ömrü elə onun öz diqqəti, nəzərləri altında yarpaqlarını tökməsidi, saralmasıdı, qocalması və yaxud sınması, əyilməsi... bir də kökündən qopmasıdı. Deməli, bu bəlli yoldan qaçmaq, çəkinmək, o yolu dəyişmək mümkün deyil. Elə bəlkə də bunun özü də bir gözəllikdi. Çünki dəyişilməyən bəlli yolu hər kəs özü kimi, öz adıyla, öz yerişi ilə keçib gedir...

***Mən indi***
***nə qədər***
***tənha olduğumu***
***və əslində***
***elə***
***tənhalıq üçün***
***doğulduğumu***
***sənin gözlərindən oxudum...***
***sonra da***
***sən***
***heç nə demədən***
***gözlərini qoyub getdin...***
***mən isə***
***oxuduğum gerçəyin***
***yeddinci qatında***
***yəni***
***sənin tərk edilmiş***
***həyatında***
***bir cəsəd kim***
***qaldım...***

***

Adətimdi, içimdəki düşüncələri, ağrı-acını, elə sevinci də qələmə pıçıldayanda, kağıza köçürəndə bir az rahatlanıram. Elə bil ki, yorğun, ağır bir işdən sonra ılıq suyun altından keçib sonra qarşımdakı buğlanan çayla baş-başa qalırsan. Onda özün də, sözün də dupduru olur. Yəni özün də, sözün də bir-birinə elə sarmaşır ki, onları ayırmaq, onları haralarasa yozmaq həm çətinləşir, buna həm də adam heç ürək də eləmir. Bu mənada mən dostlarımla həmsöhbət olanda, onlarla istənilən süfrə arxasında bir araya gələndə mənən, ruhən rahatlıq tapıram. Çünki anlayışla qarşılanıram, səbrlə dinlənilirəm. Hətta nöqsanımı da, yanlışımı da onu elə ustalıqla mənə həzm etdirirlər ki, heç ruhum da incimir. Bir də baxıb görürəm ki, onlar haqq olanı mənə öz dilimlə etiraf etdirirlər. Məhz bu yaşantılara görə, mən fələkdən zaman alanda ürək dostlarımı, ruh doğmalarımı axtarıram. Elə rahatlıq üçün də, özüm və dostlar üçün də...Hətta dəfələrlə bunu da etiraf etmişəm ki :

***Avara olardım, sərbəst olardım***
***Ağlıma gələnlə sərməst olardım...***
***Özümə bablara tər-dəst olardım -***
***Mən şeir yazmağı tərgidə bilsəm...***

***Adıma yazılan yad daşa köçməz***
***Gördüyüm gözümə, yaddaşa köçməz...***
***İçimdən vərəqə, ya daşa köçməz -***
***Mən şeir yazmağı tərgidə bilsəm...***

***Min dadda, tamdadı balı, şəkəri***
***Qələmə çökdürür onu çəkəni!***
***Ürəyim olmazdı sözün nökəri -***
***Mən şeir yazmağı tərgidə bilsəm...***

***Gecəni gündüzə calaq etməzdim***
***Ahları içimdə qalaq etməzdim...***
***Bu ömrü bir sısqa bulaq etməzdim -***
***Mən şeir yazmağı tərgidə bilsəm...***

***Əlimi dərgaha açmazdım bəlkə***
***Özümdən özünə qaçmazdım bəlkə...***
***Ürəyə bu qədər acımazdım bəlkə -***
***Mən şeir yazmağı tərgidə bilsəm...***

Bilmirəm, necə yazdım və ümumiyyətlə, nədən yazdım. Amma onu bilirəm ki, bu şeiri mütləq yazmalı idim. Ən azından ona görə ki, bu dünyada insanın bacardığı hər nədisə, onu icra etməsi labüddü.

Bir də ki, Allah hər kəsi bir missiya ilə yaradıb. Bax, bu mənada mən də içimdə doğulub ruhumun pıçıltısı olan misraları şeirə çevirdim. Necə alınmağı indiki anda mənim üçün o qədər də önəmli deyil. Axı, ruhum rahatlanıb. Və...

**... Ruhun şad olsun ata! Mənsizliyin altı illik dözümünə baş əyirəm!..**

---

## *Azərbaycan "Osaka, Kansai Ekspo 2025" dünya sərgisində təmsil olunur*



**Yaponiyanın Osaka şəhərində "Həyatımız üçün gələcək cəmiyyəti formalaşdıraq" (Designing the Future Society for Our Lives) mövzusunda "Osaka, Kansai Ekspo 2025" dünya sərgisi işinə başlayıb.**

Adalet.az xəbər verir ki, "Ekspo 2025"in rəsmi açılışıda Yaponiya İmperatoru Naruhito, bu ölkənin Baş naziri Siqeru İsiba, Beynəlxalq Sərgilər Bürosunun Baş Katibi Dmitriy Kerkentzes, dünya sərgisində təmsil olunan ölkələrdən yüksəksəviyyəli qonaqlar iştirak edib.

Tədbir çərçivəsində Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyonun da açılışı olub.

**Açılışda Azərbaycanın "Ekspo 2025" üzrə Baş komissarı, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, "Ekspo 2025"in Azərbaycan üzrə ölkə meneceri Şimzi İzumi, Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə və digər qonaqlar iştirak edib.**

## *Bill Qeyts superyaxtasını rekord qiymətə satışa çıxardı*



**Dünya şöhrətli milyarder Bill Qeyts 645 milyon dollar dəyərində olan və dünyanın hidrogenlə işləyən ilk yaxtası kimi tanınan ultra-lüks "Breakthrough" yaxtasını satışa çıxarıb.**

Adalet.az xəbər verir ki, bu barədə CNN telekanalı məlumat yayıb.

Superyaxta brokerləri və idarəetmə şirkətlərindən biri olan "Edmiston"un baş direktoru Ceymi Edmistonun sözlərinə görə, dünyanın hidrogenlə işləyən ilk super yaxtası kimi tanınan "Breakthrough" "indiyədək inşa edilmiş ən möhtəşəm yaxtadır".

Yaxtanın yeni alıcısının kanadalı milyarder və "Green For Life Environmental" şirkətinin baş direktoru Patrick Dovizzi olduğu iddia edilir.

# Yağışlı havanın özəl QONAĞI

**İnsan təbiətin bir parçasıdı. Özü də ən həssas, ən qaynar və ən qəddar parçasıdır. Çünki o, təbiətdən həm yararlanır, həm də təbiəti məhv edir. Təbii ki, "insan" anlayışının özü də çox böyük məna daşıyıcısıdır və deməli, böyük olduğu qədər də rəngarəngdi., Fərqli və bəzən də bir-birini inkar edən çalarlarla meydanda olur, özünü büruzə verir. Bax, bütün bunların ayrı-ayrı, həm də birlikdə ifadə etdikləri təbiətdə özünü təsdiqləyir. Belə ki, dəyər verənlər, qoruyanlar təbiətin müdafiəçisi, həm də onun bəxş etdiyi gözəlliklərdən zövq alanlardı. İkinci qism isə yenə təbətdən yararlanıb onu öz məqsədi üçün istifadə edənlərdi. Onlar üçüncüdən nisbətən insaflıdılar. Çünki üçüncü qrup yalnız təbiətdən varlanmaq və bu yolda hər şeyi məhv etməyə hazır olanlardı...**

Bəli, bu üç qrupun içərisində birincilər həmişə təbiətin qoruyucusu, onun özəlliklərini yaşadanlar olduqları üçün çiyinlərində də digər iki qrupun yükünü çəkirlər.. Ona görə ki, həmin digər iki qrupa qarşı mübarizə aparmaq, onları maarifləndirmək o qədər də asan iş deyil. Belə məqamda canlı nümunə ilə yanaşı, bədii sözün də gücü işə yarayır. Deməli, bu yerdə şair, yazıçı, ümumiyyətlə qələm adamının, fırça ustasının peşəkarlığı, səmimiyyəti, həm də qələminin gücü cəmiyyətə, oxucuya və əvvəldə söylədiyim digər iki qrupa az-çox öz təsirini göstərib. Bu bir damla özü-özlüyündə böyük güc olmasa da, amma söz adamının bacarığının, istedadının ifadəsi kimi önəmlidir.

"Bir şairin bir şeiri" layihəmdə həmsöhbət olduğum şair Tofiq Nurəli kifayət qədər oxucusu olan, həm də necə deyərlər, həyatın " dibində" olmaqla gerçəkliyi yaşayan, ifadə edən qələm adamlarımızdan biridir. Onun bütün yaradıcılığının əsas xətti həyat realllığı, bir də özünün canından, qanından keçirtdiyi duyğuların ifadəsidi. O duyğular ki, şeirə çevriləndə oxucunun könlünə rahatca yol tapır. Bu mənada şairin "Yağışlar" şeiri mənim könlümü oxşayan, ruhumun sarı siminə toxunan özəl bir nəğmədir. Onun da müəllifi təbii ki, Tofiq Nurəlidi. Tofiq yazır ki:

***Dağımdan-daşımdan gəlir elə bil,***
***Ömrün o başından gəlir elə bil -***
***On səkkiz yaşımdan gəlir elə bil***
***Gecə pəncərəmi döyən yağışlar...***

Bəli, bu misraları diqqətlə oxuyanda göz önündə yaşadığın məkan, sənə aid ömür payı, xatirələr və təbii ki, bir də təkliyin içərisindəki pıçıltı ilə deyilənləri dinləmək anını yaşayırsan. Həmin an , bir oxucu olaraq mən də, Tofiq Nurəliyə qoşulub hardan hara gəldiyimi, dağını, daşını, təbii ki, 18 yaşını düşündüm. O düşüncələr də paralel olaraq mənə öz duyğularımı şeirləşdirmək meydanını verdi. Bu meydanda səsinə səs verdiyim qələm dostumun duyğuları öz kövrəkliyi, öz həzinliyi ilə məni də həm notlara köklədi. Və mən:

***İlmə qaçıbdı, ilmə***
***Qarışıbdı naxışlar.***
***Gurşad kimi üstümə***
***Ələnibdi yağışlar.***

Hə, biz ayrı-ayrılıqda yağışın ovqatını yaşayıb, onu ruhumuzdan keçirməyə, eləcə də onu ruhumuza köçürməyə çalışırıq. Bu bir daxili tələbatdı.

Çünki o tələbat dünənki, ötən illərdəki, xatirələrdəki günlərə üz tutub gedir. Daha doğrusu, ordan üzü bəri gəlir. Yol boyu da vərəqlər çevrilir, hər səhifənin öz sözü, öz pıçıltısı, öz səsi, öz nəfəsi qarsıyır bizi. İçərisində olduğumuz bu duyğusal anlar bizim üçün itirdiklərimizin acısı, dəyər vermədiklərimizin yanğısı, qoruyub saxlaya bilmədiklərimizin fəryadı, qovuşa bilmədiklərimizin həsrətidir. Məhz bütün bunlar da Tofiq Nurəli şeirində mənim iç dünyamın cizgilərini işıqlandırır. Onları bu misraların dinləyicisinə çevirir:

***Qayğısız günlərin ədası kimi,***
***Bir cüt qara gözün xatası kimi,***
***Gəlir ilk sevginin sədası kimi***
***Gecə pəncərəmi döyən yağışlar...***

İndi həmin o pəncərəni döyən o yağışın özünün yozumunu sözə çevirmək istəyi gəlib keçir qəlbimdən. Çünki o yozum bir sevginin həm varlığını, həm bütövlüyünü, həm saflığını, həm də xatirəyə çevrilib yaddaşın və ürəyin bir küncündə həyatın, ömrün ən gözəl nişanəsi kimi qaldığını açıqlayır. Yəni misraları yozanda bütün bu dediklərim xatırlanır. Deməli, bu şeirin, daha doğrusu, pəncərəni döyən yağışın bir adı da xatirədir. Ümumiyyətlə isə, ömrün, həyatımızın, elə hər birimizin ayrı-ayrılıqda xatirə bağçamızın çiçəklərinin, güllərinin rəngarəngliyi də, ətri, qoxusu da, pəncərəmizi döyən yağışın sinonimidir. Biz o səsin, o bir-birini tamamlayan və paralel olan səslərin dinləyicisi kimi susmuruq, əksinə:

***Çözmək çətinləşibdi***
***Qarışmış naxışları.***
***Hopdururam ruhuma -***
***Bu isti yağışları...***



Beləcə, ruhumuza hopan, həm də yanaqlarımızı isidən o isti yağışın nə demək olduğunu bir Allahın, bir də sənin eşidəcəyin səslə deyirik, etiraf edirik. Barmaqlarımızın ucu ilə kipriklərimizdən qopmağa hazırlaşan damlanı silib, bir ah çəkirik. O ah yerlə-göyün arasında hansı sürətlə hərəkət edir etsin, məhz ahın qaynaqlandığı gerçəklik elə olduğu kimi də qalır, heç nə dəyişmir. Dəyişən ürəyimizin bir telinin də qırılması, ağrımızın bir az da artması, həsrətimizin bir az da uzanmasıdır. Bunu hər kəs də bilməsə, sevənlər və bir də duyğuların boynumda yaşadıqlarını sözə çevirənlər yaxşı bilirlər. Elə həmin dediyim şəxslərdən biri də Tofiq Nurəlidi. O da öz iç dünyasını, öz yaşantılarını bir az pərdəli şəkildə dünəndə qalan həsrətini pəncərəni döyən yağışın dilindən hamıya çatdırır:

***Təntimir ürəyim, titrəmir səsim,***
***Sönüb gözlərinə baxmaq həvəsim,***
***...Ancaq, unutmağa qoymur, əzizim,***
***Gecə pəncərəmi döyən yağışlar...***

Gördünüzmü, ruh dostum Tofiq Nurəli özəl duyğularını yağışın boynuna necə biçdi. Onun dili ilə nələrə, haralara, kimlərə işarə vurdu, ismarıc göndərdi...

Sizi deyə bilmərəm, mən bu şeirin yaratdığı ovqatda özümü məhz şairin dayandığı nöqtədə hiss etdim. Özümün həmin günlərimə, həmin anlarıma qayıtdım. Bunu da etiraf etməliyəm ki, üç bəndlik şeirin özəl dünyası birmənalı şəkildə məni qolların arasına almışdı. Mən o qolların arasında öz dünyamın bir rahat anını yaşadım. Həmin anı Sənin və Allahımın bildiyi kimi, dünənimdən bugünümə xəyalən, ruhən gətirə bildim.

Yol boyu da hər şey yeniləndir, təkrarlandı və yenidən yaşandı. Özümü bu cür ovutmağa, bu cür yola verməyə çalışsam da, amma alınmır. Çünki "bəlkələr" reallığa çevrilmək üçün ömürdən ömür alsa da, bir əlini, bir ayağını yenə sürüyür.

Ona görə də:

***Bəlkə də naxışlıqdı***
***İlmələrin qaçması.***
***Ruhuma təsəllidi***
***Bu yağışın açması.***

**Bəli, yağışla həmsöhbət olub, yağışla özümüzü, ruhumuzu həm yuyub, həm də onun səsində dünənimizin səsini eşitmək istəyimiz bu şeirləri dünyaya gətirdi. Necə alındı, necə qarşılanacaq, onu siz daha yaxşı bilərsiniz. Mənim bildiyimsə yağışlı havada, bir çətirin altında bir ömür yol getmək, gözəlliyini, özəlliyini yaşamaqdı bu... Təki qismət ola!!!**

Əbülfət MƏDƏTOĞLU

---

Səlbi Baxış

# SEVGİNİN ÖLÜMƏ GEDƏN YOLU



**Tanınmış yazıçı-publisist Fazil Sənanın bir çox əsərləri ilə yaxından tanışam. Bu yaxınlarda müəllifin "Bağışlanmış günah" (Bakı, "Esporint" 2022) adlı romanını oxudum. 360 səhifədən ibarət olan romanın iki aya yazılması tarixi ilə tanış olanda yazıçının iş qabiliyyətinə heyrətimi gizlədə bilmədim. Demək olar ki, romanı bir nəfəsə oxudum.**

Yazıçı öz duyğularını, cəmiyyətdə baş verən mənfi və müsbət əxlaqi keyfiyyətləri oxucuya çox ustalıqla çatdırır. O, bu romanda həmdə insani keyfiyyətlərin ən alisi olan sevgi, məhəbbətin ucalığını psixoloji baxımdan oxucuya müvəffəqiyyətlə aşılamağı bacarıb. Fazil Sənanın əsərləri sadə xalq dilində yazılması ilə fərqlənir. Əsərlərində tez-tez atalar sözünün işlənməsi müəllifin faktlara bələdçiliyinin göstəricisidir desək, bizcə səhv etmərik. Çətini yazıçının hər hansı bir əsərindən beş-on səhifəni oxumaqdır. Sonrası ilə işin yoxdur, əsərdəki hadisələr səni öz arxasınca elə aparır ki, birdə o vaxt özünə gəlirsən ki, əsəri oxuyub qurtarmısan. Yəni onun əsəri o qədər oxunaqlıdır ki, oxucu ondan ayrılmaq istəmir. Əsər səni öz ağuşuna necə alırsa elə birdə görürsən ki, onun içindəsən. Orada özünü görürsən. Onun təsirindən bir müddət yaxa qurtara bilmirsən. Budu, əsərin böyüklüyü.

Günümüzün ədəbiyyatında ən qaynar qol olan Qarabağ müharibəsinin törətdiyi vəhşiliklər nəticəsində dağılmış ev-eşiklər, çırağı sönmüş ailələr, ayrı düşmüş sevgililərin, məcburi köçkünlərin ağrı-acısı, Vətən həsrəti, yurd nisgili, cavan qız və oğlanlarımızın taleyi, bir parça çörəyin arxasınca xarici ölkələrə üz tutan ailələrin qarşılaşdığı hadisələr "Bağışlanmış günah" romanının əsas süjet xəttini təşkil edir.

"Bağışlanmış günah" romanında da müharibənin insan talelərinə vurduğu ağır zərbələr izsiz keçinmir.

Roman əsasən iki gəncin keçdiyi həyat yolundan bəhs edir. Onların həyatda qarşılaşdığı çətinlikləri, yaşadıqları bütün ağrıacıları yazıçı çox məharətlə əks etdirə bilmişdir.

Müəllif "Bağışlanmış günah" romanında baş qəhrəman olan Xəyalın timsalında əsil Azərbaycan oğlunun igidliyini, mərdliyini, dosta, ailəyə, qadına, əsasən sevdiyi qıza qarşı dürüst, sədaqətli və təmkinli münasibətini ön plana çəkmisdir. Romanda yazıçı azərbaycanlı gənclərin Azərbaycanın müstəqilliyi uğurunda necə canfəşanlıqla mitinqlərdə fəal iştirak etmələrini , qanlı 20 Yanvar gecəsində də ölümün gözünə qorxmadan dik baxmalarını gələcək nəsillərə müvəffəqiyyətlə ötürə bilmişdir.

Qanlı 20 Yanvar gecəsində Sovet ordusunun Bakıya daxil olmasına qarşı çıxan etiraz aksiyasına qoşulanlar içərisində Pərvinin, Xəyalın və Xədicənin timsalında damarlarında qaynar qan axan gənclərimizi görürük. Pərvinin yaralanması səhnəsi onu göstərir ki, neçə-neçə Azərbaycan gəncləri ölümdən qorxmadan düşmənin gözünün içinə baxa-baxa sinələrini gülləyə sipər etdilər. Təki doğma Ana Vətən sağ olsun, əbədi yaşasın - dedilər.

Xəyalın ön cəbhəyə Pərvinin arxasınca getməsi və ö aralarında Xəyalın "Əzizim, bu qızıl sep bu gündən bizim rəsmi sənədimiz olsun "deməsi gəncliyin məhəbbətə dürüst, sədaqətli olmasını tövsiyə edir.

Xəyal Pərvindən ayrılan zaman "Müharibənin işini bilmək olmur. Əgər qayıtmasam məni gözləmə, ailə qur" deməsi hər nədən sonra sevdiyi qızın xoşbəxt olmasını yazıçı sevginin ən ali ucalığını kövrək bir qəlb ilə qələmə almışdır.

Xəyal müharibədə əsir düşür. Ondan heç bir xəbər ala bilməyən Pərvin ailəsinin təkidi ilə ailə qurmaq məcburiyyətində qalır. Qazanc məqsədi ilə Rusiya ölkəsinə üz tutan Pərvinlə Rövşənin simasında Azərbaycan ailələrinin ailə dramını yazıçı göz önünə gətirir. Rövşənin cibi pul tanıyandan sonra necə dəyişməsi , ailəsinə qarşı soyuqluğu, xəyanəti sonda ailənin dağılmasına səbəb olur. Bəli, burda yazıçı Azərbaycan qadınının nə qədər səbirli, dözümlü və müdrik olmasını da oxucuya çatdırır.

İllər sonra tale Xəyalla Pərvini bir təsadüf nəticə-sində qarşılaşdırır. Onların bir-birinə olan təmiz, saf sevgisi yenidən onları qovuşdurur. Ancaq milli adət-ənənəmiz bu təmiz sevgiyə qarşı çıxır. Qınaq atəşinə tutulur. Onların bu hərəkətini cəmiyyət əxlaqsızlıq kimi qiymətləndirir. Çünki Pərvin nənə, Xəyal isə babadır.

Fazil Sənan qələminin ən gözəl özəlliklərindən biri də ailələrdə olan qarşılıqlı ata, ana və övlad sevgisi zamanı arada olan pərdənin götürülməməsini diqqətdə saxlamasıdır. Axı, bura Avropa deyil.

Bir təsadüf nəticəsində Elxan anası Pərvinin Xəyalla olan sevgi münasibətini bilir. Anasına "Hamısını oxudum. Mənə hər şey indi aydın oldu. Maraqlıdır ki, ərinin ona xəyanət etdiyini bağışlaya bilməyən bir qadın, hansısa başqa bir qadının ərini əlindən alır, ailəsini dağıdır.

...Övladına töhmət gətirən ananın yaşamağındansa yaşamaması daha məsləhətdir" deyən Elxan hirslə qapını çırpır və anasının otağından çıxır. Baxın, burada sevgidən ölümə gedən yolun psixoloji sarsıntılarını yazıçı incəliyinə kimi canlandırır. Oxucu istər-istəməz Pərvinin iztirablarına şərik çıxmaqla yanaşı, bundan sonra nə edəcəyi həyəcanını onunla birgə yaşayır.

Budur, milli mentalitetin qəbul etmədiyi əxlaq norması. Çox fikirləşəndən sonra Pərvin başa düşür ki, bundan sonra bu utancla yaşaya bilməyəcəkdir. Ona zillənən baxışlarda oxunan qınaq və kinayə onu göstərir ki, o, "fahişə"dir.

Pərvin həyatın keçməkeşlərindən, müharibənin od-alovunda sınaqdan keçmiş təmiz və müqəddəs sevgisinin açığa çıxdığında hissiyyatını, qadınlıq qürurunu qorumaq üçün ölümü çıxış yolu kimi seçir. Pərvinlə Xəyalın bu saf sevgisini anlamaq üçün gərək onların yerində olasan. Yalnız onda anlamaq olar ki, bu sevgi ötəri bir hiss deyil. Onları həyata bağlayan yalnız bu sevgi idi. İş işdən keçəndən sonra heç nəyin insana xeyri yoxdu. Necə deyərlər, sonrakı peşmançılıq heç kimə xeyir verməyib. Bəli, bu qınaq onları ölümə apardı. Pərvinin yazdığı "Vida" məktubu oğlunun əlinə keçəndə artıq hər şey gec idi. Oğlunun peşmançılığı heç bir fayda vermir. Amma anasının son arzusunu yerinə yetirir. İki sevəni bir yerdə dəfn etdirir. Pərvinlə Xəyalın bir də onların illər boyu qəlblərində qoruduqları təmiz və saf məhəbbətləri dənizin mavi sularına qərq olur. Onlar birgə əl-ələ verib o biri dünyanı seçirlər. Yaxşı ki, o dünyada bu dünyamız kimi haqsızlıq hökm sürmür. Allah hər şeyi görən və bi-ləndir. Bağışlayan və mehribandır. Cəmiyyətin qəbul edə bilmədiyi "çirkab"ı dənizin təmiz suları yuyur və öz qoynunda bu iki sevəni qovusdurur. Fazil Sənan yaradıcılığı ədəbi mühitdə öz dəsti-xətti ilə seçilir. Əsərlərində insan talelərini tam çılpaqlığı ilə verməsi oxucunu tərbiyələndirməklə yanaşı gözünü açmağa çalışır. Bax, budur onun qələminin böyüklüyü. "Bağışlanmış günah" romanında da yazıçı bir neçə obrazın keçdiyi həyat yolunu paralel verərək oxucunu islah etməyə çalışır. Məsələn, Xədicənin Xəyala olan sevgisi onu ruhlandıraraq elm sahəsində uğurlara gətirib çıxarır. Erməni qızının Xəyala olan duyğuları onun içində olan insani keyfiyyətlərin üzə çıxmasına kömək edir. Bir insan həyatı zülmdən xilas olur. Nadya xalanın Xəyala qarşı olan oğul sevgisi bir köçkün ailəsinə isti yuva bəxş edir. Demək, bu nümunələrdən görürük ki, hər şey sevginin təcəssümüdür.

**Fazil Sənanın bu romanını oxuyub qurtarandan sonra istər-istəməz içimdən belə bir hiss keçdi. Kaş bütün günahları "Bağışlanmış günah" romanındakı kimi bağışlaya biləydik. Onda dünya necə də gözəl olardı.**



*Səxavət Məmməd*

# Turan ordusu, yaxud romantik ideyaların reallıqla TOQQUŞMASI

***Azərbaycan cəmiyyətinin ən böyük problemlərindən biri hissi davranmaq, düşünməkdir. Əslində, bunun günahkarlarından biri də pafos və populizmlə cəmiyyətin beyninə yeridilmiş reallaşması mümkün olmayan ideyalardır. Uzun illərdir ki, Azərbaycan cəmiyyətinin beyninə Turan birliyi, hətta Turan ordusu yeridilir. Qulağa xoş gələn bu ideyanın reallaşması o qədər də asan deyil. Türk Dövlətləri Təşkilatının tez-tez görüşməsi cəmiyyətə elə təqdim edilirdi ki, insanların gözünün qarşısında Çingiz xan, Attila, Əmir Teymur canlanırdı. At, qılınc, vətən, millət, Sakarya. Hətta ortaq türk əlifbası isə bəzilərini başdan çıxarırdı.***

***Turan ordusu ideyasının mümkünsüz olduğunu dilə gətirəndə, bir çoxları buna ağız əyirdi, hətta türk düşməni deyənlər də ortaya çıxmışdı. Gəlin, reallıqlara baxaq: nüvə silahı, atom bombası olmayan bir ordu birliyi təhlükəsizlik çətiri yarada bilər? Qətiyyən! Bundan əlavə, Türk Dövlətləri Təşkilatının üzvü olan Qazaxıstan, Özbəkistan və Qırğızıstan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür, yəni, Rusiyanın çətiri altındadırlar. Türkiyə isə NATO-nun. Türkmənistanla Azərbaycan isə heç bir hərbi təşkilatda təmsil olunmur. Turan ordusunun yaranması üçün hərbi təşkilat üzvləri təşkilatlardan çıxmalı və birlik yaratmalıdırlar. NATO dağılmayana qədər Türkiyə NATO-dan çıxar? İnandırıcı deyil. Hətta NATO dağılsa və Türkiyə seçim qarşısında qalsa, Türk Dövlətləri Təşkilatını seçər, yoxsa Avropa İttifaqının, yaxud ABŞ-nin quracağı bir təşkilatı? Əminliklə deyə bilərəm ki, bu Türk Dövlətləri Təşkilatı olmayacaq. Ən azı nüvə silahı yoxdur***

***Bir neçə ildir belə bir təbliğat aparılır, hətta hər ilin əvvəlində proqnoz edilirdi ki, Türk Dövlətləri Təşkilatı Şimali Kipr Türk Cümhuriyyətini ilin sonunda tanıyacaq. Əvəzində Türk dövlətləri - Özbəkistan, Qazaxıstan və Türkmənistan yunan Kiprində səfirlik açdı. Təbii ki, bu Türkiyədə və Azərbaycanda ciddi müzakirələrə səbəb olub. Prosesin Özbəkistanın Səmərqənd şəhərində keçirilən Avropa İttifaqı-Mərkəzi Asiya sammitindən sonra baş tutması yunan Kipri ilə bağlı qərarın niyə verilməsini ortaya çıxarır. Avropa İttifaqı qlobal aləmdə siyasi baxımdan cılız olsa da, iqtisadi baxımdan çox böyük gücdür. Yunan Kiprini tanıyan ölkələr iqtisadi dividentləri göz önünə alaraq bu addımı atıb desək, yanılmarıq. Sual yaranır: Türkiyə Avropa İttifaqının qoyduğu sərmayəni Mərkəzi Asiyaya qoya bilər? Qətiyyən! Türkiyənin o cür iqtisadi potensialı yoxdur. Bundan əlavə, Mərkəzi Asiya ölkələri Türkiyə ilə yaxınlıqda o qədər də maraqlı deyildilər. Hətta bu mövzunu özbək və qazax jurnalistlərlə müzakirə edən zaman belə bir fikir səsləndirirdilər: ”Bizdə qorxurlar ki, qollarını versələr, boyunları gedər”. Bir şeyi də nəzərə almaq lazımdır ki, nə qədər o ölkələr türk kökənli olsalar da, ən azı son 200 ildir Rusiyanın təsir dairəsindədirlər. Sözügedən ölkələrin rəhbərləri nomenklaturadan çıxıblar. Misal üçün Qazaxıstanda əhalinin say tərkibinə görə ikinci sırada ruslar gəlir.***

***Mərkəzi Asiya ölkələrinin Türk Dövlətləri Təşkilatına baxışı da fərqlidir. Xüsusilə lider baxımından. Ən azından bunu Mərkəzi Asiya ölkələri hiss etdirir. Zamanı gələndə bunun səbəblərini də yazacağam.***

***Türkiyədə bəzi jurnalistlər və ekspertlər Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətini tanımalıdır, niyə tanımır deyə fikirlər səsləndirir. Bunu Azərbaycanda da səsləndirənlər çoxdur. Bir suala cavab tapmaqda fayda var. Qarabağ problemi həll olub? Bəli, Azərbaycan ərazi bütövlüyünü həll edib, sərhədlərinə çıxıb. Ancaq hələ də Ermənistanla sülh müqaviləsi imzalamayıb və Qarabağ problemini qabartmaq istəyən, Qarabağdan köçən ermənilərin geri qaytarılmasını tələb edən qüvvələr var. Hesab edirəm ki, Ermənistanla sülh müqaviləsi imzalamadan Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətini tanıması real görünmür. Xaric siyasətdə suyu üfürə-üfürə içən rəsmi Bakının belə bir risk alacağı inandırıcı deyil.***

***Azərbaycanın əsas strateji hədəflərindən biri Naxçıvanla quru əlaqəni təmin etmək olmalıdır.***

***Türk Dövlətləri Təşkilatına ağır yük yükləmək indiki mərhələdə doğru deyil. Çünki bu təşkilat istənilən halda kənar güclər tərəfindən istənilən anda manipulyasiyaya açıqdır. Rusiyanın tərkibindəki türk xalqlarını, İranda yaşayan türklərin sayını nəzərə alsaq, kənar təzyiqin olacağı açıqdır. Bundan başqa, Çinin Mərkəzi Asiyadakı gücünü nəzərə alsaq, prosesi təxmin etmək o qədər çətin olmaz. Türk Dövlətləri Təşkilatı mədəni, ticari, nəqliyyat baxımından uğurlu ola bilər. Ancaq sözügedən təşkilatın siyasi, hərbi, hətta iqtisadi güc kimi formalaşması üfüqdə görünmür. Çünki Avropa İttifaqı və Çin sərmayəsinə alternativ sərmayə ortaya qoymaq gücü türk dövlətlərinin heç birində yoxdur. Acı da olsa, reallıq bundan ibarətdir.***

# Evtanaziyanı ilk gerçəkləşdirən şeytan: "Ölüm həkimi" Cek Gevorqyan

**Bu gün erməni əsilli həkim , amerikalı Cek Gevorqyan 25 il əvvəlin bu günü ilk dəfə öz xəstəsini evtanaziya edib. Mövzuya girməzdən əvvəl evtanaziya ilə bağlı oxucularımıza məlumat verim ki, bu dəhşətli prosesin nə oldunu təsəvvür etsinlər.**

Deməli, hazırda dünya mediasında hər zaman aktual məsələlərindən biri olaraq daim müzakirələrə rəvac verən evtanaziya sağalmaz xəstəlikdən əziyyət çəkən insanı və ya heyvanı həyatdan məhrum etmək deməkdir. ”Euthanatos” yunan sözü olub, ”xeyirxah ölüm” deməkdir. Mənbələr bildirir ki, Evtanaziya sözü ilk dəfə XVII yüzillikdə F.Beykon tərəfindən işlənib və o, bu sözü ”yüngül ölüm” mənasında işlədib. XIX yüzillikdə isə bu söz ”kimisə mərhəmətdən öldürmə” mənasını daşımağa başlayıb.

## *Qatil xisləti erməni: Çek Gevorqyan əslində kim idi?*

Türkiyədə Ərzurum yaxınlığındakı Basen kəndində doğulan Levon Gevorgyan orada əlini türk və müsəlman qanına batırdığı üçün həbs olunacağından qorxur və ABŞ-ın?Miçiqan ştatının Pontiak şəhərinə qaçır. Burada Koçhisardan köçmüş Satanik ilə ailə qurur. Bu iki erməni o qədər separatis, nifrət dolu olur ki, 1928-ci ilin 26 mayında yeni doğulan körpələrinə də bir terrorçunun adını verirlər: Murad Sebastatsi.

Maraqlansanız ki, Murad Sebastatsi kimdir. Türkiyənin Sivas əyalətində doğulan və uşaqlığından türklərə nifrətlə böyüyən , böyüyən kimi də silaha sarılıb türklərə qarşı döyüşən, bununla da sakitləşməyib. 1918-ci ildə Azərbaycana gələrək Stepan Şaumyanın quldur dəstələrinə daxil olaraq, əvvəl Hnçak partiyasına, sonra Daşnaksütuna qoşulur.

Azərbaycanlıların mart soyqırımında iştirak edir. Elə həmin ildə avqustun 4-ü döyüşlərin birində qətlə yetirilir. Levon və Satanik bəlkə də həmin körpənin gələcəkdə quldur Murad Sebastatsidəndə əclaf və qansız olacaq.

Sonradan adını dəyişərək Çek (Yakob) edən bu qatil erməni insan ölümünə olan marağının arxasınca getdi. 1945-ci ildə 17 yaşında Pontiac Mərkəzi Liseyini fərqlənmə diplomu ilə bitirib. Tibb kollecini bitirən kimi onu öz xahişi ilə meyitxanaya patoloqoanatom kimi işə göndəriblər.

Onun insanın ölüm anından aldığı ləzzət: xəstənin son çırpınışı, gözlərinin işığının sönməsi, simasındakı həyat əlamətinin itməsi bu peşəyə daha çox bağlayırdı. Odur ki, ali təhsil almağı qarşısına məqsəd qoyur və 1952-ci ildə Ann Arborda Miçiqan Tibb Universitetini bitirir. Həkim kimi bütün ömrü boyu kimsəni müalicə etməyən, erməni genetikasının nümayəndəsinin işi yalnız meyitlərlə olur.

Hətta Detroyt xəstəxanalarının birində az müddət çalışsa da, meyitlərdən götürdüyü qanı öz həmkarına köçürdüyünə, onu hepatit ”C”-yə yoluxdurduğuna görə işdən qovurlar.

Elə həmin dövrdə ən dəhşətli praktianın içərisinə o illərdə daxil olur. Beləki, Vyetnam və ABŞ arasındakı müharibəyə (1955-1975) feldşer kimi qatılan bu iyrənc Cek orada da yaralı yardım etmək sağaltmaq əvəsinə yaralı əsgərlərin üzərində insanlığa sığmayan təcrübələr aparır. Təcrübələrində can verən yaralıların qanını və orqanlarını başqa , daha yüngül xəstələrə köçürlüməsi layihəsini Pentaqona təqdim edir , onlardan icazə istəyir. Pentaqon rəsmiləri belə tükürpədici layihəni qəbul etmədikdən sonra Cek ideyalarını yaymağa dəstəkçilər axtarmağa başlayır. Heç bir hospitalda işə götürülməyən Gevorqyan öz işini qurmağa başlayır. Əvvəlcə ”intihar etmək istəyənlərə kömək” mövzusunda bir neçə kitabça nəşr etdirir, yağlı boya ilə mövzusu yalnız ölüm olan rəsmlər çəkir və işə girişir 1980-ci illərdə Gevorgyan Almaniyanın ”Tibb və Hüquq” jurnalı üçün onun evtanaziya etikası haqqında düşüncəsini nümayiş etdirən bir sıra məqalələr yazır. 1987-ci ildə bir Detroit jurnalı Gevorgyan haqqında ölümlə bağlı tibbi məsləhətçi kimi reklam dərc etdi.

## *İnsanlığa qarşı, “İlk” iyrənc əməlin icrası*

Artıq bəzi insanlar onun dünyada ”ilk” olan fəaliyyətinə maraq göstərməyə başlayırdı. Şeytanı öz əməlləri ilə mat qoyan Cek ”arzusunu ” həyata keçirə bilir. Gevorqyan ilk praktikasını 1990-cı ilin 16 aprelində ?Miçiqan ştatında Alzheimer xəstəliyi diaqnozu qoyulmuş Canet Adkinsin üzərində aparıb.

Beləki, Gevorqyanın işi xəstəni özünün hazırladığı və qurduğu Evtanaziya cihazına bağlamaqdan ibarət idi. Fərd bir düyməyə basar, bundan sonra dərman və ya kimyəvi maddə bədənə axaraq həyatına son qoyur. İlk ölüm - evtanaziya inyeksiya edilməsi ilə həyata keçirilir. Gevorqyan cihazı ”tanatron” (yunan dilindən thanatos - ölüm) adlandırdı. Digər evtanaziya üsulu isə dəm qazı qutusu ilə işləyən qaz maskasından istifadə idi. Gevorqyan bunu da”mercitron” (”mərhəmət maşını”) adlandırırdı. İnsandakı İnsan ölümünə olan sevgiyə- marağa- həvəsə baxın!

Özünün evi və yaxud ofisi olmadığı üçün əməliyyatların bir çoxunu ”Volksfagen” yük maşınında həyata keçirən ölüm həkimi həm də cəsədləri parklar və tərk edilmiş binalarda qoyub gedirmiş. Öldürdüyü insanların iç orqanlarını elə onlar can verən ərəfədə kəsib , digər xəstələrə təklif edirmiş. Bir daha erməni xisləti!

ABŞ-ın 50 ştatından heç birində həkimlərə belə səlahiyyət verə biləcək qanun olmadığı üçün bəzi ştatlarda bu cür ölüm qəsdən adamöldürməyə bərabər hesab edildiyi üçün o dövrdə bu böyük səs-küyə səbəb olur və onun haqqında dərhal istintaq araşdırması aparılır.

Eyni zamanda ?1991- ci ildə Miçiqan hakimiyyəti Gevorgyanın tibbi lisenziyasını ləğv edir.

Gevorqyan 1994-cü ilin mayından 1997-ci ilin?iyununa qədər intihara köməklik etməkdə ittiham olunaraq dörd dəfə məhkum edilir . O, vəkili Cefri Ficerin köməyi ilə o, üç məhkəmə prosesində bəraət qazanır. Dördüncü məhkəmə dəqiq qərarla başa çatır . O azadlığa çıxa bilmir. Həmin dövrdə səsli-küylü məhkəmələr sayəsində Gevorgyan həm də tanınır və ictimai dəstək qazanır.?Baxmayaraq ki, vəkili Ficerin istintaqa bildirdiyinə görə, Gevorgyanın 1990-1998- ci illərdə 130 ölümcül xəstənin ölümündə əli olub. Amma insanlar onunla maraqlanmaqda dəstək verməkdə israrlı görünürdülər.

Nəhayət ki, 1999-cu ildə ABŞ məhkəməsi onu 10 ildən 25 ilə qədər həbs cəzasına məhkum edir və yəqin ki, erməni lobbisinin köməkliyi sayəsində 2007-ci ildə azadlığa çıxır. Cəmi 8 il içəridə yatır.

Detroit Free Press-in həmin vaxt məlumatına verirdi ki, Gevorqyanın köməyi ilə intihar edən xəstələrin 60%-i ölümcül xəstə olmayıb, 13-ü isə hətta ağrıdan şikayət etməyib. Məqalə sonradan təsdiqlənirdi ki, Gevorqyanın verdiyi konsultasiya çox qısa olub, 19 nəfərlə bağlı isə hətta psixiatrik müayinə belə aparılmayıb.

Məqalədə Gevorqyanın ilk xəstəsi Janet Adkinsin evtanaziyadan belə xəbəri olmadığı bildirilir. Gevorqyan bunu




yalnız əri ilə məsləhətləşdikdən sonra həyata keçirib və Gevorgyan ölümündən cəmi iki gün əvvəl Adkinslə görüşüb və ölmək istəyib-istəmədiyini anlamağa belə cəhd etməyib.

İstintaq materialları xəstələrdən 5-nin ümumiyyətlə xəstə olmadığını göstərdi. Mütəxəssislərin fikrincə, onlar yəqin ki, melanxolik haldan və ya depressiyadan əziyyət çəkiblər.

2007-ci ildə həbsxanadan çıxan qatilin qarşısına şərt qoyulur ki, bir daha bu işlə məşğul olmasın. Ölüm həkimi fəaliyyətini dəyişmək məcburiyyətində qalaraq Florida , Cənub-Şərqi Nova və Kaliforniya universitetlərində mühazirələr oxuyub . Evtanaziya ilə yanaşı o, tiraniya, cinayət ədliyyə sistemi və siyasət haqqında da mühazirələr oxuyub. Rejissor Barri Levinson Gevorqyan haqqında film çəkib. Bu, ”Sən Ceki tanımırsan” adlanır. Filmin rremyerası 24 aprel?2010-cu ildə baş tutur . Gevorqyan caz musiqiçisi və bəstəkar idi. ”A Very Dead Life” 1997-ci ildə 5000 nüsxə ilə məhdud tirajla buraxılmış CD- dir və ”Lucid Subjazz”ın nümunəsi idi. Burada Gevorqyan fleyta və orqan çalır. Entertainment Weekly jurnalı bunu ”qəribə” lakin yaxşı adlandırdı.

1997-ci ildə 1400 nüsxə satıldı . O, həm də yağlı boya ilə də işləyirdi, xeyli rəssamlıq əsərləri yaratmışdı.

Bəzən öz qanından istifadə edərək rəsm çəkirdi (Çürük bədənləri yeyən uşaq) . Burada erməni mövzulu rəsmləri də var. Onun rəsmləri Amerika Erməni Muzeyində saxlanılır.

Ümumiyyətlə, Gevorqyanın bütün məqalələri də, rəsmləri də tamamilə ölümə həsr olunub.

2011-ci ilin 3 iyununda xərçəng xəstəliyindən ölən Gevorqyan Whitechapel Memorial Park qəbiristanlığında dəfn edilib. Sadə başdaşına isə ”Hər kəsin haqqı üçün özünü qurban verdi” yazılıb. Heç vaxt evlənməyən Gevorkyanın övladları da olmayıb. Amma hazırda bəşəriyyət onun irsini yaşadır, dünyanın 30-dan çox ölkəsində Evtanaziya leqallaşıb.

***P.S. Bütün ermənilər həmişə, hər zaman bəşəriyyətin əleyhinə vuruşublar. O üzdən ermənininin ermənidən fərqi yoxdu. Hamısı birə-bir eyni xislətdə və xarakterdədirlər!***

**Əntiqə Rəşid**

# "Cəhənnəmlər arasında" – bir layihənin izi ilə

**Bu günlərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin təşkilatçılığı ilə Gəncə şəhərində Qeyri hökumət təşkilatları üçün qrant müsabiqəsinin qalib layihələrindən biri hesab edilən "Region gənclərinin kinematoqrafiya akademiyası" adlı bir projenin həyata keçirildiyi haqda məlumat aldım. Məqsəd kinematoqrafiya sahəsinə marağı olan region gənclərinin yaradıcılıq potensialını üzə çıxarmaq və onların peşəkar səviyyədə təcrübələrini artırmaqdan ibarətdir.**

Qeyd etməliyəm ki, layihə çərçivəsində təlimçi, kinorejissor Rəhman Fürqətoğlu gənclərlə "ssenaristlik", "rejissorluq", "aktyorluq" ixtisasları istiqamətlərinin inkişaf etdirilməsi məqsədilə hər biri üzrə iki gün ərzində öz peşəkar bilik və təcrübəsini bölüşüb. Bu təlim günlərində iştirakçılarla qısametrajlı filmin çəkilişi üçün vahid bir ssenari üzərində işlənilib, rejissor quruluşu edilib, həmçinin ilkin aktyor məşqləri həyata keçirilib.

Layihə çərçivəsində təqdim olunan bir ssenari mənim də diqqətimi cəlb etdi. Əslində gənc yazar Vaqif Əmiraslanın qələmə aldığı "Cəhənnəmlər arasında" qısametrajlı film ssenarisi ilk baxışda oxunuş zamanı bəsit, məna və məqsəd aydınlığı tam geniş olmasa da maraqla oxundu. Qeyd etməliyəm ki, qeyri-peşəkar və bu istiqamətdə ilk qələm məhsulu olan yazar Vaqif Əmiraslanın fikir zənginliyi qısametrajlı film ssenari layihəsi üçün həm də uğurlu addım kimi dəyərləndirilə bilər.



İlk səhnə olaraq müəllif tərəfindən əlil arabasında oturmağa məhkum olunan Cahidin həyatı və onun sıxıntıları buna baxmayaraq tək başına həyatla mübarizə əzmi geniş formada təsvir edilib. Bunu ilk səhnədən olaraq onun anası ilə olan telefon danışığında belə dərin hisslərlə duymaq mümkündür.

Müəllifin ilk səhnə ilə bağlı təsvir etdiyi Cahidin həyatını və sıxıntılarını dərin hisslərlə təqdim etməsi əsərin başlanğıcında oxucunun diqqətini daha çox cəlb edir. Cahid, əlil arabasında oturmağa məhkum olmuş bir gəncdir və bu vəziyyət onun həyatını həm fiziki, həm də psixoloji baxımdan çox ağırlaşdırır. Lakin müəllif Vaqif Əmiraslan bu sıxıntıları yalnız bir cismi məhdudiyyət kimi deyil, eyni zamanda ruhsal bir mübarizə kimi təsvir edir. Cahidin əlil arabası onun daxili azadlığını, həyatda qalma gücünü və mübarizə əzmini simvollaşdırır.

Telefon danışığı, bu başlanğıcda xüsusilə mühüm bir rola malikdir. Cahidin anası ilə danışığı, həm də onun bu həyat mübarizəsində tək qalmasından qaynaqlanan yalnızlıq və sevgisizlik hisslərini aşkar edir. Anası ilə olan söhbətində onun səsləndirdiyi emosiyalar, həm qarşılıqlı qayğı, həm də dərin narahatlıq hissi ilə doludur. Bu danışıqda, Cahidin anasına "güclü olmağa" və onun üçün mübarizə etməyə qərarlı olduğunu anlamaq olur. Lakin bir tərəfdən də, bu qərarlılıq onun həm öz daxili gücünü, həm də həqiqətən nə qədər dəstəksiz olduğunu bariz şəkildə göstərir.

Telefon danışığında Cahidin anasına verdiyi reaksiyalar, onun içindəki dərin kədər, çaşqınlıq və tənhalıq hisslərini əks etdirir. Anası ona qoruyucu və qayğıkeş bir şəkildə "yaxşı olacağına" dair inamını bildirir, lakin Cahid artıq həyatın qəddar reallıqları ilə üzləşmiş və bu "yaxşı olacağına" dair vədlərə təkcə etibar etməkdə çətinlik çəkir. Onun anasına verdiyi cavablarda, hər kəlmədə həyatla mübarizə aparan bir insanın ruhu və əzmi hiss olunur.

Cahidin əlilliyi onu yalnız fiziki olaraq məhdudlaşdırmır, eyni zamanda onun daxili dünyasında da bir çox narahatlıq və psixoloji sıxıntılar yaradır. O, bəzən anasına özünü daha çox zəif və köməksiz hiss etdiyini bildirir. Bu, onun tənhalıq hissini və nə qədər çox tək olduğunun göstəricisidir. Lakin eyni zamanda, Cahidin gücünü və mübarizəsini göstərən də məhz bu səhnədə, onun həyatla mübarizə etmək üçün göstərdiyi əzmdir. Telefon danışığının dərin emosional yükü, Cahidin həyatda qalmaq üçün verdiyi mübarizəni və öz daxili gücünü tapmaq əzmini tam şəkildə əks etdirir. O, tək əlilliklə deyil, həm də bu həyat mübarizəsinin öz daxili qapalı dünyasında gəzdirdiyi ağır düşüncələrlə qarşı-qarşıyadır. Amma buna baxmayaraq, hər an yaşamağı həyat çətinliklərinə qarşı mübarizəni davam etdirməkdə qərarlıdır. Bu, onun tərəfindən həyatına qarşı nə qədər mübariz və əzmkar bir yanaşma nümayiş etdirdiyinin göstəricisi olaraq daha maraqla qarşılanmaqdadır. Bununla da müəllif Vaqif Əmiraslanın təqdim etdiyi bu dərin emosional portret, oxucunu Cahidin həyatındakı güclü daxili mübarizəyə və onun əzminə şahid edir. Bu səhnə ilə müəllif yalnız bir insanın fiziki məhdudiyyətlərini deyil, həm də insan ruhunun möhkəmliyini və həyatda qalmaq uğrunda göstərilən əzmi dərindən təhlil etmiş olur.

Sonrakı davamlı hadisələrin cərəyan etdiyi səhnələrdə Cahidin bibisi oğlu olan Dövranın köməyindən yararlanmaqla mübarizə əzminin nə qədər güclü olduğunun bir daha şahidi oluruq. Müəllif yanaşmasına görə onun bibisi oğlu Dövranın köməyindən yararlanmaqla mübarizə əzmini artırması, bir çox aspektlərdən əhəmiyyətlidir. Bu cür münasibətlər və kömək, bir insanın daxili gücünü, məqsədinə çatmaq üçün motivasiyasını artıran mühüm amillərdən biri hesab edilə bilər. Müəllif Vaqif Əmiraslan həmçinin burada bir neçə aspektdən yanaşmaqla ailə dəstəyi və inkişaf, köməyin psixoloji təsiri, güvən və inanc, bərabər mübarizə, əzimkarlığın təsiri, ətraf mühit və sosial dəstək kimi motivasiyaların insan həyatının formalşması baxımından



mühüm əhəmiyyət kəsb etdiyini önə çıxara bilmişdir.

Müəllif yanaşmasına görə ailə üzvləri arasında qarşılıqlı dəstək, insanın ruh halını yaxşılaşdırmaq və onun öz gücünə inanmasını təmin etmək üçün vacibdir. Belə bir dəstək, yalnız fiziki deyil, həm də emosional və psixoloji cəhətdən ona kömək edir. Hadisələrin cərəyanında məhz Dövranın köməyindən yararlanmaq, ona yalnız konkret tapşırıqlarda və ya çətin vəziyyətlərdə kömək etməkdən ibarət deyil, həm də mübarizə aparmaq üçün daha çox həvəs verir. Bu, onun psixologiyasını gücləndirir və ona öz məqsədinə çatmaq üçün daha çox əzmkarlıq və səbirlilik aşılayır. Hadisələrin gedişatı məhz birinin yanında olmaqla insanın motivasiyasını və mübarizə əzmini artıran vacib amil olaraq təqdim edilməsində maraqla qarşılanır. Həmçinin bununla da müəllif ailənin və yaxınların dəstəyi, insanın öz gücünə və bacarığına inamının artırılması istiqamətində mühüm əhəmiyyət daşıdığını diqqətə çəkir.

Dövranın bibisi oğlu Cahidə verdiyi kömək, ona həmçinin öz potensialını tam olaraq dərk etməyə imkan yaradır. Güvənli bir mühitdə insan öz məqsədini reallaşdırmağa daha həvəsli olur və qarşısına çıxan maneələri aşmaq üçün daha böyük əzmlə çalışır. Dövranın yanında olması, ona yalnız çətin anlarda deyil, hər zaman güvən verərək motivasiya qaynağı kimi də təqdim edilə bilir. Müəllif həm də bununla bir daha qeyd etmək istəyir ki, birgə mübarizə, həm fiziki, həm də mənəvi olaraq insanları daha dayanıqlı edir.

Bu cür münasibətlər, bir insanın daha yüksək səviyyəyə çıxmasına və həyatın gətirdiyi çətinliklərlə mübarizə aparmasına yaxından kömək etmiş olur. Həmçinin bu kimi yanaşma bir daha yalnız fiziki mübarizə sahələrində deyil, həm də gündəlik həyatın çətinliklərində özünü göstərmiş olur. Bu baxımdan hadisələrin cərəyanı bir daha uzunmüddətli dözümlülük və əzmkarlığın ətraf mühit və sosial dəstək baxımından nə qədər əhəmiyyətli olduğunu ön planda göstərməyə müvəffəq ola bilir.

Qısa metrajlı film ssenarisində müəllif tərəfindən təqdim olunan Dövran obrazı əslində mənfi bir xarakter olaraq təqdim edilir, çünki o, ətrafındakı insanları manipulyasiya edir və onlardan istifadə edir. Bu obraz, Cahidə qarşı mənfi davranışları ilə daha çox diqqəti çəkir. Dövranın məqsədi, öz maraqlarını təmin etməkdir və bunun üçün o, Cahidin əlil arabasında fiziki məhdudiyyətli olmasından məharətlə istifadə edir. Cahidə bir fərd olaraq yanaşma, onun istismar edilməsinə yönəldilən münasibətlər cərəyan edən hadisələr boyunca inkişaf etməklə daha dərin köklərdə göstərilməkdədir.

Maraqla qarşılanan səhnələrdən biri də təqdim olunan Park səhnəsidir. Belə ki, müəllif şəhərin alatoranlığının yenicə açılan xoş havasını quşların səsləri eşidilən park mənzərəsi fonunda Cahid və Dövranın gəlişi ilə təsvir edir. Burada yaxınlıqdakı oturacaqlardan birində əyləşən görmə məhdudiyyətli qız olan Nigarın gitara çalıb həzin musiqi ifa etməsi təqdim olunur. Müəllif bir daha fiziki məhdudiyyətli insanların xüsusi bir istedada malik olaraq inkişaf etmələrini ön plana çəkməklə onların həyat tərzlərinin cəmiyyət içərisində formalaşmasının mühüm maraqlı cəhətlərini göstərə bilir. Bununla da bu qəbildən olan insanların cəmiyyətə inteqrasiyasını, onların potensialının tanınmasını və mövcud imkanlardan daha yaxşı istifadə etmələrini vurğulamaq məqsədi əsas olaraq təqdim edilir. Həmçinin müəllif bu kimi yanaşma formasında fiziki məhdudiyyətli insanların yalnız məhdudiyyətləri ilə deyil, eyni zamanda xüsusi istedadları, bacarıqları və onların həyatda qarşılaşa biləcəkləri çətinliklərə göstərdikləri mübarizə ilə də önə çıxması, cəmiyyətdə inkişaf etmə baxımından mühüm əhəmiyyət daşıdığını vurğulamaqla mübarizə əzminin nə qədər yüksək olduğunu bir daha göstərmiş olur. Bununla da müəllif Vaqif Əmiraslan "Cəhənnəmlər arasında" çırpınan fiziki məhdudiyyətli insanların bəzən cəmiyyətin müəyyən stereotiplərinə görə, yalnız məhdudiyyətləri ilə xarakterizə edilirməsini tənqid hədəfinə almaqla onların xüsusi bir istedada malik olduğunu önə çəkərək, yalnız fiziki məhdudiyyətlərinə görə deyil, həm də bacarıqlarına, qabiliyyətlərinə diqqəti cəlb etməklə yaradıcı, intellektual və ya digər sahələrdəki potensiallarının məhdudlaşdırılmamasını göstərməyə müvəffəq ola bilmişdir. Həmçinin qeyd etməliyəm ki, qələmə alınan qısametrajlı film üçün nəzərdə tutulan bu ssenaridə müəllif fiziki məhdudiyyətli insanların xüsusi istedadlarının inkişaf etdirilməsi həm də cəmiyyətə müsbət təsir göstərməsi baxımından onlara daha çox imkanlar və təhsil resursları təqdim etməklə cəmiyyətin daha inklüziv (fərdin özünü sağlam mühitdə tapması və potensialının cəmiyyət tərəfindən tanınma və cəmiyyətdə sosial əlaqələrin qurulması) və empatik (başqalarının göstərdiyi davranışları qiymətləndirərkən hadisələrə onların baxış bucağından baxa bilmək qabiliyyəti) olmasına kömək edir.

**Nəticə etibarı ilə iki gün davam edən "Region gənclərinin kinematoqrafiya akademiyası" adlı bir layihənin həyata keçirildiyi bir məkanda "Cəhənnəmlər arasında" qısametrajlı film ssenarisinin maraqla qarşılanaraq yeni gənc kadr potensialının inkişafı üçün uğurlu olacağına əminəm.**

***Anar Ərtoğrul Burcəliyev***
***Teatrşünas-tənqidçi***

## *Bir gün dərin yuxu yaddaşı 15 ay yaxşılaşdırır*

**Alimlər kəşf ediblər ki, sağlam yuxu gecəsi yaddaşı 15 ay öncəyə yaxşılaşdırır.**

Dərin yuxu hadisələrin ardıcıllığı ilə bağlı xatirələri sıralayır.

Baycrest Tibb Mərkəzinin kanadalı alimləri müəyyən ediblər ki, yalnız bir gecə keyfiyyətli yuxu bir sıra hadisələr üçün yaddaşı əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər və bu təsir bir ildən çox davam edir. Komanda qeyri-adi eksperiment hazırlayıb ki, burada iştirakçılar incəsənət sərgisinə 20 dəqiqəlik audio tur keçiblər və daha sonra tədbirdən sonra bir saat sınaqdan keçiriliblər.

İkinci mərhələdə könüllülər yuxu qrupuna (EEQ monitorinqi ilə laboratoriyada gecə) və oyaqlıq qrupuna bölünüblər. 1-2 gecə yaxşı yatanlar bir il üç aydan sonra da hadisələrin ardıcıllığını daha yaxşı xatırlayırdılar.

"Yuxunun faydaları çox böyükdür - yalnız bir gecə yaddaşı bir il üçün dəyişdirir".

Kəşf dərin yuxunun yaddaşdakı hadisələr arasında əlaqəni gücləndirdiyini təsdiqləyir.

O, həmçinin demanslı insanların təfərrüatları yadda saxlasalar belə, xatirələrinin xronologiyasını niyə itirdiklərini izah edir.

## *Dünya ölkələri Mamont epidemiyasına hazırlaşır*

**15 ölkə ölümcül "Mamont" epidemiyasına hazırlaşır.**

"The Daily Telegraph" xəbər verir ki, Ümumdünya Səhiyyə Təşkilatı qədim "mamont" virusunun nəzəri cəhətdən mümkün pandemiyasına həsr olunmuş təlimlər keçirib. Təlimlərdə 15 ölkə iştirak edib. Rəvayətə görə, alimlər Arktikada mamont qalıqlarını aşkar etdikdən sonra bəşəriyyət ölümcül virusla təhdid edilir. Mütəxəssislər müxtəlif ölkələrə səyahət edərkən oxşar simptomlar inkişaf etdirdilər. Bütün ölkələrin ÜST testindən uğurla keçdiyi bildirilir, lakin belə bir ssenari həqiqətən də reallığa çevrilə bilər. Elmi araşdırmalar göstərib ki, qədim viruslar min illərlə əbədi donmuş ərazilərdə yaşayır.

## *Gecə tərləməsi hansı xəstəlikdən xəbər verir?*

**Gecə yuxu zamanı həddindən artıq tərləmə yalnız isti hava ilə deyil, həm də bəzi ciddi sağlamlıq problemlərindən qaynaqlana bilər.**

Hormonal pozğunluqlar, xüsusən də qalxanabənzər vəzinin həddindən artıq aktiv olduğu hipertiroidizm gecə tərləmələrinin əsas səbəblərindəndir. Bundan əlavə, menopoz zamanı qadınlarda estrogen səviyyəsinin azalması da tez-tez tərləməyə səbəb ola bilər. Yoluxucu xəstəliklər, xüsusən də vərəm gecə tərləməsi ilə özünü göstərə bilər. Lenfoma və leykemiya kimi bəzi xərçəng növləri də gecələr həddindən artıq tərləmənin əlamətləri arasında sayılır. Bundan əlavə, yuxu apnesi, reflü, narahatlıq və bəzi antidepresanlar da gecə tərləmələrinə səbəb ola bilər.

Davamlı hala gələn və digər simptomlarla birlikdə baş verən gecə tərləmələri halında, əsas səbəbi müəyyən etmək üçün həkimə müraciət etmək tövsiyə olunur.



**VAQİF YUSİFLİ**
**filologiya elmlər doktoru**

# Yada düşür xatirələr

**On beş ildir ki, ədəbi-bədii, nostalji jurnal kimi oxucuların ixtiyarına verilən, onların sevə-sevə mütaliə etdikləri bir dərgi dayanmadan, yorulmadan fəaliyyətini davam etdirir. Son iyirmi ildə müxtəlif adda neçə belə jurnal işıq üzü görüb, amma əksəriyyəti mənzili başa vurmamış yarı yolda "ağ bayraq" qaldırıblar, ya maliyyə imkanları tükənib, ya yaradıcılıq səyləri, enerjiləri, ya da lap əvvəldən gözə görünməz eşqinə bir-iki nömrəsi nəşr olunub, bir sözlə, oxucunun hər ay ya hər fəsil intizarla gözlədiyi jurnalların sayı o qədər də çox deyil. "Yada düşdü" jurnalı isə on beş ildir nəşr olunur və bu müddət ərzində 51 dəfə oxucuların zövqünü, bədii-estetik tələbatını ödəməyə çalışıb. Bu jurnalın ən sadiq oxucularından biri kimi qətiyyətlə deyə bilərəm ki, "Yada düşdü" bu gün Azərbaycanda ən çox sevilən, hər nömrəsinin çapı intizarla gözlənilən dərgilərdən biridir.**

İndiki dövrdə rəngli, şəkilli, yüksək çap formatı ilə jurnal nəşr etmək çətindir, bunun üçün təkcə maliyyə vəsaitini lazımdır? Yox, ən başlıcası, o jurnalı təsis edən şəxsin məramı gərək aydın olsun, bilsin ki, onun istəyi geniş oxucu auditoriyasının istəyi ilə necə uyğunlaşır.

"Yada düşdü"nün təsisçisi Nəzakət Məmmədovadır: şair, publisist. Doğrusu, ilk nömrəsi işıq üzü görəndə təəccüblənənlər çox oldu. Adətən, bu tipli jurnalları kişilər nəşr edir. Təsisçi onlar olur. Amma gəlin, söhbəti bu dairədən uzaqlaşdıraq. Nəzakət xanımın ədəbi vətənpərvərliyi, yüksək ziyalı mədəniyyəti "Yada düşdü"nü yaşadan amillərdən biridir. Qocaman yazıçı-publisist Nahid Hacızadə,itedadlı yazarlar Zülfüqar Şahsevənli və Zöhrə Fərəcovanın əməkdaş olduqları "Yada düşdü" təkcə göz oxşayan tərtibatına görə deyil, həm də, ən başlıcası, dərc edilən materialların səviyyəli olmasına görə də seçilir.

Azərbaycan ədəbiyyatının ən çox oxunan janrlarından biri xatirə-memuar yazılardır. Xüsusi tədqiqat obyekti ola biləcək bu tipli ədəbi-bədii nümunələrin yaranma tarixi o qədər də qədim deyil, əsasən XX əsrin əvvəllərindən başlayaraq memuar səciyyəli əsərlər yaranır. Cəlil Məmmədquluzadənin, Abdulla Şaiqin, Yusif Vəzirin, M.S.Ordubadinin, Ömər Faiq Nemanzadənin, sovet dövründə isə İlyas Əfəndiyevin, Manaf Süleymanovun, Qılman İlkinin, Hüseyn Abbaszadənin, Anarın, Elçinin, Sabir Rüstəmxanlının, Sabir Azərinin və bnın xatirə yazıları ilə başlayan memuar ədəbiyyatı yeni nümunələrlə zənginləşdi. Xatirə romanlar, povestlər, publisistik əsərlər meydana gəldi. Təkcə elə Səməd Vurğun və onun ömür yolu haqqında neçə yazının adını çəkmək olar. İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" romanı isə bu tipli əsərlər üçün bir növ, ədəbi nümunə oldu. Çünki memuar ədəbiyyatını sırf avtobioqrafik - tərcümeyi-hal xarakterli əsərlər kimi dərk edənlər az deyildi, hətta yazıçıların, ədiblərin bir çoxu məhz öz tərcümeyi- hallarını qələmə almaqla guya "xatirə" ədəbiyyatı yaradırdılar. Ancaq son iyirmi-otuz ildə bu janrın dəqiq sərhədləri müəyyənləşmişdir. Elə "Yada düşdü" jurnalında çap olunan müxtəlif səpkili yazılarda bunu müşahidə etmək olar.

Qeyd edək ki, "Yada düşdü" Azərbaycan mətbuatı tarixində xatirə ədəbiyyatı nümunələrini çap edən ilk və hələlik yeganə jurnaldır.

Xatirə ədəbiyyatı ədəbi şəxsiyyətlər, onların həyat və yaradıcılıq yolunu əks etdirir. Biz yazıçıların əsərlərini sevə-sevə oxuyur, illər boyu bu əsərlərin təsiri ilə yaşayır və onları təbliğ edirik. Ancaq həmin əsərləri qələmə alan yazıçıların şəxsiyyəti, onların ömür yolu haqqında demək olar ki, qısa tərcümeyi-haldan başqa heç nə bilmirik. Amma xatirə ədəbiyyatı (istər bunu müəllifin özü yazsın, istərsə də başqası onun haqqında) yazıçı şəxsiyyəti haqqında tam və dolğun təsəvvür yaratmağa kömək edir.

"Yada düşdü" jurnalını vərəqləyək. Bu jurnalda ən fəal müəlliflərdən biri görkəmli yazıçı-publisist, uzun müddət Azərbaycan Radio və Televiziya şirkətində məsul vəzifələrdə çalışmış mərhum Nahid Hacızadə idi. Onun müasiri olduğu ustad sənətkarlarla yaradıcılıq ünsiyyəti sonralar canlı xatirələrə çevrildi. Xalq yazıçısı İlyas Əfəndiyevə həsr edilmiş "Yazıçıya yazmaq qalacaq" yazısı müasir xatirə ədəbiyyatının ən dolğun nümunələrindən biridir. Bu yazıda böyük yazıçının insani keyfiyyətləri ön plandadır: "İlyas Əfəndiyev xalq ürəyindən qopan sənətkar idi. Onun yaradıcılığı bütünlükdə İnsana, onun ucalığına oxunmuş himndir - sevgi dolu enməz və sönməz bir himn!"

Nahid Hacızadə artıq bu janrda xeyli nümunələr ortaya qoyub və "Yada düşdü"nün demək olar ki, hər nömrəsində onun görkəmli sənətkarların ədəbi portretini, şəxsiyyətini açıqlayan çox maraqlı yazıları ilə qarşılaşırıq. Xalq yazıçısı Süleyman Rəhimova həsr olunan "O illərin işığı" yazısı kiçik bir xatirə kitabı təsiri bağışladı. Süleyman Rəhimov bu yazıda ŞƏXSİYYƏT kimi obrazlaşdırılır. Yaxud Mir Cəlal Paşayevin qələmə aldığı çox səmimi bir yazısı Mir Cəlal müəllim haqqında onun bir insan və şəxsiyyət kimi özünəməxsusluğu barədə çox yazılar oxumuşam, amma Nahid müəllimin yazısı daha çox xoşuma gəldi.

"Yada düşdü"də çox belə yazının adını çəkə bilərəm: ilk növbədə tanınmış yazıçı-publisist Elmira Axundovanın ulu öndərimiz Heydər Əliyevə həsr olunan silsilə yazılarını xatırlaya bilərəm. Etiraf edək ki, ulu öndər haqqında qələmə alınan bir sıra yazılardan fərqli bir yazıdır Elmira xanımın xatirələri. Burada Heydər Əliyevlə bilavasitə ünsiyyətdə olan görkəmli şəxsiyyətlərin fikir və mülahizələri mühüm yer tutur.

Jurnalın ötən saylarında Teymur Əhmədovun Mirzə İbrahimovla bağlı yazıları, Qərib Mehdinin "Fikri qocalmamışdı" (Gəray Fəzli haqqında), "Dərdin təqib etdiyi şair"! (H.Arif haqqında), Cabir Arazlı Özgünün "Bizdən sa- lam olsun Musa Yaquba" (məktub- poema), Maarifə Hacıyevanın "Əhməd Elbrusu xatırladım", Barat Vüsalın Xəlil Rzaya həsr olunan "Prometeyin qayıtması, yaxud Od, İldırım ömrü" yazıları dərhal öz oxucusunu tapdı. Səmimiyyətdən yoğrulan bu yazılarda məhz Şəxsiyyətlər tanıdılır. Mərhum yazıçımız Cəmil Əlibəyovun Azərbaycan radiosunun 85 illiyinə həsr etdiyi yazını həyəcansız oxumaq mümkünmü?

Əlbəttə, mənim məqsədim heç də o demək deyil ki, "Yada düşdü" jurnalında dərc edilən yazıların icmalını verəm, bu yazıları mövzular üzrə qruplaşdıram. Yoxl Sadəcə olaraq belə bir jurnalın artıq oxucular arasında rəğbət doğurduğunu, sevdiyini xatırladım. Amma "Yada düşdü" təkcə xatirə ədəbiyyatı çap edən bir jurnal deyil. "Yada düşdü"də həm də ikinci bir qat diqqəti cəlb edir: burada müasir yazarlarımızın hekayələri, şeirləri, səyahəd qeydləri də öz əksini tapər. Ötən illərin ən gözəl şeirləri də jurnala bir nostalji ruhu aşılayır.

Jurnalın daimi müəllifləri var: Qəzənfər Paşayev, Salatın Əhmədli, Əbülfət Mədətoğlu, Qədir Tərtərli, Şəfəq Nasir, Əlövsət Bəşirli, Böyükxan Bağırlı, Maarifə Hacıyeva, Şəmistan Nəzirli Və əlbəttə, bu gözəl dərgiyə məftunluğum məni də onun daimi müəlliflərindən birinə çevirdi. Mən ədəbi şəxsiyyətlər haqqında silsilə yazılarımı "Yada düşdü"də görür və sevinirəm.

Öncə söylədim ki, "Yada düşdü" ədəbi-bədii, nostalji jurnalın hər bir sayı oxucular üçün maraq doğurur. Jurnalın təkcə rəngarəng fotoları deyil, orada gedən bədii, publisistik və elmi yazıların səviyyəsi diqqəti cəlb edir. Mən jurnalın iki sayı haqqında bir qədər ətraflı söz açmaq istəyirəm. 2022-ci ilin 3-cü sayı bütünlüklə ədəbi gəncliyin axtarışlarına həsr olunub. Jurnalın təsisçisi - baş redaktoru Nəzakət Məmmədli baş məqalədə ("Gənclər potensial gücdür") yazır: "Tam səmimi etiraf etməliyik ki, artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Biz də "Yada düşdü" jurnalı vasitəsilə gənclərə meydan verir, onların real gücə çevrilmələrinə şərait yaradırıq". Və "Yada düşdü" jurnalının hər bir sayında gənc ədəbi qüvvələrə meydan verildiyinin şahidi oluruq.

Jurnalın bu sayında son 20 ildə ədəbiyyata gələn cavanların şeir və hekayələri təqdim olunur. Qeyd edim ki, son ədəbi gənclik öz səs və nəfəsiylə, üslub şaxəliliyi ilə yaddaşa köçmək iqtidarındadırlar. Onların yazılarında müxtəlif "izimlərin", ədəbi cərəyanların təsirini hiss edirsən.

Vətən müharibəsi qazisi Həsən Kürün şeirləri bir gəncin (əslində, müharibədə döyüşən əksər gənclərin) daxili, mənəvi-ruhi düşüncələrini əks etdirir. Xüsusilə, onun cəbhə xatirələri, bu xatirələrin doğurduğu inam, kövrək hisslər təbiidir.

Şəhriyar Del Gerani "Unudulmağın şeirini" yazır, xatırlanmağını da, təəssüfünü də şeirin özəyinə çevirir. O da mənim həmişə diqqət mərkəzim olan cavan şairlərdən biri - Ramil Əhməd, daha sonra Ruslan Dostəli, Ümid Nəccari, İntiqam Yaşar, Şahanə Müşfiq, Nigar Arif müasir şeir mədəniyyətinə yiyələnirlər. Təvəkkül Boysunarın, Orxan Həsəninin, Səma Muğannanın hekayələri də onların gələcəyinə (daha gözəl əsərlər yazmağına) ümid yaradır.

Jurnalın 2024-cü il 2-ci sayında üz qabığında dahi Füzulinin əksi canlanır. Amma bu sayda jurnalınbundan əvvəlki bütün sayları üçün səciyyəvi olan mövzularda yazılar təqdim edilib. Daha çox unudulmayan söz adamlarının - sənətkarların xatirəsi yad olunur. Baxın: Lütfiyyə Əsgərzadə - "Heydər Əliyev və Hüseyn Cavid", Dilarə Adilgül - "Şəxsiyyət yazıçı", Barat Vüsal - "Unudulmaz sağlıq" - bu yazılar sanki vəfat edən insanlardan deyil, canlı, yaşayan insanlardan söz açır. Və "Yada düşdü"nün bu sayında Qulu Ağsəsin, Təranə Turanın, Nazim Əhmədlinin şeirləri, Salatın Əhmədlinin hekayələri də maraqla oxunur.

**Mən "Yada düşdü" jurnalına, ilk növbədə, Nəzakət xanıma, onun əməkdaşlarına yaradıcılıq uğurları arzulamaqla sözümü bitirirəm. Amma "Yada düşdü"nün sözü hələ bitməyib.**

## *ELMİ PRAKTİK KONFRANS*




**Son illərdə bir çox mətbuat orqanlarında və televizya kanallarında məlumatlar verilir ki, ölkəmizdə və dünyanın bir çox yerlərində arılar xəstəliklərin və ziyanvericilərin təsirindən kütləvi surətdə qırılır, məhv olurlar. Azərbaycanda bunun qarşısını qismən almaq istiqamətində arıçıları məlumatlandırmaq və maarifləndirmək məqsədi ilə vaxtaşırı tədbirlər keçirilir. Belə tədbirlərdən biri də aprel ayının 14-də Şəki Dövlət Dram Teatrının böyük zalında keçirilən elmi-praktik konfrans olub. Konfransın təşkilatçıları Azərbaycan Peşəkar Arıçılar Birliyi və Şəkidə fəaliyyət göstərən tanınmış arıçı Lətif Lətifovun rəhbərlik etdiyi "Qinyətoğulları" arıçılıq təsərrüfatının təşkilatçılığı ilə reallaşdı.**

Konfransda ölkəmizin bir çox rayonlarından fəal arıçılar iştirak etdilər. Konfransı giriş sözü ilə Azərbaycan Peşəkar Arıçılar Birliyinin sədri Elxan Ələkbərov açdı. O, ölkəmizdə bu sahədə indiyədək görülən işlər və qarşıda duran vəzifələrdən danışdı.



Sonra söz verildi İsrail Kənd Təsərrüfatı Tədqiqat Təşkilatı Etnomologiya İnstitutunun baş elmi işçisi, elmlər doktoru Viktoriya Sorokerə. O, "Arı xəstəliklərindən irəli gələn problemlərin həlli yolları" mövzusunda məruzə etdi. Onun məruzəsi yerli arıçılar tərəfindən alqışlarla qarşılandı. Sonra Qazaxıstanın Almata şəhəri Arıçılar Birliyinin sədri Larisa Siqunovanın, Rusiya Federasiyası N.V.Rudnitski adına Şimal-Şərq Federal Kənd Təsərrüfatı Elmi Mərkəzinin Arıçıq laboratoriyasının rəhbəri Anna Brandorfun "Arı xəstəlikləri və profilaktiki tədbirlər" mövzusunda çıxışları dinlənildi.

Bakı Dövlət Universitetinin elmi işçisi Elvira Təhməzlinin "Arı xəstəlikləri diaqnostikasının əhəmiyyəti" mövzusunda çıxışı da maraqla dinlənildi. Sonra məruzələr ətrafında verilən suallar cavablandırıldı. Arıçılar istifadə etdikləri dərmanların və başqa yardımçı vasitələrin bəzən keyfiyyətsiz olmasından şikayətləndilər.

Konfransda Azərbaycan Peşəkar Arıçılar Birliyi və Bakı Dövlət Universiteti arasında gələcəkdə əlaqəli iş birliyi yaradılmasının ümumi işə əhəmiyyətli təsir edə biləcəyi qeyd edildi. Geniş əhatəli məruzələrdə və çıxışlarda qeyd edildi ki, hazırda dünyada atmosferin çirklənməsi bütün sahələrdə olduğu kimi, arıçılığa da öz mənfi təsirini göstərir.

Konfransda qeyd edildi ki, arıçıları qarşılaşdıqları problemlərdən qorumaq üçün mövcud əlaqələrin daha da genişləndirilməsinə ehtiyac vardır. Tədbirdə Azərbaycan Arıçılar Assosiasiyasının və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri də iştirak etdilər. Konfransın sonunda fəal arıçılara sertifikatlar təqdim olundu.

**Məmmədtağıbəy Nağıbəyov**
**Bakı Dövlət Universitetinin**
**Jurnalistika fakultəsinin tələbəsi**

## *Suriyada dövlət çevrilişinin qarşısı alınıb*



**Suriya təhlükəsizlik xidmətləri Müdafiə Nazirliyi ilə birlikdə Suriya ordusunun keçmiş zabitlərindən ibarət qrup tərəfindən təşkil edilmiş dövlət çevrilişinə cəhdin qarşısını alıb.**

Adalet.az xəbər verir ki, bu barədə Suriyanın daxili işlər naziri Ənəs Xəttab məlumat yayıb. Bildirilir ki, sui-qəsdçilər "devrilmiş rejimin" tərəfdarlarına arxalanaraq hazırkı hökuməti devirməyi planlaşdırıblar. Hüquq-mühafizə orqanlarının operativ işi və əhalinin dəstəyi sayəsində onların planlarının üstü açılıb.

"Biz əvvəlki rejimin zabitləri tərəfindən hazırlanan dövlət çevrilişi planlarının qarşısını aldıq. Bu, silahlı qüvvələrimizin və xalqımızın səyi nəticəsində mümkün olub", - deyə rəsmi açıqlamada bildirilir.

## *Pediatr: "Valideynlər uşaqlarına qida seçimində nümunə olmalıdırlar"*

**"Valideynlər uşaqların qida seçiminə müəyyən bir yaşa qədər müdaxilə edə bilərlər".**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan "Sağlam radio" da pediatr Regina Nemətova açıqlayıb.

Onun sözlərinə görə, əvvəlcə valideynlər uşaqlarına qida seçimində nümunə olmalıdırlar:

"Uşaqlar valideynlərinin davranışlarını izləyərək, öz seçimlərini formalaşdırırlar. Valideynlər həmçinin uşaqlara qida seçiminin nə üçün vacib olduğunu izah etməli və onların bədənə faydalı olan qidaları seçməyə təşviq etməlidirlər. Uşaqların qida seçimlərinə müsbət təsir göstərmək üçün daha məqsədəuyğundur təklif edilən qidaları maraqlı və cəlbedici etmək. Müdaxilə qadağalarla deyil, dəstək və maarifləndirmə ilə olmalıdır. Valideynlər uşaqlarının rasionunda kifayət qədər vitaminlər, minerallar, zülallar və karbohidratların olmasına nəzarət etməlidirlər. Şirinlər və "fast-food" kimi qidaların çox istifadəsinin uşaqların sağlamlığına uzunmüddətli təsir göstərə biləcəyini unutmamalıyıq. Lakin uşaqlara qadağalar qoymaq və ya onları cəzalandırmaq əvəzinə, sağlam qidaların arasından seçim etmə imkanı vermək daha yaxşıdır".

R.Nemətova bildirib ki, bundan başqa, valideynlər yalnız uşaqlarının nə yediyini izləmək deyil, həm də onlara qida seçimini şüurlu şəkildə etməyi öyrətməlidirlər:

"Valideynlərin uşaqlarının qida seçiminə müdaxiləsi qayğıkeş və sağlam vərdişlərin yaranmasına yönəlmiş olmalıdır. Bu, səbir və dəstək yanaşması ilə həyata keçirilməli, sərt qadağalardan qaçınılmalıdır".

## *İnsan həyatı ölümdən sonra da davam edir?*

**Bir qrup alim fərziyyə irəli sürüblər ki, insan həyatı fiziki ölümün başlaması ilə bitmir. Əksinə, onların fikrincə, ölüm müasir elmin hələ əlçatan üsullarla qeyd və ya ölçmək iqtidarında olmadığı, mövcudluğun əsaslı yeni formasına keçid anı ola bilər.**

Adalet.az xəbər verir ki, bu barədə amerikalı alimlər araşdırma aparıblar.

Tədqiqatçılar qeyd edirlər ki, ölümdən sonrakı həyat məsələsi bəşəriyyətin ən böyük sirlərindən biri olaraq qalır və bu həm akademik ictimaiyyət, həm də sadə insanlar arasında qızğın müzakirələrə səbəb olur.

Bu məsələ ilə bağlı fikirlərin diapazonu son dərəcə genişdir - ölümdən sonra həyatın mümkünlüyünü tamamilə inkar etməkdən tutmuş, axirətin mövcudluğuna möhkəm inama qədər. Elmi komanda təklif edir ki, insanın şəxsi şəxsiyyəti fiziki ölümdən sonra müasir alətlər tərəfindən aşkar edilməyən maddənin başqa ölçüsündə və ya vəziyyətində qala bilər.

Bu ideyanın maddi bədəndən azad olan və mənəvi ölçüdə mövcudluğunu davam etdirən ruhun ölməzliyi ilə bağlı dini anlayışlarla müəyyən paralellər vardır. Bu fərziyyə bir sıra müşahidələrə, o cümlədən ölümə yaxın təcrübələrə dair hesabatlara əsaslanır, burada ölümə yaxın təcrübə keçirmiş insanlar oxşar hissləri bildirirlər - tuneldən keçərkən, parlaq işıqla qarşılaşdıqda, ölən qohumları ilə ünsiyyətdə olur və ya öz həyatlarında baş verən hadisələri nəzərdən keçirir. Bəzi neyrofizioloqlar belə təcrübələrin şüurun başqa mövcudluq formasına keçidinin ilk təzahürləri ola biləcəyini deyiblər.

Bununla belə, digər tədqiqatçılar bu hadisələrin ölmək üzrə olan beyində baş verən biokimyəvi proseslərlə izah oluna biləcəyinə inanırlar. Bununla belə, NDE-lərin bəzi aspektlərini, məsələn, xəstələrin klinik ölümləri zamanı baş verən hadisələri dəqiq təsvir etdikləri halları təkcə beyin fəaliyyəti ilə izah etmək çətindir.

Alimlər vurğulayırlar ki, hazırda nə ruhun varlığına, nə də onun reenkarnasiya ehtimalına dair təkzibedilməz elmi dəlil yoxdur.

Bununla belə, sübutun olmaması yoxluğun sübutu deyil və bu sahə ən son texnologiya və metodologiyalardan istifadə edərək əlavə fənlərarası tədqiqat tələb edir.

**Tədqiqatçılar təklif edirlər ki, əgər onların fərziyyəsi təsdiqlənərsə, bu, insanın həyat, ölüm və öz təbiətimiz haqqında təsəvvürlərinin əsaslı şəkildə yenidən nəzərdən keçirilməsinə gətirib çıxara bilər, həmçinin müasir cəmiyyətin etik, fəlsəfi və hətta hüquqi aspektlərinə təsir göstərə bilər.**

Mənzər Niyarlı



# "AXIRINCI GEDİŞ" ROMANININ TARİXİ QƏHRƏMANLARI

**Azərbaycanın tanınmış şair və yazıçısı Şövkət Zərin-Horovlu "Axırıncı gediş" romanını CənubiAzərbaycanda və Əfqanıstanda baş verən milli azadlıqhərəkatına həsr etmişdir. Müəllifin ilk iri həcmli"Açılmamış zərf" əsərində sırf Əfqanıstan həyatından, orda baş verən vətəndaş müharibəsindən, ixtişaşlardan,Sovet qoşunlarının Kabil şəhərindəkiözbaşınalıqlarından danışılırsa, bu əsərdə isə müəllifCənubi Azərbaycanda vətənini azad görmək istəyən,bir neçə dəfə şah rejiminə qarşı üsyan edən və buüsyanı Əfqanıstanda davam etdirən, sonda süqutauğramış soydaşlarımızın faciəli həyatları qələməalınmışdır. Əsərin ilk səhifələrində Səttarxan məşruta(konistusiya) inqilabı, onun 1905-1911-ci illərdəkifəaliyyəti yada salınır. Təəssüf ki, İran-russövdələşməsi sayəsində, eyni zamanda aralarındakısatqınların olması ucbatından irticacı şahın əmriləsəttarxançıların inqilabi mübarizəsinə son qoyulur, vətən təəssübkeşlərin çoxu zindana salınır, öldürülür. Çox keçmir ki, 1920-ci ildə əsas qərargahları Rəştşəhərində yerləşən Gilan "Cəngəllilərı" (Meşəadamları) hərəkatı başlayır. Ancaq Gilan hərəkatı dadarmadağın edilir. Vətən uğrunda mübarizəyə qalxanfədailərin sağ qalan üzvləri ölkəni tərk etməli olurlar.Bu fədailərin içərisində əsərin qəhrəmanı Əbdülqədirxan da vardı. Müəllif onun timsalında özlərinivətəninin azadlığı yolunda mücadilə edənsoydaşlarımızın faciəli həyatlarını çox təbii şəkildə təsvir etmişdir. Ən yaxın silahdaşlarından olan Kiçikbəylə Ehsənulla xan öldürüldükdən sonra Əbdülqədir ailəsini, oğlunu vətənindən çıxartmaq qərarına gəlir. Yolda şaxtalı, qarlı havada həyat yoldaşı soyuqdan donur. Qadını çox çətinliklə Əbdülqədir xan dəfn edir, oğlu Osmanı isə şaxtadan qarşıların kəsən canavarlardan qorumaq üçün koğuşların birinə salır, sonra çox çətinliklə gizləndikləri yerdən çıxaraq sərhədə yaxınlaşıb Əfqanıstana keçir, Kabil şəhərinə gələrək orda məskunlaşır. Bu fədailərin keşməkeşli ömür yolunu oxuduqca müəllifin tarixi dərindən bilməyi və hadisələrə həssas münasibətinin şahidi oluruq.**

Ədəbiyyatşünas Sərvaz Hüseynoğlu roman haqqında təəssüratını belə ifadə edir. "Romanda yurd-vətən sevdalı obrazlarının hər birinin faciəli, həyatı ağrılı bir dillə təsvir olunur. Səlis, aydın dil, uyarlı təhkiyə, üslub zənginli, müəllifin tarixə mükəmməl bələdiliyi (və yüksək vətəndaşlıq duyğusu) bütün hallarda əsərin oxunaqlığını, üstün ədəbi-bədii məziyyətlərini təmin edir".

Əbdülqədir Əfqanıstanda təqiblərə məruz qalsa da burada da öz inqilabi fəaliyyətini davam etdirir, hətta artıq feodal əfqan həyatına alışan Osman da atasının yolu ilə gedir. Əfqan xalqının ağır həyatına, yoxsulluğuna, zalım şahın qəddarlığına dözə bilmir və Əfqanıstanda demokratik ölkə qurmaq istəyən fəallara qoşulur.

Müəllif əsərdə tez-tez keçmişə qayıdır. Osman xanın xatirələri vasitəsilə Əbdülqədirin gənclik həyatı yada salınır. Osman xan Təbrizdə, Ərdəbildə, Rəştdə baş verən ixtişaşlara, haqsız yerə dinc əhaliyə qarşı edilən işgəncələrə etirazını bildirən və buna görə də qəddar atası tərəfindən evdən qovulan,






İran şahın göstərişilə hüququ əlindən alınan Əbdülqədir xanın əzablı həyatını göstərməyə çalışır.

Eyni zamanda artıq yaşa dolmuş atasının burada da Zair şahın adamları tərəfindən təqib olunduğunu görüb narahat olur. Əbdülqədir xan dostu Cəlalədin xanla birgə Qarabağ qəryəsində onun açdığı məktəbdə uşaqlara dərs deyir, gizli yolla xalqın gözünü açmaq məqsədiylə ölkədə başverən haqsızlığı, zülmü əks etdirən "İşıq" qəzetinə kəskin məqalələr yazır. Osman xan atasının siyasi fəaliyyətindən uzaqlaşdırmaq istəsə də Əbdülqədir xan, hətta Zair şah onu yanına çağırıb eyhamla hədələsə də, əqidəsindən dönmür. Elə ona görə də Əbdülqədir Zairşahın əmrilə gecə yatdığı yerdə qətlə yetirilir.

Şövkət xanım keçən əsrin yetmişinci illərində bir neçə il Əfqanıstanda yaşamış, orda baş verən siyasi prosesləri yaxından izləmişdir. Hiss olunur ki, müəllif əsəri ürəkağrısı ilə yazıb.

Əfqan xalqının ac, yalavac, yoxsulluq içərisində yaşayan, bir parça çörək üçün qapılarda nökərçilik edən nəfərlərin (kişilərin), xüsusən hüquqsuz, məktəbdə oxumaqlarına qadağan edilən qadınların acı talelərı onu sarsıdırdı. Bir tərəfdən də Sovet qoşunlarının Əfqanıstanı zəbt etməyi də müəllifi qəzəbləndirirdi. Burda rusun məqsədi ədaləti bərpa etmək, əhalinin rifahını yaxşılaşdırmaq adı altında öz çirkin siyasətini həyata keçirmək idi.

Roman XI fəsildən ibarətdir. Fəsillərin birində yerli puştuların, zalımlığı onların türk millətinə qarşı qərəzlimövqeyi, xəzərilərə düşmən gözü ilə baxmaları təsvir olunur. Varlı puştular gəlmə xəzəriləri (türk əsilli insanları) incidir, qadınlarını qapılarında nökər kimi işlədir, kişilərinə dövlət idarələrində işləmələrinə qarşı çıxırdılar. Əbdülqədir xan kimi savadlı, ədalətli insanlarsa öz soydaşlarının müdafiəsinə qalxaraq onların təhsil almalarına, işlə təmin olunmasına yardımçı olurdular.

Əsərdə maraqlı qadın obrazları da diqqət çəkir. Osman xanın oğlu Mahmudun sevgilisi - müəllimə Səriyyə, itkin düşən fədai ağayi Rzanın yolunu gözləyən Şiringül, valideynləri ev sahibi tərəfindən öldürüldükdən sonra qardaşı Cəlaləddinlə didərgin həyatı surən Gülxarə və s.

Kimsəsiz Şiringül sevgilisi ağayi Rzanın öldüyünü eşidən kimi özünə qəsd edir.

Səriyyə ilə Mahmud bir-birilərini sevsələr də Mahmudun qardaşı Rüstəmin xainliyi ucbatından iki sevgili uzun müddət bir-birlərindən ayrı düşürlər. Qəryədə Səriyyə məktəbdə dərs dediyi üçün Molla Kadirin fitvasıyla daş-qalaq olunur. Gənc nəslin savadlanması üçün əlindən gələni əsirgəməyən bu qorxmaz qız bizə Cəfər Cabbarlının Almazını xatırladır. Səriyyəni özünə övrət etmək istəyən molla Kadir ondan rədd cavabı aldığı üçün adamları bu cəsur, qorxmz qıza qarşı qaldırır, uca səslə:

"Yandırın bu qəryənin adına ləkə gətirən, əxlaqsızlıq yuvasını. Dinimizə, imanımıza şəkk eləyib qızlarımızı itaətsizlikdərsi deyən bu kafiri qovun bu qəryədən. Ay müsəlmanlar, kim islam ümmətinə sığınırsa daş atsınbu kafirə" deyir.

Çox təqdirəlayiqdir ki, müəllif əsərdə Əfqanıstanda yaşayan soydaşlarımızdan, onların hansı əsrdə bu torpaqlara köçməsindən də bəhs edir. XVIII əsrdə Nadir şah Əfşarın qoşunları bu ərazilərə yürüşləri zamanı minlərlə Qızılbaşlar burda məskən salmışdılar.

Nəinki Güney azərbaycanlılar, həm də Qarabağdan, işğalçı rus qoşunları tərəfindən Gəncəyə hücumda 1904-cü ildə Cavad xan öldürüldükdən sonra, onun tərəfdarları ruslar tərəfindən torpaqları alınıb ermənilərə verildiyi üçün bu haqsızlığa dözməyən xanlarımızın, böylərimizin çoxu Əfqanıstana köç etmiş, burada məskunlaşarkən bu böyük ərazilərə öz dədə-baba yurdunun adını vermişlər. Qarabağ qəryəsi, Nənəkçi qəryəsi və s.

Müəllif Əfqanıstanda olarkən kökü Güney və Quzey Azərbaycandan olan soydaşlarımıza, xüsusən qadınlarımıza rast gəlib, onların həyat tərzləriylə maraqlanıb. Azərbaycan əsilli olan bu qadınların Əfqan, Pakistan qadınlarından fərqli geyimləri, danışıq tərzləri, uz quruluşlarının türk qadınlarına oxşarlığı müəllifin diqqətini cəlb edib.

Həm də yazarın qeyd etdiyi kimi, neçə əsrdir ki, burada yaşayan soydaşlarımız öz adətənənələrimizi, milli bayramlarımızı mərasimlərimizi qoruyub saxlayıblar.

Əsərdə biz Qarabağ qəryəsində məskunlaşan vətənpərvər Əbdülqədir xanın davamçıları olan nəvələri (Osman xanın oğlanları) Mahmudla Rüstəmin də inqilabi fəaliyyəti ilə tanış oluruq. Bir atadan, bir anadan olan bu iki qardaşın əqidələri, tutduqları mövqeləri başqa - başqadır. Əgər Mahmud inqilabçılara qoşulub şah üsul-idarəsinə qarşı mübarizə aparırsa Rüstəmsə rus bolşevizmə meyillidir. Rüstəm onların təsiri altında atasına, vətən uğrunda mücadiləedən fədailərə qarşı çıxır.

Ruslar tərəfindən sovetlər ölkəsinə oxumağa göndərilir. Bir müddət keçmir ki, Nataşa adlı cəsus bir qızla evlənib Kabilə qayıdır.

Sonda Rüstəm tutduğu əməldən peşiman olur. O da çox keçmir ki, babası kimi terrorçular tərəfindən öldürülür.

Müəllif "Axırıncı gediş" əsərində unudulan, yaddan çıxan hadisələri qələmə alaraq tarixi dərindən bildiyi üçün oxucunu məlumatlandırır.

Sərvaz Hüseynoğlunun dediyi kimi: "Axırıncı gediş" bütün məziyyətləri ilə,hər şeydən əvvəl, bir vətənpərvərlik, yenilməzlik, əhdəvəfa, sədaqət dərsliyidir və yaxud "Şövkət Zərin Horovlunun tarixə hədsiz bələdliyinin aşinalığının heyranı olmaya bilmirsən".

Əfqan xalqı həmişə, indinin özündə də təlatümlər içərisindən yaşayıb və yaşayır da. Müəllifin əsərin sonluğunda yazdığı sözləri ilə desək "...tutqun payız günəşi gah görünür, gah da dörd yandan Kabilin üstünə əyilən dağların arxasında yox olurdu. Əsrlərlə həsrətin çəkdikləri bu Azadlıq günəşi Əfqanıstanın dumanlı göylərində bir də görünəcəkmi. Kim bilir."

**Şövkət Zərin Horovlunun "Axırıncı gediş" romanı gerçəkliyi, tarixi hadisələri dolğun, düzgün əksetdirmək, həyat həqiqətlərini, eyni zamanda hər bir obrazın canlı təsviri baxımından öz dəyərli yerini tutub və tutacaq da. Həm də əminliklə deyə bilərəm ki, bu əsər oxucular tərəfindən maraqla qarşılanacaq.**



# BAYAT



№ 39 (899)



# Sevgini heç bir şey əvəz eləmir, Sevgi olmayanda yazmağa dəyməz

*Ayaz Arabaçı*

Yoxundan nə qədər yıxılar adam,
Heçindən nə qədər yıxılar adam.
Ayağı dolaşıb qanadlarına,
İçindən nə qədər yıxılar adam..

Nə qədər oturub siqar piləyər,
Nə qədər Allahdan kömək diləyər,
Nə qədər özünü boyayar qana,
Nə qədər gözündən yağış çiləyər..

İlahi sən özün keç günahımdan,
Yollar ayağımı şişə taxırlar.
Adamlar kef çəkib mənim ahımdan,
Heç nə eşitmirmiş kimi baxırlar.

Beşcə barmağı var uzağı vur-tut,
Bir əldən nə qədər çıxılmaq olar..
Bu ömür ipindən aç burax məni,
Bu ipdə nə qədər sıxılmaq olar.

Birtəhər dözürdüm dilini tapıb,
Bu köhnə dərdlərin kamanı deyil.
Özünü quş kimi divara çırpıb,
Hönkürüb ağlamaq zamanı deyil..

Gözəldi bu ağac,bu ip,bu kətil..
Bu ömrün üstündə əl işim olsun.
Elə doymuşam ki,bir dəfəsindən,
Bu mənim sonuncu gəlişim olsun.

Dolub belimdəki günah zənbilim,
Yığıb ətəyini gedək deyirsən.
Açma qollarını taybatay mənə,
Sən daha döydüyüm qapı deyilsən.

Yoxundan nə qədər yıxılar adam,
Heçindən nə qədər yıxılar adam..
Ayağı dolaşıb qanadlarına,
İçindən nə qədər yıxılar adam?...

***

Sevgi olmayanda heç nəyin olmur,
Yəni ki,bir yaran-göynəyin olmur.
Sətəlcəm olursan,allah deyəndə,
Alovdan-atəşdən köynəyin olmur.
Sevgi olmayanda heç nəyin olmur,
Ürəyin isinmir dosta-sirdaşa.
İçində bir misra şeir doğulmur,
Adcə daş kimi baxırsan daşa.

Daş lələ çevrilmir,almaza dönmür,
Gül-gülə bənzəmir,yaz-yaza dönmür,
Gəlintək bəzənib qarşına çıxan,
Yasəmən gözündə kol kimi qalır.
Alıb qanadına aparmır səni,
Yol da cansıxıcı yol kimi qalır.
Sevgi olmayanda heç nəyin olmur,

Mənа kəsb eləmir tapdığın bir iz..
Sevgi olmayanda nədi ki,dəniz..
Bir mazut qoxulu su yığınıdı.
Bir qucaq qorxulu su yığınıdı.
Sevgi olmayanda ürək nədi ki..
Sümükdən düzəlmiş bağa qınıdı..
Sevgin olmayanda heç nəyin olmur..

Çıxır adamlıqdan sirin-sifətin,
Eləcə bir yığın ətə dönürsən.
İtir nəğmələnmək qabiliyyətin,
Sevgi olmayanda itə dönürsən.
Qaralır ciyərin sobadan betər,
Ütülmüş bığından his iyi gəlir.
Sevgi olmayanda firuzədən tər,
Qızıldan göyərmiş mis iyi gəlir..

Sevgiyə can atır həyatda hər kəs,
Hər ucuz fikirdə azmağa dəyməz.
Sevgini heç bir şey əvəz eləmir,
Sevgi olmayanda yazmağa dəyməz.

***

Hərdən əsəblərim yerində olmur,
Heç nədən qan töküb,qada salıram.
Qoyub qabağıma yaralarımı,
Üstünə duz səpib dada salıram..

Sağ deyil könlümün bir qarışı da..
Almıram vecimə qarı-qışı da,
Xətrimi istəyən dost-tanışı da,
Özümnən bərabər oda salıram.

Ötüb ayrılığın ilinnən,ötüb,
Bəminnən uzaşıb,zilinnən ötüb,
Qərib durnaların dilinnən ötüb,
Dağlara-daşlara səda salıram.

Bəxt məndən həmişə aralı keçib,
İçimdən o qədər yaralı keçib,
Göz yaşım Xəzəri,Aralı keçib,
İçində adına ada salıram.

Axşamda-səhərdə tək deyiləm ki,
Ağuda-zəhərdə tək deyiləm ki,
Bu dönük şəhərdə tək deyiləm ki,
Səni bütün günü yada salıram..

***

Saxlar ürəyinin qızıl yerində,
Doyanda "mis"ləməz adam adamı.
Aparıb azdırmaz dumanda-çəndə,
Aldadıb sisləməz adam adamı.

Bu sevda ayrılıq donuna çıxar,
Bəxtdi də minindən onuna çıxar,
Sevəndə biryolluq sonuna çıxar,
Yandırıb hisləməz adam adamı.

Görüşə dağları yanıynan çəkər,
Hər yükü ruhuynan,canıynan çəkər,
Şəklini qəlbinin qanıynan çəkər,
Yalandan süsləməz adam adamı.

Barmaqlar bir həzin ney üstə küsər,
Dodaqlar küsəndə mey üstə küsər,
Bir dəfə bir ciddi şey üstə küsər,
Boş yerə "küs"ləməz adam adamı.

Sən mənə hər zaman gərəksən deyər,
Sevdiyim bu səssən, bu rəngsən deyər,
Öpüb aradabir ürəksən deyər,
Həmişə pisləməz adam adamı.

Biz ən "qıl körpü"nün üstəyik,lap ən,
Bir ucunda mənəm,bir ucunda sən,
Mən ölə bilərəm sevindiyimdən,
Belə çox istəməz adam adamı.

***

Qırov tutub saqqalımı-saçımı,
Üşüyürəm apar məni oda sal.
Bilirsən ki,iyrənirəm çiy ətdən,
Ürəyimi kabab elə,dada sal.

Məndən küsən gözün qaşın sağ olsun,
Bağın-bağçan,dağın-daşın sağ olsun,
Gələmmirsən canın-başın sağ olsun,
Bir məktub yaz,unutduğun ada, sal.
Qəfil dönüb göydə uçan quşa,gəl,
Payız könlüm iştah açıb turşa,gəl,
Eybi yoxdu qılınc-qalxan qurşa gəl,
Mənə bir də bəla gətir, qada sal.

Papirosum saçın kimi qoxuyur,
Dərd içimi ilmə-ilmə toxuyur,
Kimə necə sərf eləyir oxuyur,
Bu nəğməni bəyəndiyin "lad"a sal..

Vardan yoxa,yoxdan vara getmişəm,
Sınıq-sınıq,para-para getmişəm,
Bir də gördün "oppa"lara getmişəm,
Heç olmasa bircə dəfə yada sal..

***

Qalıb arzu kimi gül olmaq arzun,
Könül qanatmaqda xara çəkmisən.
Dağımın üstündən dağ dikəltmisən,
Yaramın üstündən yara çəkmisən.

İçinə gizlənib, bu nə şəhərdi,
Havası qüssədi, suyu qəhərdi,
Özün çox gözəlsən dilin zəhərdi,
Qaçıb tez-tələsik mara çəkmisən.

Çoxları aparmır həsəd yaxşı ki,
Şikayət eləmir cəsəd yaxşı ki,
Düzəlib bu sərhəd,bu sədd yaxşı ki,
Yaxşı ki,ortadan ara çəkmisən.

Dayazdı,dərindi özün qazıbsan
Məndən ayrılanda gedib azıbsan,
Dedilər adımı quma yazıbsan,
Dedilər şəklimi qara çəkmisən.

Qaldı o istəklər arxa planda,
İtdin and içilib, əl basılanda,
Sən də ordaymışsan bəxt yazılanda,
Götürüb üstümdən qara çəkmisən.

Boş ver əhdə dedin-ilqara dedin,
Get qurşan şəraba,siqara dedin,
Mən elə ağ dedim,sən qara dedin,
Tərslikdə bilmədim hara çəkmisən.

***

Mən ondan hələ də baş açammıram,
Hər məni görəndə lal kimi olur.
Təbəssüm çəkilir gülər üzündən,
Sifəti dəyişib sal kimi olur.

Gəlhagəl kimindi,keşməkeş kimin,
Qəlbini qırmasın Allah,heç kimin,
Kimi sevirəmsə zalım eşqimin,
Meyvəsi ömürlük kal kimi olur.

Yalandan deyirlər çiçək kimidi,
Yalanlar məzmunca gerçək kimidi.
Məhəbbət sağalmaz xərçəng kimidi,
Qabaqca balaca xal kimi olur.

Xoruz var,kefinə düşəndə banlar..
Mətləbi,ariflər anında anlar..
Qızlar tez ayılır,amma oğlanlar,
Elə uşaqlıqdan mal kimi olur.

Tale düyün-düyün,buruq-buruq ki..
İflic arzuların boynu buruq ki..
Boş yerə o qədər oxuduruq ki,
Ömür də sürtülmüş val kimi olur..

Sülhə qol qoyubdu söz-sözü vurmur,
Keyfimi heç kimin nəşəsi qurmur..
Vüqarım dikəlib mıx kimi durmur,
Qürurum əyilib nal kimi olur.

Canımın odunda qaynayan xörək,
Bişginən,başıma nə gəlir görək,
Yaltağın bəh-bəhnən yediyi çörək,
Tula qabağında yal kimi olur..

Çiçəklər açılsın qırışında da..
Qal elə o namda,o nişanda da..
Ayaz heç danışmır,danışanda da,
Hər sözü yağ kimi,bal kimi olur.

***

Qoy bütün şəkillər qapqara çıxsın,
O aylı-ulduzlu fonu dəyişdim.
Yaşıl köynəyimi soyunub atdım,
Payıza köklənib donu dəyişdim.

Heç kimi tapmadım geri dönəndə,
Hamı susub qaldı kədər dinəndə,
Bir dənə pencəyim vardı,dünən də,
Apardım çörəyə onu dəyişdim..

Getdim savaşadək,getdim qanadək,
Dirəndim,dayandım ən son anadək,
Dərdimi Tanrıya anladanadək,
Yüz dəfə-min dəfə konu dəyişdim.

Gördüm ocaq sönüb,buxarı keçib,
Süfrədə baş yerə suxarı keçib..
Baxdım ki,arsızlıq yuxarı keçib,
Səsimi azaldıb tonu dəyişdim.

Çox şükür..Div-ata,div-ana,şükür..
Bu cırıq yastığa,divana şükür,
Yenə də hər nədi,İvana şükür,
Dostluğa yaramır Conu dəyişdim.

Dərdə saqqızımız saçaq-saçaqdı,
Vaxt qoca quldurdu,ömür qaçaqdı,
Axırı başqa cür qurtaracaqdı,
Özüm bilə-bilə sonu dəyişdim...

***

Yarpağı saralıb,çiçəyi solub,
İlahi,bir azca sula,bəxtimi.
Əyləşdir ağalıq, bəylik təxtinə,
Çevirmə,bu qədər qula,bəxtimi.

Saxlaya bilmirəm ehtiyat kimi,
Baxır yağı kimi,baxır yad kimi,
Məndən elə qaçır köhlən at kimi,
Tutsaydım satardım pula,bəxtimi.

Ləzzət eləmədi bir ömür biyar,
Hər iblis bir mələk donunda piar..
Düşüb gecə-gündüz diyarbədiyar,
Varmı bir ozan ki,bula,bəxtimi.

Nə dilim şəkərdi, nə yaram təzə,
Bir az da məzə qat,bu dərdə,məzə.
Bir bilet almışam gedər-gəlməzə,
Aparım azdırım tula bəxtimi.

***

Ocağıydı,çırağıydı qabaqlar,
Torpağıydı,vətəniydi adamlar.
Niyə belə birdən-birə yad oldu,
Anamıydı-atamıydı adamlar.

Nainsaflıq bu son həddə deyildi,
Hörmət-izzət yağda,ətdə deyildi,
Yüz sifətdə,min sifətdə deyildi,
Ya paraydı,ya tamıydı adamlar.

Necə döndü canavara hər quzu,
Hardan çıxdı iri əyri buynuzu,
Könül adlı süfrəmizin həm duzu,
Həm dadıydı,həm tamıydı adamlar.

Adı biznes,soyu biznes deyildi,
Yası biznes,toyu biznes deyildi,
İndikitək şou-biznes deyildi,
Qabaq bir az adamıydı adamlar..

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 14 (2437) 18 aprel 2025-ci il

# SUQOVUŞANDA GÜN İŞIĞI



**Dünyanın ən gözəl, ən füsunkar yeri təbii ki, insanın anadan olduğu, böyüyüb boya-başa çatdığı torpaqdır. Ona Vətən deyirlər. Vətənin isə şirinliyindən, gözəlliyindən heç vaxt doymaq olmur. Və Vətəndən ayrı düşəndə həsrətdən, kədərdən, dərddən adamın dodağı dörd yerdən çatlayır. Əlbəttə, bu dərdi, bu kədəri Vətəndən uzaq düşən, onun həsrətini çəkən insanlar daha yaxşı bilirlər.**

Azərbaycan torpaqları ermənilər tərəfindən işğal olunandan sonra Suqovuşan kəndinin sakinləri də didərgin düşdülər. Onlar öz ana yurduna, torpağına, çeşməsinə, suyuna, gülünə-çiçəyinə həsrət qaldı. O torpaqda erməni faşistləri elə bir cinayət törətdilər ki, bu heç vaxt yaddan çıxan deyil. Və o torpağa şəhidlərimizlə yanaşı dinc insanların da qanı töküldü. O qan elə-belə qan deyildi, güllərə, lalələrə dönüb yenidən baş qaldırırdı. Bəlkə də bunu



erməni faşistləri bilirdilər və görürdülər. Amma onlar bu gözəlliklərdən, bu güllərdən, çiçəklərdən, yaşıllıqlardan və ağaclardan zövq almaq əvəzinə onların hamısını məhv edirdilər. Harda çinar ağacı vardı, harda palıd ağacı vardı, harda qoz ağacı vardı və harda iri gövdəli, qolu-budaqlı ağaclar vardı hamısını kəsib aparırdılar. Hətta bulaqlarımızı, çaylarımızı, torpağımızı belə zəhərləyirdilər. Biz görmüşük ki, insan torpaqda ağac əkər, gül əkər, çiçək əkər, amma ermənilər işğal etdikləri Azərbaycan ərazilərindəki yerlərə mina əkirdilər. Bu minaların sayı yüz minlərlədir və bəlkə də bir milyondan çoxdur.

Bax, Suqovuşan camaatı da 30 ildən çox Vətən həsrətini belə ağrı-acı, dərd və kədərlə yaşadılar. Onların gecələr yuxuları da ərşə çəkilirdi. Və bir balaca gözlərinə yuxu gələndə Suqovuşanı görürdülər - yanmış, dağılmış evlərini, eşiklərini görürdülər. Yuxularında da görürdülər ki, yaşadıqları kəndin daşı-daş üstə qalmayıb, amma Allah-Təala ermənilərin bizim xalqa yaşatdığı bu zülmə çox dözmədi və onların bizim millətə verdiyi əzab-əziyyəti Azərbaycan prezidenti İlham Əliyevin və Ordumuzun gücü ilə yağı düşmənə qaytardı. Onlar bizə nə yaşatmışdılarsa hamısı 2020-ci il 44 günlük İkinci Qarabağ savaşında onun əvəzini aldılar. Yəni Azərbaycan əsgəri Xocalının, Ağdamın, Füzulinin, Qubadlının, Kəlbəcərin, Laçının, Şuşanın qisasını erməni əsgərlərindən aldılar.

Axır ki Suqovuşanı da gün işığı isitdi. Belə ki bir neçə gün bundan əvvəl həmin kəndin 54 ailəsi, yəni 178 sakini doğma yurda döndü. Bu yurda dönmək, bu yurda qayıtmaq o kəndin adamları üçün cənnətə düşmək kimi bir şeydi. Çünki cənnət elə Vətəndi. Vətən yoxsa cənnət də yoxdur. Aydındır ki, Azərbaycan dövləti və konkret olaraq Ali Baş Komandan, cənab prezident İlham Əliyev işğaldan azad olunmuş bütün yaşayış sahələrində böyük quruculuq və abadlıq işlərinin aparılmasına dair göstəriş verdi. Elə ilk gündən həmin şəhərlərdə, qəsəbələrdə və kəndlərdə çox böyük quruculuq işlərinə başlandı. Belə yaşayış yerlərindən biri də Suqovuşandır. Orda insanların yaşayışı və hərtərəfli istirahəti üçün bütün infrastruktur qısa zaman kəsiyində inşa edildi. Kəndə asfalt yol çəkildi. Bir-birindən gözəl yaşayış binaları, sosial obyektlər, xəstəxana, uşaq bağçası, məktəb tikildi. Təbii ki, doğma yurda qayıdan insanlar bu gözəl mənzərələri görəndə istər-istəməz onların uçmağa qanadları olmadı. Suqovuşan kəndinin sakini Nərminə Məmmədova deyir ki, mən həmişə kəndimizi yuxularımda görərdim. Özü də görərdim ki, köhnə evimizdəyik, evimiz yanıb, sadəcə divarları qalıb. Bəli, biz bura gəldik, ermənilərin vəhşiliklərinin şahidi olduq. Amma onun da şahidi olduq ki, Azərbaycan prezidenti İlham Əliyev biz kənd camaatı üçün hər cür şərait yaradıb. Bizə çox yaraşıqlı və hər cür şəraiti olan üçotaqlı mənzil verilib. Evə girəndə gözlərimizə inanmadıq. Heç Bakıdakı təzə evlərdən fərqlənmir. Hər şey gözəldir, evin divar kağızları da, döşəməsi də, tavanı da, mətbəxdəki işlər də hamısı yüksək səviyyədə inşa edilib. Sevincimdən gözlərim doldu. Evimizin qapısından, divarından öpdüm. Sonra həyətə çıxıb doyunca kəndimizin təmiz havasını uddum. Adama ləzzət eləyirdi. Həyat yoldaşım və balalarım da sevinc içindəydi. Bəlkə də bizim kənd dünyanın ən gözəl kəndidir. Kənddə bütün ağaclar çiçək açıb, yarpaqlayıb, hər tərəf yaşıllıq içindədir. Ot adamın dizinə qədər böyüyüb. İstəyirsən ki, elə bu yaşıllıqların üstündə də uzanasan. Yaxşı qanqal da bitib, elə doyunca qanqal da yedik.

Suqovuşanın başqa bir sakini Əhəd Alıyev də sevincini gizlədə bilmir. Əhəd kişi deyir ki, Zəngilana, Füzuliyə, Şuşaya və digər yerlərə insanlar qayıdandan sonra biz də kəndimizə dönməyi böyük sevinclə gözləyirdik. Gözləyirdik ki, görəsən nə vaxt kəndimizə gedəcəyik. Allah bu xoş günü bizə qismət elədi. Min şükür, indi də ailəm, balalarım, nəvələrimlə bir yerdə bizə ayrılmış bu yaraşıqlı mənzildə yaşayırıq. Özü də bu yaz günündə kəndə köçməyin özgə bir ləzzəti, özgə bir zövqü, özgə bir gözəlliyi var. Əlbəttə, biz bura gələndə çox sevindik. Dövlətimizi və cənab prezidentimizi Allah qorusun. Çünki artıq bizə Suqovuşanda yaşamaqla yanaşı, iş yerləri də yaradılıb. Təbii ki, bu şəraitin yaradılması hər birimizdə sabaha olan sevgini və ümidi daha da artırır. Ən azından ona görə ki, xeyli həyətyanı sahəmiz var və burda müəyyən tərəvəz məhsulları əkə biləcək, onun bəhrəsini görəcəyik. Biz kənd adamlarıyıq ey, həmişə torpağa bağlı insanlar olmuşuq. Gücümüz nəyə çatıbsa onu əkmişik və əkdiyimiz məhsulları yeyəndən sonra artığını bazara çıxarmışıq və qohum-əqrəbaya vermişik. Aydındır ki, belə bir gözəl şəraitin mövcudluğu bizdə qurub-yaratmaq eşqini daha da gücləndirir.

**Suqovuşan kəndinin hansı sakini ilə söhbət etdiksə, onlar bir fikri xüsusilə vurğuladılar. Hamı bir ağızdan dedi ki, bizi bura qaytaran Ali Baş Komandan, prezident İlham Əliyevə və Ordumuza minnətdarıq! Bu torpağın hər qarışında şəhidlərimizin və qazilərimizin qanı var. İndi baxırıq güllərə, çiçəklərə, lalələrə elə bilirik ki, şəhidlərimizdi, torpaqdan yenicə boylanırlar. Onların boyuna qurban olaq və hər yandan, hər güldən, hər çiçəkdən, hər lalədə onların qoxusu, ətri gəlir!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyənin hər guşəsi, hər bölgəsi canlı tarix, möcüzə və əsrarəngiz gözəllik mənbəyidir

**İlin fəsillərindən asılı olmayaraq Türkiyənin hər hansı bir bölgəsinə üz tutan qonaq orada mütləq yeni bir təbiət möcüzəsi ilə qarşılaşır. Sanki, Tanrı bu Türkiyəni bir cənnət olaraq yer üzünə bəxş etmişdir. Türkiyəyə səyahət edən hər kəs cənnətə düşdüyünü anlayır. Türkiyənin gözəlliyi haqqında yüzlərlə səyyah öz əsərlərində qeydlər aparıblar. Məşhur səyyah Övliya Çələbi öz əsərlərində yazırdı ki, "Bu bölgə (Türkiyə) sanki cənnətdir. Dünyanın çox ərazisini gəzsəm də anladım ki, cənnət yalnız buradır."**

Tək Övliya Çələbi yox, ta qədim zamanlardan üzü bəri Türkiyəyə üz tutan hər bir əcnəbi bu arazi ilə bağlı o qədər xoş sözlər yazıb ki, bu fikirlər indi də öz aktuallığını qoruyub saxlayır. Hər daşı bir tarix olan Türkiyə dünən olduğu kimi, bu gün də həmin əcnəbi səyyahların nəvə və nəticələrinə sevdirən cənnət sayılacaq bölgələrdən biri Bodrumdur. Qədimliyi və müasirliyi özündə əks etdirən Bodrum bu gün turistlərin ən çox axın etdiyi ərazidir.

Bodrum Türkiyənin Muğla vilayətinin 13 ilçəsindən biridir.

Gözəl təbiəti, dənizlə təması, tarixi abidələrlə zənginliyi Bodruma turizm axının artmasına səbəb olur. Dəniz suyunun şəffa və gözəl olması, yerləşmə zonasının füsunkar olması səbəbindən dünbyanın bütün ölkələrindən turistlərin Bodruma səfər etməsini sürətləndirir. Məhz bu səbəbdəndir ki, Bodrum bu gün Dünya Turizm Agentliyinin siyahısında turist axınına görə öndə gedən bölgələrindən biridir.

Bodrum eyni zamanda beynəlxalq hava limanına yaxındır. Hava limanından Bodruma olan məsafəsi cəmi 35 km-dir. Həmçinin Bodrumda üç böyük marina və böyük sərnişin gəmilərinin yanaşa biləcəyi körpü də mövcuddur.

Olduqca qədim tarixə malik olan Bodrumda çoxsaylı tarixi abidələr var. Halikarnassos'ta M. Ö 484-ci ildə doğan və "Tarixin Atası" kimi tanınan Heredota görə Bodrum Dor'lar tərəfindən qurulmuşdur. Daha sonra Karya və Leleg'ler bu bölgəyə yerləşmişlər. M.Ö.650-ci ildə Megeralılar gələrək şəhəri genişləndirmiş adını da Halikarnassos olaraq dəyişdirmişlər. Bodrum M. Ö 386-ci ildə iranlıların suverenliyinə girmişdir.

Halikarnassos ən parlaq dövrünü M. Ö 353-ci ildə Karya bölgəsinin paytaxtı olduqda yaşamışdır. Dünyanın yeddi möcüzəsindən biri olan mausoleum bu dövrdə Kral Mausolosun xatirəsinə bacısı və eyni zamanda arvadı olan Artemisia tərəfindən inşa edilmişdir.

Bodrum M. Ö 192 romalılar tərəfindən işğal edilir. Ancaq romalılar öz mədəniyyətlərini bu şəhərdə əxs etdirə bilməyib.

M.S. 395-ci ildə Bizaslıların, M.S. XI əsrdə osmanlıların himayəsinə keçib. I. Səlib döyüşlərində Bizanslıların, XIV. əsrdə təkrar Türklərin əlinə keçmişdir.



1415-ci ildə Rodos Cəngavərlərinin əlinə keçmişdir.

1522-ci ildə Qanuni Sultan Süleyman dövründə təkrar Osmanlı İmperatorluğuna ərazisinə daxil edilib.

### *Bodrum Qalası*

Bodrum Qalası iki liman arasında, üç tərəfi dənizlərlə əhatəli qayalıq bir yarımada üzərində inşa edilib. Şimali cəhətdən quruya bağlıdır. Qala ğlçüləri 180 x 185 metr əhatə edir. Ən yüksək yeri dəniz səviyyəsindən 47,50 metr yüksəklikdəki Fransız Qüllədsidir. Bu qüllədən başqa İngilis, İtalyan, Alman qüllələri ilə Yılanlı qüllə olmaq üzrə dörd qüllə daha var. Qalanın şərq divarı xaricində qalan hissələri, cüt bədən divarı ilə bərkidilib.

Bodrum qalasının divarlarında 249 gerb var. Bundan başqa 16 gerb də muzey bağçasında sərgilənir. Fransız qülləsinin şimal-şərq üst küncündəki bayraq üzərində, şərq divarı, seyirdim yolunun Fransız qülləsinə baxan tərəfində, Sen Katerin kabartmasında rəng izlərinə rast gəlinməkdədir.

### *Mavzoley*

Dünyanın yeddi möcüzəsindən biri olaraq qəbul edilən Mausoleum'un inşasına Karya Satrabı Mavsolos vaxtında (təxmini M.Ö.355) başlanmış onun ölümündən sonra həyat yoldaşı olan Artemissia inşasını davam etdirmişdir. Bu əsər İon nizamında 36 sütunun bəzədiyi orijinalı 46 metr yüksəkliyində olan və təpəsində bir zəfər tağı olan 21 pilləli bir piramidanın taclandırdığı nəhəng bir abidə məzardır.

M.S. 13-ci əsrə qədər qorunan antik məzar əvvəl bir zəlzələ nəticəsində dağılsa da, daha sonra bu daşları Bodrum Qalasının inşasında istifadə edilib. Bundan başqa bu məzara aid bir çox qabartma və heykəllər 1856-ci ildə İngilis Arxeoloq C. Nyuton tərəfindən Britaniya Muzeyinə aparılıb. Buna görə bu anıta aid əsərlərin çoxu British Museumda, ancaq çox az bir qisimi Bodrumda sərgilənir.

### *Antik Teatr*

Helen dövründən günümüzə gələn əhəmiyyətli tarixi abidələrdən biridir. 3 əsas hissədən ibarətdir. Bunlar Səhnə, Orkestra və Oturma yeridir. Bina uzun düzbucaqlı bir quruluşdur. Hər iki ucda oyunçuların girəcəyi bir qapı vardır. Bunlardan başqa 3 əsas giriş qapısı var. 1973-ci ildə edilən qazıntılardan sonra açıq hava muzeyi olaraq qorunur.

Bodrumda ən çox sevilən tarixi abidələrdən biri də Mindos Qapısıdır.

**Halikarnassosun iki giriş qapısından biri olan Mindos Qapısı Bodrumun Qərb tarafındadır. Bu gün ancaq bu qapının qalıqları qalıb. Tarixi araşdırmalara görə Böyük İskəndər şəhəri mühasirəyə alarkən M.Ö.333-ci ildə bu qapıdan daxil olub. Tarixçilər qeyd edir ki, İsgəndər çox çətin bir müqavimətdən sonra şəhəri fəth etmiş və mausoleum xaric bütün şəhəri məhv edir. Tarixi abidələr və müasir otellərlə zəngin olan Bodrum turistlərin ən sevimli məkanıdır. Bütn ölkələrdən bu şəhəri ziyarətə gələnlər var. Bodrumdakı müasir otellərin çoxluğu onu deməyə əsas verir ki, bu şəhər bir neçə ildən sonra regionun turizm mərkəzi olacaq. Daha bir maraqlı məqam isə sosial şəbələrdə Bodrum haqqında olan müzakirələrdir. Qısa araşdırmamadan sonra bu qənaətə gəldim ki, turistlər Bodrumu nağıl şəhər olaraq qeyd edirlər.**

# Premyer Liqa klublarına cəza və cərimələr

**AFFA İntizam Komitəsinin iclası keçirilib. QOL.az xəbər verir ki, iclasda Misli Premyer Liqasının 30-cu turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul edilib.**

"Səbail" - "Qarabağ" oyunu bitdikdən sonra meydançaya kənar şəxslər daxil olduğuna görə klub 800 manat cərimələnib.

"Turan Tovuz" - "Sabah" oyununda "Turan Tovuz"un 4 nəfər sarı vərəqə aldığı üçün klub 700 manat cərimə edilib.

Həmin matçın 19-cu dəqiqəsində "Turan Tovuz"un baş məşqçisi Kurban Berdiyev ikinci sarıdan qırmızı vərəqə aldıqdan sonra hakimləri təhqir etdiyinə görə 3 oyun şərti olmaqla 5 oyunluq cəzalandırılıb, klub 4000 manat cərimələnib. Sınaq müddəti 3 ay təyin edilib.

Bu görüşdə "Turan Tovuz" klubunun azarkeşləri tərəfindən meydançaya kənar əşyalar atıldığına görə klubu 800 manat cərimələnib.

Sözügedən oyunda "Turan Tovuz" klubunun azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 5-ci dəfə təkrarlandığına görə "Turan Tovuz" 1000 manat cərimə edilib.

Eyni matçın 45+2-ci dəqiqəsində "Sabah"ın 18 nömrəli futbolçusu Pavol Safranko ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalanıb, klubu 500 manat cərimələnib.

"Sumqayıt" - "Şamaxı" oyununda "Şamaxı"nın fotoqrafı zonalar üzrə qaydanı pozduğuna görə klub 500 manat cərimə edilib.

"Kəpəz" - "Araz-Naxçıvan" görüşündə "Kəpəz"in azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələrin səsləndirildiyinə və bu hal cari mövsümdə 2-ci dəfə təkrarlandığına görə klub 500 manat cərimələnib.

"Neftçi" - "Zirə" oyununda "Neftçi"dən 4 nəfər sarı vərəqə aldığı üçün paytaxt təmsilçisi 700 manat cərimələnib.

Bu matçda "Neftçi"nin azarkeşləri tərəfindən rəqib futbolçuya irqi mənsubiyyətinə görə təhqiramiz səslər çıxarıldığına görə "Neftçi" klub 2000 manat cərimə edilib.

## *Türkan Vəlizadə: "Hündür boy kişiləri sevmirəm"*



**Türkan Vəlizadə necə bir bəylə ailə qurmaq istədiyini söyləyib.**

Adalet.az xəbər verir ki, müğənni efirdə ona verilən sualı belə cavablandırıb:

"Kişidə gözəlliyə önəm verən insan deyiləm. Yəni düşünmürəm ki, ailə quracağım adam çox yaraşıqlı olmalıdır. Boyu çox hündür kişilərdən xoşum gəlmir. Orta boylu olsun, yetər. Bir də əsas qəlbi gözəl olsun. Ürəyi geniş olsun. Zahiri gözəllik bir ana məhv ola bilər. Amma heç bir qəza, heç bir hal gözəl xasiyyəti dəyişə bilməz.Ürəyimə elə gəlir ki, mənim qarşıma elə bir insan çıxacaq ki, deyəcək artıq oxuma".

## *Xatirə İslam: "Bu peşəni sevmirəm"*



**Xatirə İslam izləyicilərinin onun haqqında bilmədiyi bir məlumatı söyləyib.**

Adalet.az xəbər verir ki, müğənninin ilk peşəsi, ümumiyyətlə musiqi sahəsi olmayıb: "İlk dəfə tibb kollecinə qəbul oldum. Dörd il oxudum, axırıncı kursda dedim ki, mən bu peşəni sevmirəm. Sənədlərimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənəti Universitetinə verdim. Həmin ali məktəbdə xalq artisti İslam Rzayevin "xanəndəlik" sinfində dərs aldım. Sevdiyim işlə məşğulam. Buna görə çox xoşbəxtəm. Mən tibb bacısı ola bilməzdim. Heç elə ürəyim də yoxdur".

## *Rahidə Baxışova: "Heç bir sənətçi bunu etməz"*

**Uzun zamandır ekranlardam görünməyən Rahidə Baxış şou-proqramların birində qonaq olub.**

Adalet.az xəbər verir ki, efirə gecikməyinin səbəbini açıqlayıb: "Mən bu telekanala yaxın məsafədə yaşayıram. Ancaq yollar elə vəziyyətdədir, tıxac o qədər çoxdur ki, yenə də gecikirəm. Bu, qətiyyən özümdən aslı bir səbəb deyil. Heç bir sənətçi istəməz ki, efirə geciksin. Heç bir müğənni bilərəkdən efirə gecikmir. Yəni heç bir sənətçi bunu etməz".

**Əntiqə**

## *Ermənilərin serialı Türkiyədə yayımlanacaq: "Luys TV"-də*




**Ermənilər Türkiyədə bir yeniliyə imza atıb. Adalet.az xəbər verir ki, Türkiyədə yayımlanan ilk erməni-türk telekanalı "Luys TV" X-in mikrobloqunda "4 yaramaz çocuk" (4 afacan çocuk) serialının tezliklə yayımlanacağını açıqlayıb. Və bu, Türkiyədə yayımlanan ilk erməni serialı olacaq.**

Məlumatı Türkiyədə fəaliyyət göstərən Ermenihaber.am yayıb. Bildirilir ki, serial erməni dilində türkcə subtitrlərlə yayımlanacaq.

Qeyd edək ki, "Luys" televiziyası İstanbulda yaşayan erməni jurnalist Aram Kuran tərəfindən təsis edilib. 2019-cu ildə yayımlanmağa başlayıb. Yanvarın 6-da. Yayımlanan proqramların 70 faizi ermənicə, 30 faizi isə türk dilindədir.

Kanalın yayımlarında adətən xəbər proqramları, uşaq proqramları, sosial və mədəni həyatla bağlı müxtəlif proqramlar yer alır.

**Əntiqə Rəşid**

Aqil Abbas **Xoşqədəm Hidayətqızına** anası
**Ofeliya xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu **Xoşqədəm Hidayətqızına** anası
**Ofeliya xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 225
Çapa imzalanmışdır: 17.04.2025